

**“İctimai nəzarət olmadan korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə biz qalib gələ bilmərik. Ona görə, dövlət siyasəti, güclü siyasi iradə artıq özünü göstərir və müsbətə doğru dəyişikliklər də var. İnstitusional tədbirlər görülür, islahatlar aparılır və bu mübarizə geniş ictimai dəstəyə də malikdir. Ancaq bu dəstək daha da fəal olmalıdır.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*

*Oktyabr - Dekabr (2015-ci il)*



**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbayramov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova



**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
**Tel.:** 492 25 17 **Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**



"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 18.01.2016
60x84 1/8 formatda 156 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 1350 nüsxə



© "Azərbaycan Prokurorluğu", 2016

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

**13** Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir

**16** Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə münasibətilə Azərbaycan xalqına təbriki

## RƏSMİ TƏDBİRLƏR

**18** Azərbaycan Prokurorluğunun kollektivi peşə bayramını qeyd etmişdir

**22** Prokurorluq işçilərinin fəaliyyəti ölkə Prezidenti tərəfindən qiymətləndirilmişdir

**23** Prokurorluq işçiləri həvəsləndirilmişlər

**26** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı qeyd olunmuşdur

**28** Baş Prokurorluqda ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilmişdir

**31** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilmişdir

**33** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

**35** 'Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Rusiya Federasiyası İstintaq Komitəsi arasında əməkdaşlıq haqqında Saziş imzalanmışdır

**37** MDB-nin Müşahidə Missiyası Qərargahının rəhbəri Baş prokurorun birinci müavini ilə görüşmüşdür

**37** Avstraliya Parlamentinin üzvləri Baş Prokurorluqda olmuşlar

## TƏBRİKLƏR

**38** 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun ünvanına təbrik məktubları daxil olmuşdur

## TƏHLİLLƏR, TƏKLİFLƏR

**58** Sərdar İmanov – Cinayət prosesində hal şahidlərinin iştirakı məsələləri

## MƏHKƏMƏ-İSTİNTAQ TƏCRÜBƏSİ

**61** Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin bəzi vəzifəli şəxsləri barəsində cinayət işi başlanılmışdır

**62** Milli Təhlükəsizlik Nazirliyinin bəzi vəzifəli şəxsləri barəsində cinayət işi başlanılmışdır

**64** Bakı şəhərinin Nardaran qəsəbəsində silahlı cinayətkar dəstə zərərsizləşdirilmişdir

**66** Dövlət Neft Şirkətinin "Günəşli" yatağındakı yanğın ilə əlaqədar cinayət işi başlanılmışdır

**67** Vartan Sirmakesin cinayət məsuliyyətinə cəlb edilməsi üçün İsveçrə Konfederasiyası Baş Prokurorluğuna müraciət olunmuşdur

## İCTİMAİYYƏTƏ HESABAT

**68** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində geniş əməliyyat müşavirəsi keçirilmişdir

**69** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Hüquqi şəxslərin cinayət məsuliyyəti və əmlakın bərpası" mövzusunda təlim keçirilmişdir

**70** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ixtisasartırma kursları təşkil edilmişdir

**72** Baş prokurorluğun əməkdaşları "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" III beynəlxalq elmi-praktiki konfransda iştirak etmişlər

**74** Azərbaycan Respublikasının prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi dairəsi genişlənir

**76** Təqsirsizlik prezumpsiyası prinsipinin tətbiqinə dair seminarlar keçirilmişdir

**77** Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması istiqamətində tabe rayon (şəhər) prokurorluqlarında təlimlərin keçirilməsi davam edir

**79** Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşq keçirilmişdir

**80** Naxçıvan Muxtar Respublikasında Konstitusiya Gününə həsr olunmuş konfrans keçirilmişdir

**82** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi" ilə əlaqədar yerlərdə maarifləndirici tədbirlər keçirilmişdir

**83** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları tələbələrlə görüşüb

## PROKURORLUĞUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**85** Azərbaycan Respublikası Prokurorluğu daha bir mötəbər quruma üzv qəbul olunub

**86** BMT çərçivəsində Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyəti yüksək qiymətləndirilmişdir

**88** Prokurorluğun nümayəndə heyəti İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Antikorrupsiya Şəbəkəsinin 18-ci geniş iclasında iştirak etmişdir

**89** Prokurorluğun nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının "Terrorizm və zorakı ekstremizmə qarşı mübarizə" mövzusunda konfransda iştirak etmişlər

**91** Azərbaycan Respublikasının Beynəlxalq Antikorrupsiya Akademiyasına verdiyi töhfələr yüksək qiymətləndirilmişdir

**92** Baş Prokurorluğun nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzv dövlətlərinin baş prokurorlarının 2-ci iclasında iştirak etmişdir

**94** Avropa Şurası ilə əməkdaşlıq uğurla davam edir

**97** Azərbaycanın nümayəndə heyəti türkdilli ölkələrin Məhkəmə Şuralarının iclasında iştirak etmişdir

**98** Baş Prokurorluğun nümayəndəsi Avropa Prokurorlarının Məşvərətçi Şurasının iclasında iştirak etmişdir

**99** Baş Prokurorluğun əməkdaşı beynəlxalq mükafata layiq görülmüşdür

**101** Baş Prokurorluğun əməkdaşları "Mütəşəkkil cinayətkarlıqla mübarizə" mövzusunda beynəlxalq forumda iştirak etmişlər

**101** Baş Prokurorluğun əməkdaşı Antikorrupsiya işçi qrupunun iclasında iştirak etmişdir

**102** Baş Prokurorluğun əməkdaşları "Korrupsiyaya qarşı mübarizə" tədris məşğələsində iştirak etmişlər

## NORMATİV HÜQUQİ AKTLAR

**103** Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

**Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

**Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi**



– Nazirlər Kabinetinin bugünkü iclasında biz ilin 9 ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, bu il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu, özlüyündə böyük göstəricidir. Çünki dünyada və bölgədə gedən proseslər göz qabağındadır. Həm bölgədə, həm Avropada böhran yaşanır, iqtisadi, hərbi, siyasi böhran. Belə şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Bunun bir səbəbi var. O da ondan ibarətdir ki, Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq.

Azərbaycanda sabitlik təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib – Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək.

Əlbəttə, müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır. Çünki bu gün dünyada qütbləşmə göz qabağındadır, bu proses gedir. Böyük ölkələr öz təsir dairələrini genişləndirmək istəyirlər və görəndə ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, əlbəttə, bu, onları qıcıqlandırır. Ancaq bu, bizi narahat etməməlidir. Bu məsələlərə, ümumiyyətlə, mən fikir vermirəm. Çünki mənim üçün əsas məsələ ölkəmizin təhlükəsizliyi, inkişafı və sabitliyidir. Ona görə, Azərbaycan bundan sonra da müstəqillik yolu ilə gedəcək.

Bu gün dünyada artıq Azərbaycanın inkişaf modeli haqqında danışılır, qeyd edilir. Həm siyasi sahədə, beynəlxalq münasibətlərin tənzimlənməsində, ölkədaxili proseslərin inkişafında, multikultralizmlə bağlı bizim təcrübəmiz öyrənilir. Həm də hesab edirəm ki, iqtisadi inkişaf modelimiz də bu gün bir çox ölkələr üçün cəlbedici ola bilər. Çünki biz şaxələndirmə yolu ilə gedirik. Ölkə iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir.

Biz son illər ərzində aparılan islahatlar nəticəsində bu səviyyəyə qalxa bilmişik. Müstəqillik, müstəqil siyasət, milli maraqlar bizim üçün əsas vəzifədir, əsas məsələdir. Biz bundan sonra da Azərbaycanın seçimini qoruyacağıq, bütün təzyiqlərə, bəzi hallarda təxribatlara baxmayaraq, öz yolumuzdan dönməyəcəyik. Sosial-iqtisadi göstəricilərimiz də bir daha təsdiq və sübut edir ki, biz düzgün yoldayıq.

Doqquz ayda Azərbaycan iqtisadiyyatı 3,7 faiz artmışdır. Nəzərə alsaq ki, biz bunu qeyri-neft sektorunun hesabına əldə etmişik, bu, çox böyük göstəricidir. Ümumiyyətlə, bu gün bölgədə gedən proseslər, qanlı toqquşmalar, iqtisadi tənəzzül, əlbəttə ki, istər-istəməz bizim iqtisadi inkişafımıza da mənfi təsir göstərir. Ondan əlavə, ilin əvvəlindən neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi – 100 dollardan 50 dollara, ondan da aşağı səviyyəyə düşməsi, əlbəttə ki, bizim gəlirlərimizə mənfi təsir göstərmişdir. Ancaq buna baxmayaraq, aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Hesab edirəm ki, indiki şəraitdə 3,7 faiz ən gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft iqtisadiyyatımız 6 faizdən çox artmışdır və bu da dediyim kimi aparılan islahatların nəticəsidir.

Sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 10 faizdən çox artmışdır. Bu da çox müsbət göstəricidir və onu göstərir ki, Azərbaycanda sənayeləşmə siyasəti uğurla icra edilir. Bir neçə il bundan əvvəl qarşıya qoyduğumuz vəzifə icra edilir. Çünki Azərbaycanın gələcək iqtisadi inkişaf perspektivləri sənaye istehsalı və kənd təsərrüfatı istehsalı ilə bağlı olacaqdır. Ona görə, qeyri-neft sənayesinin 10 faizdən çox artması, əlbəttə ki, bizi həm sevindirir, həm də daha da ruhlandırır. Biz bu yolla getməliyik və sənayenin inkişafının stimullaşdırılması üçün əlavə tədbirlər görüləcəkdir. Bu barədə bir qədər sonra danışacağıq.

Bu il “Kənd təsərrüfatı ili” elan edilib. Şadam ki, “Kənd təsərrüfatı ili”ndə kənd təsərrüfatımız da 6,7 faiz artmışdır. Ölkədə aparılan islahatlar, eyni zamanda, dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiyalar, texnika təminatı və bütövlükdə dövlət siyasəti, bax, bu vəziyyəti yaradır. İri fermer təsərrüfatlarının yaradılması da, xüsusilə, taxılçılıq sahəsində, böyük dönüşə səbəb olmuşdur.

Azərbaycanda inflyasiya 9 ayda çox aşağı səviyyədədir – 3,7 faiz. Əhalinin pul gəlirləri isə 5,8 faiz artıb. Beləliklə, hər il olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Bu da o deməkdir ki, əhalinin real gəlirləri ildən-ilə artır. Baxmayaraq ki, yenə də demək istəyirəm, bu il həm ölkə, həm bölgə üçün ağır il olaraq qalır.

Ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub. Onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayədir. Bu da çox gözəl göstəricidir. Çünki bu gün dünyada maliyyə və likvidlik qıtlığı yaşanır. Bir çox ölkələr öz ölkələrinə daha çox investisiyalar cəlb etmək üçün çalışırlar və o cümlədən Azərbaycan. Biz də əsas vəsaitimizi ölkəmizə qoyuruq. Eyni zamanda, xarici investorlar üçün də Azərbaycan cəlbedici ölkə kimi tanınır. Biz çalışmalıyıq ki, investisiya iqlimini daha da yaxşılaşdıraq və bu sahədə əlavə tədbirlər görüləcəkdir.

Bu il sosial sahədə bir çox uğurlu layihələr icra edilmişdir. Qeyd etməliyəm ki, sosial infrastrukturun yaradılması prosesi gedir. Baxmayaraq, xərclərimiz təbii ki, azalır, ancaq biz sosial infrastrukturun yaradılmasına bu il də kifayət qədər böyük vəsait ayırmışıq. Bu vəsait hesabına 9 ayda ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Bu da bizim niyyətimizi, siyasətimizi göstərir. Çünki dəfələrlə demişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Buna görə, sosial sahə gələn il də prioritet sahə kimi diqqət mərkəzində olacaqdır.

Hesab edirəm ki, ünvanlı sosial yardım sahəsində də çox müsbət dəyişikliklər baş vermişdir. Şəffaflıq təmin edilir. Görülən tədbirlər, islahatlar nəticəsində bu sahə insanları daha az narahat edir. Çünki hamımız yaxşı bilirik ki, əvvəlki illərdə bu sahə ilə bağlı çoxsaylı şikayətlər daxil olurdu. Artıq yaradılan yeni sistem – şəffaflıq və sosial ədalət bu narazılığın böyük hissəsini aradan qaldırıb.

Onu da qeyd etməliyəm ki, şəffaflıq nəticəsində ünvanlı sosial yardım alanların sayı 16 faiz aşağı düşmüşdür. Çünki heç bir kriteriyaya görə ünvanlı sosial yardım düşməyənlər artıq bunu almırlar. Ancaq doğrudan da ehtiyac içində yaşayanlar bunu alır və onlara daha böyük məbləğ verilir. Bu gün 500 minə yaxın insan, 114 min ailə ünvanlı sosial yardım alır və hər ailəyə orta hesabla hər ay 153 manat dövlət tərəfindən yardım göstərilir. Bu, çox yaxşı nəticədir və əminəm ki, gələcək illərdə yoxsulluğun aşağı düşməsi nəticəsində ünvanlı sosial yardıma möhtac olanların sayı daha da azalacaq. Bizim vəzifəmiz, – bunu biz artıq neçə ildir ki, bəyan etmişik, – ondan ibarətdir ki, yoxsulluq bir fenomen kimi Azərbaycandan tamamilə yığışdırılsın. Biz bu sosial bəlanı aradan götürməliyik. Yoxsulluq Azərbaycanda aşağı səviyyədədir – 5 faiz səviyyəsindədir. Ümumiyyətlə, olmamalıdır və əminəm ki, biz gələcək illərdə buna daha da yaxınlaşacağıq.

İnfrastruktur sektorunda, infrastruktur layihələrinin icrasında da bu il kifayət qədər böyük işlər

görülüb. Təbii ki, bizim gəlirlərimiz neftin qiymətinin aşağı düşməsi nəticəsində azaldığına görə xərclərimiz də azalıb. Biz öz fəaliyyətimizi ancaq daxili resurslar hesabına qururuq. Biz xarici borclanmaya meyilli deyilik. Onsuz da manatın devalvasiyasından sonra bizim xarici borcumuz artıb. Çünki xarici dövlət borcu dollarla hesablanır və əgər devalvasiyaya qədər xarici dövlət borcumuz təxminən 7-8 faiz təşkil edirdisə, bu gün xarici borc 11-12 faizə qalxıb. Ona görə yox ki, biz əlavə kreditlər götürmüşük. Ona görə ki, manat qiymətdən düşüb. On iki faiz də çox gözəl göstəricidir. İnkişaf etmiş ölkələrin bəzilərində bu, 100 faizdən çoxdur. Ancaq biz istəyirik ki, xarici borcumuz 10 faizi keçməsin. Buna nail olmaq üçün biz gələcəkdə də öz fəaliyyətimizi ancaq daxili imkanlar hesabına qurmalıyıq. Ona görə, biz qazandığımıza müvafiq olaraq xərcləri nəzərdə tutmalıyıq. Ona görə, infrastruktur layihələrinin icrasında imkan daxilində işlər görülüb. Kənd yolları, içməli su, kanalizasiya layihələri, qazlaşdırma ilə bağlı layihələr – bütün bunlar bu il də icra edilib və mənim bölgələrə mütəmadi səfərlərim imkan verir ki, bu gözəl dəyişiklikləri, inkişafı öz gözümlə görüm.

Bu il 87 min yeni iş yeri yaradılmışdır ki, onlardan 67 mini daimi iş yeridir. Bu da gözəl göstəricidir. İş yerlərinin yaradılması prosesi daim aparılmalıdır. Mən bunu dəfələrlə demişəm və biz iqtisadi inkişaf modelimizi buna uyğun şəkildə qurmalıyıq. Çünki Azərbaycanda iqtisadi inkişaf, sabitlik, xalqın rifahının artması nəticəsində çox müsbət demoqrafik vəziyyət yaranmışdır. Hər il yüz mindən çox insan doğulur və belə olan halda əlbəttə ki, gələcəkdə biz yeni iş yerlərinin yaradılması üçün əlavə tədbirlər görməliyik. Ona görə, bu sahədə də yeni inkişaf strategiyamız müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq.

Regionlarda yaradılan iş yerləri, əlbəttə ki, ölkə iqtisadiyyatının çoxşaxəli inkişafına xidmət göstərir. Ancaq onu da qeyd etməliyəm ki, 9 ayda baxmayaraq, 67 min daimi iş yeri yaradılıb, 30 minə yaxın iş yeri bağlanıb. Bu da reallıqdır. Biz bu reallığı bilməliyik və burada ciddi təhlil aparılmalıdır ki, bu prosesin səbəbləri nədən ibarətdir. Əslində bu, təbii bir prosesdir. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da yeni iş yerləri açılır və bağlanır. Həmişə bizdə müsbət saldo müşahidə olunub, bu gün də belədir. Hətta böhranlı ildə 67 min daimi iş yerinin açılması böyük nəticədir. Yəni, əgər bağlanan iş yerlərini çıxsaq, 40 minə yaxın yeni iş yeri yaradılıb. Ancaq bununla bərabər, biz bağlanan bu iş yerlərinin təhlilini aparmalıyıq və bilməliyik ki, bu proseslər hansı səbəblər üzündən baş verir. Obyektiv səbəblər də, subyektiv səbəblər də ola bilər. Biz bu gün bu barədə danışacağıq.

Ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb edən nəqliyyat sektorudur. Bildiyiniz kimi, son illər ərzində bu sektora bəlkə də bütün infrastruktur layihələri arasında ən böyük vəsait ayrılmışdır. Çünki bizim coğrafi vəziyyətimiz diktə edir ki, burada – həm ölkə daxilində müasir nəqliyyat infrastrukturu yaradılmalı, həm də tranzit imkanlarımız genişlənməli, bizə daha da böyük həcmdə siyasi və iqtisadi dividentlər gətirməlidir.

Nəqliyyat sektorunun gələcək inkişafı daha da düşünülmüş şəkildə olmalıdır. Bu gün yüklər uğrunda mübarizə gedir. Bu gün yeni tranzit marşrutları açılır. Bölgə ölkələri rəqabət aparır. Bu da təbiidir, o vaxta qədər ki, bu, sağlam rəqabətdir. Azərbaycan da burada passiv bir müşahidəçi olmamalıdır. Bəzi hallarda gözləyirik kimsə gəlib bizim qapımızı döysün ki, gəlin biz sizdən yük keçirək. Biz özümüz təşəbbüs göstərməliyik, yükləri müəyyən etməliyik, yaxşı şərtlər ortaya qoymalıyıq. Ona görə, bu, çox ciddi məsələdir. Mən iclasın sonunda bu məsələyə daha da geniş toxunacağam.

Onu qeyd etmək istəyirəm ki, bu il Azərbaycanın tranzit imkanlarını genişləndirmək üçün çox əlamətdar hadisələr baş vermişdir. Avqust ayında Çindən Qazaxıstan ərazisindən keçməklə Azərbaycana birinci konteyner qatarı gəlmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə Azərbaycanın məsuliyyət daşıdığı hissəsi artıq istifadə üçün hazırdır. Bildiyimə görə, Türkiyə ərazisində son işlər aparılır. Verilən məlumata görə, gələn il Türkiyə ərazisində də bu xətt hazır olmalıdır. Belə olan halda bütün müvafiq qurumlar, əlbəttə ki, koordinasiya şəklində işləməlidir və bu xətt bizə çox böyük xeyir gətirəcək. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı çox yaxşı nəticələr var və bu da Azərbaycanın geosiyasi, geoiqtisadi önəmini daha da artıracaq.

"Cənub" qaz dəhlizinin yaradılması ilə bağlı 9 ayda çox gözəl, önəmli işlər görülmüş, addımlar atılmışdır. Bildiyiniz kimi, "Cənub" qaz dəhlizi ölkəmizin təşəbbüsü idi və artıq həm "Şahdəniz-2" yatağının işlənməsi, həm TANAP layihəsinin icrası istiqamətində ciddi praktiki addımlar atılır. Biz çalışırıq və çalışacağıq ki, bu layihə vaxtında icra edilsin. Biz çalışmalıyıq ki, layihənin önəmli hissəsi olan TANAP, – Azərbaycan əsas səhmdardır və bütün məsuliyyət də bizim üzərimizdədir, – vaxtında – 2018-ci ildə istifadəyə verilsin.

Digər layihələrdə – "Şahdəniz-2" və TAP layihələrində Azərbaycan əlbəttə ki, səhmdardır, ancaq biz əsas səhmdar deyilik. Ona görə, əsas operator məsuliyyəti başqa qurumların üzərinə düşür. O ki qaldı TANAP layihəsinə, Azərbaycan orada əsas sahibkardır. Ona görə, bizim məsuliyyətimizdə olan bu layihə əminəm ki, vaxtında icra ediləcək.

Daim diqqət mərkəzində olan sahə ordu quruculuğudur. Biz bu sahəyə daim böyük diqqət göstəririk. Bu da təbiidir, çünki Azərbaycan müharibə şəraitində yaşayır, müharibə bitməyib və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Bunu artıq hamı görür, o cümlədən bu məsələ ilə məşğul olan vasitəçilər.

Ordu quruculuğu gələn il də prioritet sahə olaraq qalacaq. Bu sahəyə nə qədər lazımdırsa vəsait ayrılacaq. İndi həm yeni texnikanın, silah-sursatın alınması, istehsalı prosesi gedir, eyni zamanda, hərbi hissələr üçün ən yüksək səviyyədə şəhərciklər, hərbi bazalar tikilir. Bu il Hərbi Dəniz Qüvvələrinin böyük bazası istifadəyə verilmişdir. Təmas xəttinə yaxın olan bölgələrdə yeni infrastruktur yaradılır və bizim döyüş qabiliyyətimiz artır. Təmas xəttindəki vəziyyət Azərbaycan ictimaiyyəti üçün sirr deyil. Biz tam üstünlüyü əldə etmişik, düşmənə sarsıdıcı zərbələr vururuq, düşmənin bütün təxribatlarına layiqli cavabımızı veririk.

Keçən ay düşmənin növbəti təxribatının qarşısı alındı. Bizə qarşı böyük təxribat hazırlanırdı, çoxsaylı diversantlar artıq təşkil olunmuş və səfərbər edilmişdi ki, Azərbaycanın mövqelərinə hücum çəksinlər. Bizim ordumuz o təxribatın qarşısını aldı. Preventiv zərbə vurmaqla düşmənə çox böyük ziyan yetirdi və bir çox işğalçılar məhv edildi. Əlbəttə ki, Ermənistan tərəfi dərhal həmişə olduğu kimi, hay-haray qaldırdı. Ancaq burada təbii sual yaranır, işğalçılar hansı ərazidə həlak oldular? Ermənistandamı? Xeyr, bizim torpağımızda. İşğal edilmiş torpaqlarda. Sual olunur, onların orada nə işi var? Özü də orada ölənlərin mütləq əksəriyyəti Ermənistan vətəndaşlarıdır, heç Dağlıq Qarabağ sakinləri deyil. Yəni, Ermənistan ordusu bizim torpaqlarımızda işğalçılıq siyasəti aparır. Bu, gün kimi aydın bir məsələdir. Əfsuslar olsun ki, bunu beynəlxalq ictimaiyyət, vasitəçilər görmək istəmirlər və işğalçıya ciddi siqnallar göndərilmir. Ona görə, onlar azğınlaşıblar və bizə qarşı müxtəlif təxribatlara əl atırlar. Ancaq hər dəfə onların təxribatları iflasa uğrayır. Necə ki keçən ilin noyabrında bizim mövqelərimizə hücum edən helikopter məhv edildi. Bu ilin sentyabr ayında böyük itkilər verdilər və hər dəfə biz onların cəzasını verəcəyik.

Biz ölkəmizin ərazi bütövlüyünü bərpa etməliyik və edəcəyik. Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən əhəmiyyətsiz deyil. Məsələ beynəlxalq hüquq çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və tapacaq. Biz isə iqtisadiyyatımızı gücləndiririk, ordumuzu gücləndiririk və istənilən vaxtda lazımi tədbirləri də görəcəyik.

Erməni diktatoru hətta Ermənistanın rəsmi mövqeyinə tamamilə zidd olan bəyanatlar verir. Bəyan edir ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir. Birincisi, Dağlıq Qarabağ Azərbaycanın tarixi, əzəli torpağıdır və beynəlxalq hüquq nöqteyinəzərindən Azərbaycanın ayrılmaz hissəsidir. Bunu bütün dünya ictimaiyyəti, BMT belə qəbul edir və heç bir ölkə Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi qəbul etmir, müstəqil qurum kimi də qəbul etmir və qəbul etməyəcək. Ona görə, bu, çox qəribə, yumşaq desək, qeyri-adekvat və görünür ki, çox gərgin psixoloji durumda verilən bəyanat həm Ermənistanı işğalçı ölkə kimi ifşa edir, həm də rəhbərliyini biabır edir. Çünki indi hər bir insan danışdığının məsuliyyətini daşımalıdır, xüsusilə böyük vəzifə sahibləri. Ancaq xunta rejimindən bundan artığını gözləmək də çətindir. Çünki Ermənistanın bugünkü hakimiyyəti hərbi canilərdir, Xocalı soyqırımını törədənlərdir. Azərbaycan torpaqlarının işğalında dinc əhaliyə qarşı aparılan etnik təmizləmə siyasətində fəal iştirak edənlərdir. Onlardan bundan artığını gözləmək mümkün deyil. Ancaq o da həqiqətdir ki, bu gün Ermənistanda hökm sürən xunta və diktatura rejimi Ermənistan xalqı üçün də təhlükəyə çevrilib. Ermənistan xalqı da artıq buna dözə bilmir, bu kriminal, korrupsioner rejimdən bezib. Ermənistandan köç gedir. Vəziyyət o həddə çatıb ki, onlar indi Azərbaycana pənah gətirirlər, Azərbaycana gəlirlər. Görün bu rejim nə dərəcədə azğınlaşıb, əhaliyə qarşı nə qədər çirkin əməllər görür ki, hətta bu gün Azərbaycana Ermənistandan insanlar köçür və burada rahat yaşayır. Çünki Azərbaycanda nəinki milli, dini zəmində heç bir qarşıdurma, heç bir anlaşılmazlıq da ola bilməz.

Azərbaycan bu gün güclü ölkədir, iqtisadi və siyasi sahədə böyük uğurlara imza atıbdır. Regional təhlükəsizlik məsələlərində Azərbaycan çox müsbət rol oynayır. Azərbaycan sabitləşdirici amildir. Bizim iştirakımız, razılığımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. İqtisadi və hərbi potensialımız bizim gücümüzü daha da artırır və biz bu gün təmas xəttində vəziyyətə nəzarət edirik. Getdikcə bizim gücümüz artacaq, Ermənistan daha da zəifləyəcək. Çünki inkişaf üçün Ermənistanda heç bir imkan yoxdur. Heç bir obyektiv amil yoxdur ki, Ermənistan bu diktatura rejimi altında inkişaf etsin.

Biz isə öz yolumuzla gedəcəyik. Biz ilin sonuna qədər bütün vəzifələri icra edəcəyik. Gələn ili də əminəm ki, uğurla başa vuracağıq.

***

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, səhiyyə naziri Oqtay Şirəliyev, təhsil naziri Mikayıl Cabbarov çıxış etdilər.



Dövlətimizin başçısı iclasda yekun nitqi söylədi.

**Prezident İlham Əliyevin yekun nitqi**

– İlin sonuna iki ay yarım vaxt qalır. Əminəm ki, ilin sonuna qədər görüləsi bütün işlər icra olunacaq və biz 2015-ci ili yaxşı göstəricilərlə başa vuracağıq.

Makroiqtisadi sabitliyin qorunması gələn il də prioritet olaraq qalacaq. Çünki bu, çox vacib sahədir. Hər bir ölkənin makroiqtisadi sabitliyi əsas şərtdir.

İslahatlar daha da dərinləşməlidir. İqtisadi islahatlar nəticəsində artıq böyük işlər görülüb. Bunu beynəlxalq qurumlar da qeyd edir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı yenə də çox yüksək pilləyə layiq gördü. Ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycan 40-cı yerdədir. MDB məkanında yenə də birinci yerdədir və bu, əslində görülən işlərin bariz nümunəsidir. Biz çalışmalıyıq ki, iqtisadi islahatları daha da dərinləşdirək və iqtisadiyyatı liberallaşdırmaq üçün əlavə tədbirlər görək.

"Fitch" reytinq agentliyinin də yüksək qiyməti bizi sevindirir. Bu, ədalətli yanaşmadır. Azərbaycanda görülən işlərin nəticəsidir ki, "Fitch", – baxmayaraq, bölgədə iqtisadi-maliyyə böhranı davam edir və dərinləşir, – Azərbaycana iqtisadi sahədə 3B investisiya reytinqini vermişdir. 3B reytinqi çox yüksək nəticədir. Ancaq biz çalışmalıyıq ki, daha da yüksək reytinqlərə nail olaq. Hesab edirəm ki, görüləcək əlavə tədbirlər nəticəsində biz buna da nail olacağıq.

Maliyyə nizam-intizamı gücləndirilməlidir. İsrafçılığa, izafi xərclərə yol verilməməlidir. Bəzi hallarda dövlət qurumları Maliyyə Nazirliyinə təkidlə müraciət edirlər ki, əlavə vəsait ayrılsın. Bu da yığışdırılmalıdır. İndi biz imkanımız nəyə çatırsa, onu da edirik. Hər bir insan, o cümlədən ölkələr yorğanına görə ayağını uzatmalıdır və məhz bu siyasət bizi bütün mümkün olan iqtisadi risklərdən qorudu. Çünki əgər biz qazandığımızdan daha çox xərcləsəydik indi iqtisadi vəziyyətimiz ağır ola bilərdi. Ona görə, prioritet təşkil etməyən layihələrə vəsaitin ayrılması dayandırılmalıdır, bu tapşırıqlar verilmişdir. Bununla bərabər, vacib olan bütün layihələrə kifayət qədər vəsait ayrılacaq.

Büdcə xərclərinin strukturuna yenidən baxılmalıdır və büdcə vəsaiti qənaətlə xərclənməlidir. Bir sözlə, maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir.

Vergi və gömrük orqanları da şəffaf və səmərəli işləməlidir. Daha çox büdcəyə vəsait toplaya bilərlər. Belə imkanlar, ehtiyatlar var. Həm vergi, həm gömrük

orqanlarına müvafiq göstərişlər verilmişdir ki, gələn il bu ehtiyatları aşkarlasınlar və büdcəyə əlavə vəsait toplasınlar. Əlbəttə ki, vergi bazası genişləndirilməlidir. Bunu hamımız yaxşı bilirik ki, imkanlar kifayət qədər genişdir. Sahibkarlar da vergiləri verməlidirlər, dövlətin vergisini hər kəs, hər bir sahibkar tam şəkildə ödəməlidir. Əfsuslar olsun ki, bizdə vergivermə mədəniyyəti hələ ki, tam oturuşmayıb.

Bununla bərabər, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalıdır. Yəni, başqa sözlə, onlardan rüşvət tələb, heç bir haqq tələb edilməməlidir. Belə olan halda bizim büdcəmiz daha da böyüyəcək, qeyri-neft sektorunun hesabına təmin ediləcək və bizim məqsədimiz bundan ibarətdir. Mən artıq müvafiq qurumlar qarşısında vəzifə qoymuşam. Bizim bütün cari xərclərimiz qeyri-neft sektorunun, vergi və gömrüyün hesabına formalaşdırılmalıdır. O ki qaldı Dövlət Neft Fondundan ənənəvi transfertlərə, o transfertlər ancaq investisiya layihələrinə yönəlməlidir.

Mövcud vergidən azadolmalar və güzəştlər sisteminə yenidən baxılmalıdır. Bu praktika bizdə var. Biz bu praktikanı yerli istehsalı stimullaşdırmaq, yeni müəssisələrin yaradılması və xaricdən gətirilən avadanlıqları burada quraşdırmaq üçün tətbiq etmişik. Hesab edirəm ki, bu işlərə artıq yenidən baxılmalıdır. İxracyönümlü qeyri-neft sektorunun inkişafı o cümlədən vergi mexanizmləri vasitəsilə stimullaşdırılmalıdır.

Korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılmalıdır. Bu mübarizə aparılır. Ancaq deyə bilmərəm ki, biz istədiyimizə tam nail ola bilmişik. Əlbəttə ki, inzibati tədbirlər və cəza tədbirləri tətbiq ediləcək. Bununla yanaşı, sistem xarakterli tədbirlər, institusional islahatlar aparılmalıdır. Çünki görürük ki, inzibati tədbirlər və cəza tədbirləri bir çox hallarda öz səmərəsini vermir, müvəqqəti xarakter daşıyır, bəzi hallarda insanların dəyişməsi o qədər də böyük səmərə vermir. Ona görə, sistem xarakterli islahatlar davam etdirilməlidir, yeni təkliflər verilməlidir və əlbəttə ki, “ASAN xidmət”in təcrübəsi geniş tətbiq edilməlidir.

“ASAN xidmət”in yaradılması ictimai xidmətlər sahəsində bir inqilab olmuşdur. Artıq 6 milyon insan qısa müddət ərzində “ASAN xidmət”ə müraciət etmişdir. İnsanların mütləq əksəriyyəti onlara göstərilən xidmətlərdən razıdır. “ASAN xidmət”də korrupsiya, rüşvətxorluq, bürokratiya yoxdur. Bu, nəyi göstərir? Birincisi, onu göstərir ki, bizim korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmağa böyük siyasi iradəmiz var. İkincisi, onu göstərir ki, korrupsiyanı, rüşvətxorluğu aradan götürmək mümkündür. “ASAN xidmət”də bu, mümkündürsə, başqa sahələrdə niyə mümkün deyil? Ona görə, burada hər bir dövlət qurumu nəticə çıxarmalıdır. “ASAN xidmət”in praktikası bütün yerlərdə tətbiq edilməlidir və “ASAN xidmət”in funksiyaları genişləndirilməlidir. Bu il də biz “ASAN xidmət”ə yeni funksiyalar vermişik, məhz o funksiyaları ki, ən çox korrupsiyaya uğramış sahələrə aid idi. Ona görə, burada mən hökumətdən yeni təkliflər gözləyirəm ki, hansı xidmətləri, hansı funksiyaları biz “ASAN xidmət”ə əlavə olaraq verməliyik. Bir daha demək istəyirəm ki, bütün başqa qurumlar da bu praktikanı tətbiq etməlidirlər.

Əlbəttə, vətəndaşlardan da çox şey asılıdır. Mən dəfələrlə çıxışlarımda vətəndaşlara müraciət edərək onları daha da fəal olmağa çağırmışam. İctimai nəzarət gücləndirilməlidir. İctimai nəzarət olmadan korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə biz qalib gələ bilmərik. Ona görə, dövlət siyasəti, güclü siyasi iradə artıq özünü göstərir və müsbətə doğru dəyişikliklər də var. İnstitusional tədbirlər görülür, islahatlar aparılır və bu mübarizə geniş ictimai dəstəyə də malikdir. Ancaq bu dəstək daha da fəal olmalıdır.

Gələcək inkişafımızın uğurlu və dayanıqlı davamı üçün sahibkarlığın inkişafı prioritet olaraq qalır. Bu gün özəl sektor inkişaf edir, o cümlədən dövlət dəstəyi hesabına güzəştli kreditlər verilir. Bu kreditlər iqtisadiyyatın real sektoruna verilir. Biz gələcəkdə bu sahədə daha da fəal işlər aparmalıyıq ki, sahibkarlığı maksimum dərəcədə inkişaf etdirək. Sahibkarlara həm siyasi dəstək, həm metodik tövsiyələr, eyni zamanda, əlbəttə, maliyyə resursları verilir ki, onlar iş qursunlar. İndi bölgələrdə əsas infrastruktur layihələri demək olar başa çatır, yollar, kommunikasiyalar salınır, elektrik, qaz, su xətləri çəkilir. Ona görə, biznesin inkişafı üçün bölgələrdə və Bakıda yaxşı imkanlar var.

Biz isə çalışmalıyıq ki, xarici investisiyaları qeyri-neft sektoruna cəlb edək. Bu günə qədər xarici sərmayədarlar daha çox neft-qaz sektoruna maraq göstəriblər. Bu da təbiidir, çünki orada daha da böyük qazanc əldə edirlər. Amma bizim siyasətimiz ondan ibarətdir ki, əlbəttə, neft-qaz sektoruna da xarici sərmayə qoyulmalıdır və qoyulur. Nəzərə alsaq ki, indi “Cənub” qaz dəhlizi icra edilir, – əlbəttə, bu, böyük vəsait tələb edir, – ancaq bizim əsas prioritetimiz xarici sərmayəni qeyri-neft sektoruna cəlb etməkdir. Hesab edirəm ki, burada bütün qurumlar daha da fəal işləməlidirlər. Həm təqdimatlar keçirilməlidir, – əlbəttə, biznes forumlar keçirilir, biz xarici investorları maraqlandırırıq, – eyni zamanda, Azərbaycanda biznes mühiti yaxşılaşdırılmalıdır. Bunun üçün əlavə tədbirlər görülməlidir və mən hökumətdən təkliflər gözləyirəm ki, biznes mühitini biz hansı yollarla yaxşılaşdıra bilək.

Qeyd etməliyəm ki, Azərbaycanda aparılan islahatlara beynəlxalq maliyyə qurumları, mötəbər bey-

nəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymət verilir. Əslində, bugünkü Azərbaycan reallıqları bunu göstərir. Belə çətin geosiyasi vəziyyətdə – həm siyasi, həm iqtisadi – maliyyə böhranının mövcudluğu şəraitində biz iqtisadiyyatımızı inkişaf etdiririk. Ancaq mən istəyirəm ki, inkişaf daha da sürətli olsun. İnkişafa mane olan bütün əngəllər, süni maneələr aradan götürülsün. Bir çox hallarda bu süni əngəllər yenə də korrupsiya və rüşvətxorluqla bağlıdır. Ona görə, korrupsiya, rüşvətxorluq sadəcə olaraq ictimai yara, xəstəlik deyil. Bu, bizim iqtisadiyyatımıza çox böyük əngəldir, maneədir. Ona görə, biznes mühitinin yaxşılaşdırılması prioritet məsələ kimi qeyd edilməlidir.

Bununla bərabər, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə də böyük ehtiyac var, bu sahəyə yenidən baxmalıyıq. İndi Azərbaycan iqtisadiyyatı yeni situasiyada inkişaf edir. Vaxt var idi bizim iqtisadi artım ildə 20-30 faiz təşkil edirdi. Bu, əlbəttə ki, neft hasilatının kəskin şəkildə artması və neft qiymətlərinin qalxması ilə bağlı idi. İndi o dövr arxada qaldı. İndi neft hasilatı Azərbaycanda sabitləşib və əminəm ki, uzun illər bundan sonra sabit olaraq qalacaqdır. Əlbəttə ki, biz indi böyük qaz layihəsi üzərində işləyirik. Bu da bizə əlavə gəlir gətirəcək. Bununla bərabər, hesab edirəm ki, inkişafa mane olan, xüsusilə idarəetmə sahəsində problem yaradan amillər də aradan qaldırılmalıdır. Burada da çox ciddi islahatlara ehtiyac var. Bəzi strukturlar bir-birinin fəaliyyətini təkrarlayır, biz buna da yol verməməliyik, burada optimallaşdırma siyasəti aparılmalıdır və bu sahəyə də diqqət verilməlidir.

Qeyri-neft sektorunun inkişafı, əlbəttə ki, iqtisadi inkişafımızın əsas hərəkətverici sahəsidir. Qeyd etdiyim kimi, artıq ümumi daxili məhsulumuzun təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Bu, çox gözəl göstəricidir. Ancaq o da həqiqətdir ki, biz ixracda, əlbəttə, başqa mənzərə ilə üzləşirik. Bu da yəqin ki, təbiidir, çünki bizim əsas ixrac məhsullarımız neft-qaz məhsullarıdır. Bununla bərabər, son illər ərzində biz daha çox daxili bazarı yerli məhsullarla təmin etməyə, idxaldan asılılığı azaltmağa çalışmışıq və demək olar ki, buna nail oluruq. Ona görə, bundan sonra çalışmalıyıq ki, qeyri-neft sektorunda istehsal edilən məhsullar rəqabətqabiliyyətli məhsullar olsun və biz ixracyönümlü siyasət aparmalıyıq.

Biznes mühitini yaxşılaşdırmaq və biznesin inkişafına təkan vermək üçün əminəm ki, çox ciddi addımlar atılacaq. Deməliyəm ki, yoxlamalarla bağlı çoxsaylı şikayətlər gəlir. Yoxlamaların sayı kifayət qədər çoxdur, yoxlayan təşkilatlar da sanki bir-biri ilə rəqabətə çıxıblar. Bu da dözülməzdir. Yoxlamaların böyük əksəriyyətinin arxasında yenə də maddi təmənna dayanır. Yoxlayan gəlir, nəyi yoxlayır, nəyi yoxlamır, ancaq nəticə etibarilə öz payını alır, çıxıb gedir. Budur reallıq. Bu, heç kim üçün sirr deyil. Buna da son qoyulmalıdır. Ona görə, qısa müddət ərzində mənə yoxlamalarla bağlı müfəssəl məlumat verilsin, hansı qurumlar kimi yoxlayırlar, ildə neçə dəfə yoxlayırlar, nə üçün yoxlayırlar? Burada bir sistem olmalıdır. Yoxlamaların tənzimlənmə mexanizmi işlənməlidir. Burada müəyyən şərtlər qoyulmalıdır – kim, nə vaxt, hansı müddət ərzində kimi yoxlaya bilər? Ümumiyyətlə, biz bu yoxlamaların sayını kəskin şəkildə aşağı salmalıyıq.

Yerli icra hakimiyyəti orqanları, o cümlədən hüquq mühafizə orqanları bəzi hallarda sahibkarlara problemlər yaradırlar, bəzi hallarda onlardan pul tələb edirlər. Sahibkar heç kimə – nə yerli icra orqanlarının, nə də hüquq mühafizə orqanlarının nümayəndələrinə borclu deyil, ancaq dövlətin vergisini verməlidir, vəssalam. Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır. Bax, 30 minə yaxın iş yeri bağlanıb. 67 min daimi iş yeri yaradılıb, 30 mini bağlanıb. Bax, bunun təhlilini aparmaq lazımdır. Mənə məlumat verilsin ki, o iş yerləri hansı səbəblər üzündən bağlanıb. O müəssisələrin rəhbərlərini dəvət etmək, soruşmaq lazımdır. Buna son qoyulmalıdır. Əlbəttə, bunun obyektiv səbəbləri də var. Amma subyektiv səbəblər də var. Gəlirlər, əsassız tələblər irəli sürürlər, sanki bunlara kimsə borcludur. Heç kim heç kimə borclu deyil. Bu əməlləri törədənlər ciddi şəkildə cəzalandırılacaq. Onlar bu çirkin əməllərdən əl çəksinlər. Bu, ilk növbədə bizim siyasətimizə ziddir. Digər tərəfdən, bu, imkan vermir ki, iqtisadiyyatımız tam şəkildə inkişaf etsin, sahibkarlar ölkədə rahat işləsinlər.

Bizdə lisenziyaların sayı həddindən artıq çoxdur. Mənə verilən məlumata görə, lisenziyaların sayı getdikcə artır. Əksinə, azalmalıdır, amma bizdə artır. Nəyə görə? Çünki müvafiq qurumlar çalışırlar ki, lisenziyaların sayını artırsınlar. Lisenziya da nədir? Pul mənbəyidir. Qanunsuz varlanma metodudur. Nəyə lazımdır bu? Buna da çox ciddi baxmaq lazımdır. Hökumət təklif versin ki, hansı lisenziyalar verilir. O əsaslıdır, əsaslı deyil və o lisenziyaların sayı kəskin şəkildə azaldılmalıdır. Biz liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmişik və bu yolla gedirik. Görün, nə qədər böyük uğurlar əldə etmişik. Əgər ölkə daxilində mane olanlar olmasaydı gör, biz daha nə qədər böyük uğurlar əldə edərdik. Əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün, büdcəmiz nə qədər arta bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yəni, hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq.

İqtisadiyyat üçün əsas problemlərdən biri də inhisarçılıqdır. Əfsuslar olsun ki, biz bu sahədə də hələ ciddi nəticələrə nail ola bilməmişik, həm istehsalda, həm də idxalda. Burada da, bilmirəm bu nə psixologiyadır ki, düşünürlər, əgər mən bu məhsulu istehsal edirəmsə, başqası gərək istehsal etməsin. Başqasına da imkan vermək lazımdır ki, rəqabət olsun. Rəqabət olmasa, inkişaf da olmaz, keyfiyyətli məhsullar da olmaz. Qoy, hər kəs istehsal etsin. Yaxşı, bazarımız ola bilər ki, kifayət qədər məhduddur. Elə məhsullar yetişdirin, istehsal edin ki, xaricə sata biləsiniz. Dövlət də bunu təşviq etsin. Bizim gələcəkdə iqtisadiyyatımızın inkişafını təmin edən əsas sahə ixrac olacaqdır. Bunu mən dəfələrlə demişəm. Biz buna çox ciddi hazırlaşırıq. Burada artıq deyildi ki, biz xaricdə logistika mərkəzləri yaradırıq. Nə üçün? Ona görə xaricə vəsait qoyuruq ki, məhsullarımız oraya – yeni bazarlara çıxsın. Bunu ona görə edirik ki, sahibkarların gedib öz məhsullarını rahat satmaq imkanları olsun. Burada isə əgər kimsə nəyisə istehsal edirsə, qoymur ki, başqası da istehsal etsin. Yaxud da ki, himayədarları müxtəlif yollarla bu işlərə cəlb edir. Buna yol vermək olmaz. O cümlədən idxalla bağlı inhisarçılığa yol vermək olmaz. Yenə də deyirəm, biz açıq bazar iqtisadiyyatı siyasətini aparırıq. Bizim siyasətimiz, dövlət siyasəti, Prezidentin siyasəti, bax, budur. Ona görə bütün qurumlar bu siyasəti aparmalıdırlar, vəssalam!

Bu il "Kənd təsərrüfatı ili"dir. Qeyd etdiyim kimi, kənd təsərrüfatı istehsalı 6,7 faiz artıb. Kənd təsərrüfatının inkişafı, artımı həm sosial, həm də iqtisadi sahədir. Biz çalışırıq və çalışacağıq ki, özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz səviyyəsində təmin edək. Biz bu hədəfə yaxınlaşırıq. Burada artıq qeyd edildi ki, 30 iri fermer təsərrüfatı yaradılmışdır, 40 min hektar yeni torpaq sahəsi dövriyyəyə buraxılmışdır. Taxılçılıq üzrə iri fermer təsərrüfatlarında hər hektardan 50-60 sentner məhsul götürülür. Bu, çox yüksək göstəricidir. Nəzərə alsaq ki, son illərə qədər bizdə orta məhsuldarlıq 25-26 sentner idi. Bu il isə orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Bu da rekord göstəricidir. Ona görə, ərzaq təhlükəsizliyi məsələlərinin həlli üçün əlavə tədbirlər görüləcək. İndi yeni əkin sahələri dövriyyəyə buraxılacaq. Yaradılmış iki böyük su anbarının – Taxtakörpü və Şəmkirçay su anbarlarının hesabına on minlərlə hektar torpağa suyun verilməsi nəzərdə tutulur. İqtisadiyyat və Sənaye Nazirliyi işləyir, biznes plan hazırlanır. Özəl qurumlar da buna maraq göstərsinlər. Yeni yaradılacaq əkin sahələrində məhsullar yetişdiriləcək və onların böyük hissəsi ixrac edilməlidir.

Azərbaycanda sənayeləşmə siyasəti uğurla aparılır. Qeyd etdiyim kimi, Azərbaycanda qeyri-neft sənayesi 10,2 faiz artmışdır. Texnoparklar salınır. Bu da öz səmərəsini verir. Sumqayıt Kimya Sənaye Parkında 1 milyard dollar dəyərində sərmayə qoyuluşu gözlənilir. Artıq işlər başlayıb. Bizim bütün rayonlarımızda xüsusi sənaye zonaları yaradılmalıdır. Artıq pilot layihəsi həyata keçirilir, əminəm ki, uğurlu olacaq.

İnfrastruktur layihələrinin davam etdirilməsi nəzərdə tutulur. Kənd yolları, qazlaşdırma, içməli su layihələri – bütün rayonlarda bu proseslər geniş vüsət almışdır. Ceyranbatan su anbarında yeni təmizləyici qurğunun artıq istismarı gözlənilir. Bu da çox böyük layihədir. Bir neçə il bundan əvvəl mənim iştirakımla o layihənin təməl daşı qoyulmuşdur. Bu gün artıq demək olar ki, bu layihə hazırdır. Bakını təmiz, içməli su ilə təmin etmək üçün bu layihənin əvəzsiz rolu olacaqdır. Eyni zamanda, sosial infrastrukturun yaradılması davam etdirilməlidir. Məktəb, xəstəxana, uşaq bağçası – bu, daim diqqət mərkəzindədir. Gələn ilin dövlət investisiya proqramında bu layihələr nəzərdə tutulmalıdır.

Dərman preparatları bazarında çox ciddi dönüş yaradılmışdır. Dövlət bu sahəni artıq öz nəzarətinə götürüb. Əvvəlki illərdə bu, daha çox biznes sahəsi kimi qəbul edilirdi. Yəni ki, bazar var, tələbat var, təklif var. Bazar hər şeyi tənzimləyir. Ancaq bu məsələ ilə bağlı dərindən məşğul olmağa başlayanda gördük ki, burada çox böyük pozuntular var.

Bəzi dərmanların qiymətləri bir neçə dəfə şişirdilir. Keyfiyyət baxımından da bizi o qədər də qane etmir. İndi artıq yeni dövlət tənzimləmə mexanizmi tətbiq edilir. Sentyabrın 15-dən artıq insanlar bunu hiss etməyə başlayıblar. İlin sonuna qədər artıq əksər dərman preparatlarının yeni qiymətləri olacaqdır. Dərmanların keyfiyyətinə də çox böyük diqqət göstərilir. Dərmanların qiyməti aşağı düşür və düşəcək. Bu da ilk növbədə çox ciddi sosial addımdır. Digər tərəfdən, bu, o sahədir ki, orada işlər düzgün qurulmamışdır. Elə sahələr kifayət qədər çoxdur. Ona görə, hər bir sahə təhlil edilməlidir. Harada qüsurlar, çatışmayan cəhətlər var aradan qaldırılmalıdır. Dərman preparatları bazarı ilə bağlı demək olar ki, bir ilə yaxın çox ciddi iş, təhlil aparılırdı və artıq gözəl nəticə də var. İnsanlar da razıdır. Dövlət də indi bu sahəni öz nəzarətinə götürüb. Əminəm ki, idxal olunan dərmanlardan əldə ediləcək vergi, gömrük rüsumu formasında vəsait daha da böyük həcmdə olacaq. Yəni, büdcəmizə də bunun böyük xeyri olacaq.

Mən giriş sözümdə qeyd etdim ki, nəqliyyat sektoru gələcək inkişafımız üçün çox mühüm əhəmiyyət kəsb edir. Həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçməlidir. Bu gün Azərbaycan ərazisindən yük daşımaları aparılır, ancaq bəzi hallarda yüklərin həcmi azalır. Bunun obyektiv səbəbləri var. İndi biz onu da qeyd etməliyik.

İndi dünyada böhran yaşanır, həm Asiyada, həm Avropada, ümumiyyətlə, iqtisadi fəallıq böyük dərəcədə aşağı düşüb. Asiya, Avropa bizim ərazimiz vasitəsilə ticarət aparır. Ona görə, obyektiv səbəblər də, subyektiv səbəblər də var.

Biz son illərdə çalışmışıq ki, Azərbaycanda nəqliyyat, logistika mərkəzini yaradaq və buna böyük dərəcədə nail ola bilmişik. Yeni gəmilər, bərələr, tankerlər, yük gəmiləri, yeni yük təyyarələri alınmışdır. Azərbaycanda bir neçə beynəlxalq aeroport tikilmişdir. Dəmir yolunun inkişafı ilə bağlı tədbirlər görülür. Bizi qonşu ölkələrlə bağlayan avtomobil yolları tikilmişdir. Əfsuslar olsun ki, hələ bu layihələr tam başa çatmayıb. Ancaq onların böyük hissəsi görülübdür. Əlbəttə yeni Beynəlxalq Dəniz Ticarəti Limanı tikilir. Bu da Xəzər hövzəsində ən böyük ticarət limanı olacaq. Yəni, bu, dövlət vəsaiti hesabına görülən işlərdir. Burada heç bir özəl vəsait qoyulmayıb. İndi, bəzi hallarda kreditlər verilib. Amma bu kreditləri də dövlət ödəyir. Dövlət öz siyasətini göstərib. Ancaq bununla bərabər, burada koordinasiya işləri aparılmalıdır. Ona görə ki, Şimal-Cənub dəhlizi bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Azərbaycandan keçən bu yol milyonlarla əlavə yükün bizim ərazimizdən daşınması deməkdir. Bu da həm siyasi, həm iqtisadi gəlirlər gətirəcək.

Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi, əfsuslar olsun ki, hələ başa çatmayıb. Halbuki bu layihənin başlamasından səkkiz il keçir. 2007-ci ildə biz üç ölkə bu layihəyə start verdik. Qeyd etdiyim kimi, Azərbaycanın məsuliyyəti çərçivəsində olan məsələlər öz həllini tapdı. İndi Türkiyə ərazisində qalan işlər də görüləcəkdir. Biz bu yolu tezliklə işə salmalıyıq. Çünki indi həm ölkələr, həm şirkətlər arasında yüklər uğrunda mübarizə, rəqabət gedir. Amma biz burada oturmuşuq, nəyisə gözləyirik. Gözləyirik ki, kimsə gəlib bizdən xahiş edəcək. Xahiş edəndə də elə şərtlər qoyulur ki, o xahiş edən üz döndərib gedir. Bu, dözülməz haldır. Bu məsələ ciddi təhlil edilməlidir və burada vahid tarif siyasəti aparılmalıdır. Çünki bizdə Xəzər Gəmiçiliyinin, Dəmir Yolunun, limanın hərəsinin öz korporativ maraqları var. Amma bunlar ölkənin maraqları ilə uzlaşır? Yox, uzlaşmır! Dövlətin maraqları bu dəhlizi elə etməkdir ki, daha yükü göndərənin başı ağrımasın, daha 10, 20 ünvana getməsin, bunu elektron yollarla, e-maillə, müasir üsullarla həll etsin. Bu, məsələnin bir hissəsidir. Bunu biz yaratmalıyıq və artıq göstərişlər verilib. Burada çox ciddi koordinasiya işləri aparılmalıdır. Yaxın vaxtlarda mənə konkret təkliflər veriləcəkdir. Digər məsələ ondan ibarətdir ki, biz gərək gedək o yükləri gətirək. Biz gərək deyək ki, gəlin Azərbaycan ərazisindən keçin. Ona görə, burada bu iki amil çox ciddi məna daşıyır. Əminəm ki, burada qarşıya qoyduğum vəzifələr tezliklə öz həllini tapacaq.

Biz son vaxtlar şəhər nəqliyyatı ilə bağlı çox ciddi addımlar atmışıq. Yeni şirkət yaradılıbdır. “BakuBus” avtobusları ən yüksək səviyyəyə malikdir. Dünyanın bəlkə də ən gözəl, ən müasir avtobuslarıdır. Bunu da biz etmişik ki, insanlar ictimai nəqliyyatdan rahat istifadə etsinlər. Hesab edirəm ki, “BakuBus”ın fəaliyyəti genişləndirilməlidir. Çünki indi digər xidmətlərlə müqayisədə əlbəttə ki, insanlar “BakuBus”a üstünlük verir. Ona görə, hesab edirəm ki, gələn ilin dövlət büdcəsində də yeni avtobusların alınması üçün müəyyən vəsait nəzərdə tutulmalıdır. Biz hər il əlavə avtobuslar almaqla “BakuBus”ın fəaliyyətini daha da genişləndirə bilərik.

Metro tikintisi gedir. Əminəm ki, biz gələn il yeni stansiyaların açılışını qeyd edəcəyik. Bakı-Sumqayıt şəhərlərarası qatarlar da fəaliyyətə başlayıb. Müasir qatarlardır, yeni dəmir yolu xətləri çəkilib. Bütün bunlar insanların rahatlığı üçündür.

Birinci Avropa Oyunlarından sonra Azərbaycana maraq daha da artır və əminəm ki, bu, turizm sektorunda da özünü göstərəcək. Turistlərin cəlb edilməsi siyasəti də aparılmalıdır. Biz yenə də burada daha çox fəal olmalıyıq. Birinci Avropa Oyunları ölkənin bir təqdimatı idi. Biz Azərbaycanı bütün Avropaya, dünyaya müasir, gözəl, inkişaf edən ölkə kimi tanıtdıq. Bakını isə dünyanın ən gözəl şəhərlərindən biri kimi tanıtdıq. Əlbəttə ki, bizə maraq daha da artır. Gələn il “Formula-1” yarışması da, – bu da miqyasına görə bəlkə də dünyada birinci, ya ikinci yarışmadır, – əlavə diqqət cəlb edəcək. Bu, gözəl imkanlardır ki, biz xarici turistləri Azərbaycana cəlb edək. Bu proses gedir, ancaq daha da sürətlə gedə bilər.

Nəhayət, gələn il “Cənub” qaz dəhlizinin yaradılması ilə bağlı çox ciddi işlər görülməlidir. Artıq praktiki inşaat işləri başlayır. Bu da koordinasiya tələb edir. Burada bütün qurumlar elə işləməlidir ki, bir gün də yubanma olmasın. “Cənub” qaz dəhlizi Azərbaycanın təşəbbüsü və qonşu ölkələrin fəal iştirakı ilə reallaşan böyük transmilli layihədir. Bu layihə Azərbaycanın uzunmüddətli maraqlarını təmin edəcək. Siyasi, iqtisadi, enerji maraqlarını təmin edəcək, Azərbaycanı dünya üçün daha da önəmli ölkəyə çevirəcək və mən çox şadam ki, “Cənub” qaz dəhlizinin bütün iştirakçıları, bütün ölkələr burada bir mövqedədirlər. Bilirsiniz ki, Azərbaycanın təşəbbüsü ilə bu ilin fevral ayında “Cənub” qaz dəhlizinin birinci Məşvərət Şurası da Bakıda keçirilmişdir. Şuranın qəbul etdiyi bəyannamə də Azərbaycanın liderlik rolunu bir daha təsdiqləyir. Bu, böyük şərəfdir, böyük məsuliyyətdir. Bu günə qədər bizim təşəbbüsümüzlə icra edilən bütün layihələr uğurla nəticələnib. Əminəm ki, “Cənub” qaz dəhlizi də Azərbaycanın növbəti qələbəsi olacaqdır. Sağ olun.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir.

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Ulu öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır.



Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur". Bu sözləri deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdriklik və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də "Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan", – deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi. Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən doğma Vətəni Azərbaycana gəldi. Özü də tək gəldi. Amma milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Düzgün, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında xalqının xilaskarına çevrildi.

Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyə-



tinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi...

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlət başçısı İlham Əliyev və oğlu Heydər Əliyev ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki



Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2015-ci il arxada qalır. 2015-ci ildə yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhran daha da dərinləşdi, risklər artdı, təhlükələr artdı, yeni çağırışlar meydana gəldi.

Bütün bunlara baxmayaraq, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki, Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edək, ölkəmizin dinamik inkişafına nail olaq. Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır və yaşayacaqdır. Eyni zamanda, 2015-ci ildə neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, üç dəfə aşağı düşmüşdür. Bunu ilin əvvəlində təsəvvür etmək mümkün deyildi. Ancaq bu, reallıqdır və yenə də Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində iqtisadi artım təmin edildi, Azərbaycanda qeyri-neft sektoru inkişaf etdi. Xüsusilə qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu, onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və neftdən asılılığımız getdikcə daha da azalacaq.

Ancaq təbii ki, bizim gəlirlərimiz kəskin şəkildə azalmışdır, milli valyutamız manat devalvasiyaya uğradı. Ancaq yenə də biz çalışırdıq, çalışırıq və çalışacağıq ki, bu vəziyyət insanların yaşayış səviyyəsinə təsir etməsin. Xüsusilə istehlak qiymətlərinin sabit saxlanması bizim əsas vəzifəmizdir.

Bu il "Kənd təsərrüfatı" ilidir. Şadam ki, kənd təsərrüfatı təxminən 7 faiz artmışdır. Bütövlükdə götürəndə bizim iqtisadi sahədə apardığımız siyasət mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 40-cı yerdədir. Bu, böyük və tarixi nailiyyətdir. Bu, onu göstərir ki, biz düzgün siyasət aparırıq və gələcəkdə, əlbəttə, Azərbaycan xalqının maraqlarını daim təmin edəcəyik.

Azərbaycanda sosial məsələlər öz həllini tapır. Baxmayaraq ki, gəlirlərimiz kəskin şəkildə azalmışdır, bir dənə də olsun sosial proqram təxirə salınmadı. Bütün sosial layihələrimiz icra edilmişdir. Bu da siyasətimizin mahiyyətini, yəni, mənasını göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda, insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır.

2015-ci ildə ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Mənim xarici səfərlərim, xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu bir daha təsdiqləyir. 2015-ci ildə rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə iştirak etmək üçün müxtəlif ölkələrdə olmuşam, 20 xarici səfər həyata keçirmişəm və bu il Azərbaycanda 15 dövlət və hökumət başçısı rəsmi və qeyri-rəsmi səfərlərdə olmuşlar.

Eyni zamanda, bizim apardığımız xarici siyasət dünya birliyi tərəfindən yüksək qiymətləndirilir, rəğbətlə qarşılanır. Çünki biz müstəqil siyasət aparırıq. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz vardır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir. Bizə qarşı olan təzyiqlər, hədə-qorxular bizim siyasətimizə zərrə qədər təsir etmir və etməyəcək. Biz heç kimdən və heç nədən qorxmuruq. Bizim əsas vəzifəmiz xalqa

xidmət etməkdir və ölkəmizin beynəlxalq nüfuzunu qaldırmaqdır.

Sizi əmin edirəm ki, 2016-cı ildə də və bundan sonrakı illərdə də Azərbaycan prinsipial siyasətdən dönməyəcək, müstəqil siyasət aparacaq və bizə qarşı kampaniya aparmaq istəyənlər bunu nəzərə alsınlar. Onların səyləri əbəsdir, bizim siyasətimizə təsir etmir və heç vaxt etməyəcəkdir.

Xarici siyasətimizin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, 2015-ci ildə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin.

Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdırlar.

Münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr münaqişənin həlli üçün əsas sənəddir və bu məsələ məhz bu çərçivədə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaransın. Dağlıq Qarabağın müstəqilliyini heç vaxt heç kim qəbul etməyəcək. Biz çalışacağıq ki, həm siyasi, diplomatik, həm iqtisadi və digər vasitələrlə ərazi bütövlüyümüzü bərpa edək. Haqq-ədalət bizim tərəfimizdədir, siyasi və iqtisadi güc bizim mövqeyimizi dəstəkləyir, gücləndirir. Əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Buna nail olmaq üçün əlbəttə ki, diplomatik səylərlə yanaşı, güclü hərbi potensial olmalıdır və biz bunu yaradırıq. Artıq Azərbaycan xalqı da görür ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

2015-ci ildə düşmənin bütün təxribatlarına tutarlı cavab verilmişdir. Düşmənə sarsıdıcı zərbələr endirilmişdir və döyüş meydanında yaranmış vəziyyət bir daha bizim üstünlüyümüzü göstərir. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq öz prinsipial mövqeyimizdən dönməyəcəyik və lazım olarsa hərbi gücdən istifadə etmək bizim suveren hüququmuzdur.

2015-ci ildə də məcburi köçkünlərin problemləri öz həllini tapıb. Hər il minlərlə köçkün yeni evlərə, mənzillərə köçürülür. Bu siyasət gələn il də davam etdiriləcəkdir.

2015-ci ildə enerji sahəsində önəmli addımlar atılmışdır. TANAP layihəsinin icrası başlamışdır. Artıq TANAP layihəsinin həyata keçirilməsi reallıqdır. Burada Azərbaycan tərəfdaş ölkələrlə çox mühüm rol oynayır, böyük işlər aparır. TANAP layihəsinin əsas səhmdarı və əsas investoru Azərbaycandır. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı bundan sonra onilliklər ərzində dünya bazarlarına çatdıraq və beləliklə, ölkəmizin siyasi və iqtisadi maraqlarını daha dolğun şəkildə təmin edək.

Bu il nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı çox ciddi işlər aparılmışdır. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallaşır. Çindən, Orta Asiyadan Azərbaycana, Azərbaycandan Gürcüstan, Türkiyə vasitəsilə Avropaya uzanan yeni "İpək Yolu" layihəsi reallaşır və burada Azərbaycanın rolu kifayət qədər önəmlidir. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması üçün Azərbaycan konkret addımlar atır. Əminəm ki, bu layihə də uğurla reallaşacaq və beləliklə bundan sonra – bu iki mühüm layihə reallaşandan sonra Azərbaycan dünya miqyasında əvəzolunmaz tranzit ölkəsinə çevriləcəkdir. Bu, nə deməkdir, bunu izah etməyə ehtiyac yoxdur.

Bu il tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan burada da öz gücünü göstərdi. Altı mindən çox idmançı, minlərlə qonaq ölkəmizə gəlmişdir və ölkəmizin reallıqları ilə özləri tanış ola bilmişdir. Avropa Oyunları Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Avropa Oyunları Azərbaycan dövlətinin təntənəsidir. Eyni zamanda, Azərbaycan idmanının təntənəsidir. Çünki bizim idmançılarımız, milli komandamız 56 medal qazanaraq, – onlardan 21-i qızıl medaldır, – komanda hesabında ikinci yerə layiq görülmüşdür. Bu, doğrudan da ölkəmizin böyük zəfəridir və hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, biz bu uğura imza ata bilmişik.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin inkişafı üçün çox önəmli hadisə idi. Parlament seçkiləri şəffaf, ədalətli keçirilmişdir. Bütün beynəlxalq müşahidəçilər bunu qeyd etmişlər. Azərbaycan xalqının iradəsi öz əksini tapmışdır. Parlament seçkilərinin nəticələri xalq tərəfindən bizim siyasətimizə verilən yüksək qiymətin təzahürüdür. Mən bunu belə qəbul edirəm.

Azərbaycan demokratiya yolu ilə gedir, inkişaf yolu ilə gedir və bu, bizim şüurlu seçimimizdir. Xalq-iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Fürsətdən istifadə edərək dünyada yaşayan bütün azərbaycanlıları salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar və Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları bilirlər ki, bu gün Azərbaycan müstəqillik və inkişaf yolu ilə uğurla gedir. Bu gün müstəqil Azərbaycan güclü dövlətdir. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, dövlətimizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı həyatını təmin edək.

Mən bütün Azərbaycan vətəndaşlarını, dünya azərbaycanlılarını Dünya Azərbaycanlarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# Azərbaycan Prokurorluğunun kollektivi peşə bayramını qeyd etmişdir

## Baş Prokurorluqda prokurorluq işçilərinin peşə bayramı qeyd olunmuşdur



Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin siyasi iradəsinə müvafiq olaraq 1998-ci ildən etibarən peşə bayramı gününü qeyd etmək imkanı əldə edən Azərbaycan Prokurorluğunun kollektivi oktyabrın 1-də milli prokurorluq orqanlarının yaradılmasının 97-ci ildönümünü və peşə bayramını təntənəli şəkildə qeyd etmişdir.

Bu münasibətlə Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri oktyabrın 1-də Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmiş, ümummilli liderimizin və Vətənimizin azadlığı uğurunda şəhid olmuş qəhrəmanlarımızın xatirəsini dərin ehtiramla yad etmişlər.

Sonra Baş Prokurorluqda "1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü" və milli prokurorluğun yaradılmasının 97-ci ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Baş prokuror Zakir Qaralov peşə bayramı münasibətilə prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini təbrik etmişdir.

Xüsusi vurğulanmışdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 sentyabr 2015-ci il tarixli Sərəncamları ilə prokurorluq orqanlarının bir qrup əməkdaşı yüksək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülmüşdür. Prokurorluq işçilərindən 25 nəfəri «İgidliyə görə» və «Dövlət qulluğunda fərqlənməyə görə» medalları ilə təltif edilmiş, 4 nəfərinə isə «III dərəcəli dövlət ədliyyə müşaviri» ali xüsusi rütbələri verilmişdir.



Göstərilən bu böyük etimad prokurorluq orqanlarının fəaliyyətinə, onun kollektivinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirilərək Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından dövlət başçısına dərin minnətdarlıq və ehtiram ifadə olunmuşdur.

Diqqətə çatdırılmışdır ki, xalqının təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin 1993-cü ilin ikinci yarısından başlayaraq həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, bütün digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da demokratik məzmunlu dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılmaqla, dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilmiş, onun dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusu yaradılmışdır. Azərbaycan Respublikasında reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları müasir məzmunda yeniləşdirilməklə, cəmiyyətdə statusuna uyğun yerini tutmuşdur.

Ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran dövlət başçısı cənab İlham Əliyevin Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, insan hüquqlarının və azadlıqlarının qorunmasına, demokratik təsisatların yaradılmasına yönələn siyasətin artıq öz bəhrəsini verdiyini diqqətə çatdıran Baş prokuror bildirmişdir ki, Azərbaycan Respublikasında son dövrlərdə ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq birliyin tam hüquqlu üzvü kimi layiq olduğu yerini tutmuşdur. Müsbət hal kimi qeyd olunmuşdur ki, Azərbaycan Respublikası digər sahələrlə yanaşı cinayətkalığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində öz təcrübəsini bölüşən bir ölkəyə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı



qarşıda duran vəzifələri müəyyənləşdirərək demişdir: "Əsas məqsədimiz–prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının yetişdirilməsidir. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir".

Qeyd edilmişdir ki, dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə və onun rəhbərliyi altında reallaşdırılan dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq, şəffaf prosedurlar əsasında prokurorluğun kadr korpusunun yeniləşdirilməsi istiqamətində məqsədyönlü işlər eyni intensivliklə davam etdirilir.

2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbulun yeni əsaslarla təşkili nəticəsində işə götürülən 631 gənc hüquqşünasın Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun 56 faizini təşkil etməsi, növbəti müsabiqədən müvəffəqiyyətlə keçmiş 25 gənc mütəxəssisin prokurorluq orqanlarına işə qəbul olunması ölkə həyatının bütün sahələrində gənclərin əməyindən geniş istifadə olunması barədə dövlət başçısının göstərişlərinin icrasının nəticəsidir. Alternativi olmayan bu kadr seçimi vasitəsinin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.

Bildirilmişdir ki, Prezident cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının hərtərəfli müasirləşməsi və işinin tam yeni müstəvidə qurulması baxımından müstəsna əhəmiyyətə malik bir addım olmuşdur. Üç illik müddət ərzində yeni təkmilləşmə və inkişafın, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan bu proqram ölkənin hüquq sistemində prokurorluğun rolunun artırılması, digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmaqla mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bütün istiqamətlər üzrə işin səmərəliliyinin və əməkdaşların peşəkarlığının yüksəldilməsi, yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində konkret tədbirlərin həyata keçirilməsi ilə nəticələnmişdir.




Azərbaycan Prokurorluğu orqanları ötən müddət ərzində ilk növbədə Daxili İşlər Nazirliyi və digər hüquq mühafizə orqanları ilə birlikdə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahələrində zəruri tədbirlərin görülməsini təmin etmişdir. Düzgün qurulmuş qarşılıqlı əlaqə kriminogen duruma effektiv nəzarəti təmin etməyə, onun səviyyəsini təhlükəsiz hədlərdə saxlamağa imkan vermişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikası MDB və Şərqi Avropa məkanında ən təhlükəsiz və sabit ölkələrdən biri olaraq qalır.

Korrupsiyaya qarşı mübarizə sahəsində işin düzgün təşkilinə Prezident İlham Əliyev tərəfindən dövlət səviyyəsində göstərilən yüksək diqqətin nəticəsidir ki, ixtisaslaşdırılmış qurum kimi Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti üçün əlverişli şərait yaradılmış, əməkdaşların sayı əhəmiyyətli dərəcədə artırılmaqla çevik fəaliyyəti təmin etməyə qadir yeni struktur formalaşdırılmış, MDB məkanında, habelə Azərbaycan tarixində ilk dəfə olaraq bu quruma əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi səlahiyyəti verilmiş, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və sair tədbirlər korrupsiya hallarının qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin səmərəliliyini daha da artırmış, profilaktiki fəaliyyət və preventiv təsir imkanları daha da gücləndirilmişdir.

Əminlik ifadə olunmuşdur ki, öz peşə bayramını qeyd edən prokurorluq orqanları həmişə ölkəmizdə həyata keçirilən yeni məzmunlu mütərəqqi islahatların reallaşdırılması istiqamətində xidmət göstərəcək, digər dövlət təsisatları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yaxından iştirak edəcəkdir.

Sonda Baş prokuror Zakir Qaralov xidmətdə fərqlənən bir qrup prokurorluq əməkdaşına "Prokurorluğun fəxri işçisi" döş nişanı, Fəxri fərmanlar və rütbə dərəcələri təqdim etmişdir.

Mərasimin sonunda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından dövlət başçısı cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq işçilərinin fəaliyyəti ölkə Prezidenti tərəfindən qiymətləndirilmişdir

## Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Rəcəbov Nazim Hafiz oğlu – Azərbaycan Respublikası Baş Prokurorluğunun Kadrlar idarəsinin rəisi

Abbasov Elşən Akif oğlu – Azərbaycan Respublikası Baş Prokurorluğunun Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi

Məcidov Ramil Abbas oğlu – Azərbaycan Respublikası Baş Prokurorluğunun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi

Məmmədov Anar Rəhim oğlu – Azərbaycan Respublikası Baş Prokurorluğunun Müraciətlərə baxılması idarəsinin rəisi.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il.

## Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında və bu cinayətlərin açılmasında, korrupsiyaya qarşı mübarizə aparılmasında, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında xidmətlərinə görə Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə:**

Abdullayev Abdulla Həndəm oğlu
Bayramlı Qəzənfər Məmməd oğlu
Qubadov Səyyaf Mövsüm oğlu
Muradov Namiq Səyavuş oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə:**

Abbasov Müşfiq Elman oğlu
Ağayev İsmayıl Ramiz oğlu
Aslanov Ədalət Kərəm oğlu
Azadəliyev Seyhun Cəbrayıl oğlu
Babayev Orxan Zahid oğlu
Əliyev Aydın Zöhrab oğlu
İsmayılov Tahir Sabir oğlu
Qafarov Ramiz Surxay oğlu
Qasımlı Mehman Balamirzə oğlu
Qocayev Emzar Eldar oğlu
Məmmədov Qasım Yasin oğlu
Mirzəyev Rəşad Ziyafət oğlu
Musayev Elnur Novruz oğlu
Musayev Fuad Möhübbət oğlu
Paşayev Sənan İsa oğlu
Rəhimov Daşqın Hidayət oğlu
Rüstəmov Xəyyam Yaqub oğlu
Rzayev Səttar Firid oğlu
Səfərov Faiq Rəsul oğlu
Süleymanov Rəfael Mürşüd oğlu
Şıxəliyev Nihad Ənvər oğlu.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il.

# Prokurorluq işçiləri həvəsləndirilmişlər

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**Ə M R**

№ 11/307-k

Bakı şəhəri                                                    30 sentyabr 2015-ci il

**1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 97 illiyi münasibətilə bir qrup prokurorluq işçilərinin həvəsləndirilməsi haqqında**

1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 97 illiyi münasibətilə xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 18.10-cu, 23-cü və 24-cü maddələrini rəhbər tutaraq,

**Ə M R  E D İ R Ə M:**

**1. Aşağıda adı çəkilən prokurorluq işçiləri "Prokurorluğun fəxri işçisi" döş nişanı ilə təltif edilsinlər:**

baş ədliyyə müşaviri **Səmədov Salman Səməndər oğlu** – Ağcabədi rayon prokuroru

baş ədliyyə müşaviri **Vəliyev Zahid Baxşəli oğlu** – Qusar rayon prokuroru

baş ədliyyə müşaviri **Əsgərov Fikrət Ələkbər oğlu** – Masallı rayon prokuroru

baş ədliyyə müşaviri **Kazımov Mircavan Rza oglu** – Baki şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi

**2. Aşağıda adı çəkilən prokurorluq işçiləri "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı" ilə təltif edilsinlər:**

ədliyyə general-mayoru **Kazımov Rasim Sadıq oğlu** – Azərbaycan Respublikası Hərbi prokurorunun müavini

ədliyyə polkovniki **Məmmədov Rauf Sabir oğlu** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi

ədliyyə müşaviri **Abdullayev Seyfəddin Mansır oğlu** – Agdaş rayon prokuroru

ədliyyə müşaviri **Nəsibov Vüqar Məsim oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətkarlığa dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühim işlər üzrə boyük müstəntiqi

ədliyyə müşaviri **Ləmbəranski İbrahim Elmar oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətkarlığa dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi

baş ədliyyə müşaviri **Qafarov Ramiz Surxay oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Prokurorluqda istintaqa nəzarat idarəsinin böyük prokuror metodisti

ədliyyə müşaviri **Quliyev Nazim Həsənxan oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin istintaq idarəsinin böyük prokuroru

ədliyyə müşaviri **Əliyev Əsəd Sahib oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin istintaq idarəsinin böyük prokuroru

ədliyyə polkovnik-leytenantı **Allahverdiyev Yavər Ənvər oğlu** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuror metodisti

kiçik ədliyyə müşaviri **Qədimov Orxan Oqtay oğlu** – Naxçıvan Muxtar Respublikasının Prokurorluğunun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət şöbəsinin böyük prokuroru

ədliyyə müşaviri **Süleymanov Vaqif İsmayıl oğlu** – Bakı şəhər prokurorluğunun istintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi

ədliyyə müşaviri **Rzayev Ramiz Bəhrəm oğlu** – Bakı şəhər prokurorluğunun müraciətlərə baxılması şöbəsinin böyük prokuroru

kiçik ədliyyə müşaviri **Hacızadə İlqar Vaqif oğlu** – Bakı şəhəri Xəzər rayon prokurorunun köməkçisi

**2. Aşağıda adı çəkilən prokurorluq işçilərinə mükafatlandırma qaydasında vaxtından əvvəl növbəti xüsusi rütbələr verilsin:**

**Ədliyyə müşaviri**

kiçik ədliyyə müşaviri **Əlixanov Erkin Hüseynağa oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq əlaqələr idarəsinin rəisi

kiçik ədliyyə müşaviri **Hacıyev Novruz Kazım oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini

kiçik ədliyyə müşaviri **Dadaşov Murad Natiq oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və informasiya idarəsinin İnformasiya texnologiyalarının tətbiqi xidmətinin rəhbəri

kiçik ədliyyə müşaviri **Səmədov Valeh Vəliəhəd oğlu** – Quba rayon prokuroru

**Ədliyyə müşaviri**

I dərəcəli hüquqşünas **Mustafayev Vəli İbrahim oğlu** – Lənkəran rayon prokurorunun müavini

**I dərəcəli hüquqşünas**

II dərəcəli hüquqşünas **Talibli Nigar Ağakişi qızı** – Azərbaycan Respublikası Baş prokurorunun köməkçisi vəzifəsini icra edən

II dərəcəli hüquqşünas **İsmayılov Sahib İsmayıl oğlu** – Azərbaycan Respublikası Baş prokurorunun xüsusi tapşırıqlar üzrə köməkçisi vəzifəsini icra edən

II dərəcəli hüquqşünas **Mahmudov Zamir Nəcəf oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru

II dərəcəli hüquqşünas **Məmmədov Kamran Nazim oğlu** – Bakı şəhər prokurorluğunun istintaq idarəsinin boyük müstəntiqi

**4. Aşağıda adı çəkilən prokurorluq işçilərinə təşəkkür elan edilsin:**

ədliyyə müşaviri **Quliyev Elsevər Aydın oğlu** – Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhər prokuroru

ədliyyə müşaviri **Babayev İlqar Ənvər-bəy oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin Kriminalistika şöbəsinin prokuroru

ədliyyə müşaviri **Hacıyev Natiq Cahid oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru

II dərəcəli hüquqşünas **Əliyev Kənan Rüstəm oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtariş fəaliyyətində qanunlarm icrasına nəzarət idarəsinin prokuroru

ədliyyə müşaviri **Qurbanov Əli Rafiq oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru

ədliyyə müşaviri **Əhmədov Rasim Abbas oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan Hacıqabul rayon məhkəməsi üzrə)

ədliyyə müşaviri **Şəmmədov Rizvan Qaraş oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Kassasiya instansiyası məhkəməsi və Bakı Apellyasiya Məhkəməsi üzrə)

II dərəcəli hüquqşünas **Mirkişiyev Anar Nurəddin oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Gəncə Ağır Cinayətlər Məhkəməsi üzrə)

ədliyyə müşaviri **Eyvazov Elşad Aslan oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Müraciətlərə baxılması idarəsinin prokuroru

II dərəcəli hüquqşünas **Bayramov Eltun İsrail oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat-analitik idarəsi Hüquqi statistika şöbəsinin böyük prokuroru vəzifəsini icra edən

I dərəcəli hüquqşünas **Məmmədov Arzu Adil oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Kadrlar idarəsinin prokuroru

ədliyyə müşaviri **Ağayev Rövşən Həsən oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru

II dərəcəli hüquqşünas **Mirzəyeva Fərizə Fuad qızı** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru

ədliyyə müşaviri **Əsgərov Elxan Yusif oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin Kriminalistika kafedrasının müəllimi – prokuroru

I dərəcəli hüquqşünas **Məmmədov Heydər Vidadi oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin böyük prokuroru

ədliyyə müşaviri **Əliyev Bəyəli Vidadi oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat idarəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı

ədliyyə mayoru **Ağayev Emil Canıbəy oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin Kriminalistika şöbəsinin böyük prokuror-kriminalisti

kiçik ədliyyə müşaviri **Babayev Elçin Müseyib oğlu** – Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kadrlar şöbəsinin böyük prokuroru

ədliyyə kapitanı **Əhmədov Bəhruz Vidadi oğlu** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi

ədliyyə polkovnik-leytenantı **İsmayılov Vaqif Yusif oğlu** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin mühüm işlər üzrə müstəntiqi

ədliyyə müşaviri **Qəhrəmanov Mahir Məmmədyar oğlu** – Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin boyük prokuroru

ədliyyə müşaviri **Yusifov Vüqar Bəşir oğlu** – Bakı Şəhər prokurorluğunun Prokurorluqda istintaqa nəzarət şöbəsinin böyük prokuroru

I dərəcəli hüquqşünas **Bağırov İlkin Mahmud oğlu** – Xaçmaz rayon prokurorunun müavini

ədliyyə kapitanı **Məmmədov Bəhruz Şükür oğlu** – Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun istintaq şöbəsinin prokuror-kriminalisti

I dərəcəli hüquqşünas **Abdullayev Vüsal Habil oğlu** – Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru

I dərəcəli hüquqşünas **Abiyev İsmayıl Rahib oğlu** – Bakı şəhəri Nərimanov rayon prokurorluğunun böyük müstəntiqi

kiçik ədliyyə müşaviri **Rzayev Əliəkbər Rəcəb oğlu** – Bakı şəhəri Nəsimi rayon prokurorluğunun böyük müstəntiqi

kiçik ədliyyə müşaviri **Bədəlov Ərziman Şakir oğlu** – Abşeron rayon prokurorunun böyük müstəntiqi

I dərəcəli hüquqşünas **Muxtarov Kamran Nüsrət oğlu** – Ağstafa rayon prokurorunun böyük müstəntiqi

kiçik ədliyyə müşaviri **Həsənov Fazil İdris oğlu** – Cəlilabad rayon prokurorunun böyük köməkçisi

II dərəcəli hüquqşünas **Nəzərov Xalid Xaliq oğlu** – Daşkəsən rayon prokurorunun böyük köməkçisi

II dərəcəli hüquqşünas **Yusifli Zəkayi Rafiq oğlu** – Gəncə şəhər prokurorluğunun böyük müstəntiqi

kiçik ədliyyə müşaviri **İsmayılov Elmar Nağı oğlu** – Quba rayon prokurorluğunun böyük müstəntiqi

II dərəcəli hüquqşünas **Rzayev Orxan Bayram oğlu** – Salyan rayon prokurorluğunun böyük müstəntiqi

kiçik ədliyyə müşaviri **Salmanov Elçin Rahib oğlu** – Şamaxı rayon prokurorluğunun böyük müstəntiqi

ədliyyə müşaviri **Həsənov İbrahim İsmayıl oğlu** – Şəmkir rayon prokurorluğunun böyük müstəntiqi

ədliyyə kapitanı **Əliyev Elxan Telman oğlu** – Tərtər hərbi prokurorluğunun böyük müstəntiqi

kiçik ədliyyə müşaviri **Bəhrəmova Fəridə Tofiq qızı** – Bakı şəhəri Binəqədi rayon prokurorunun köməkçisi

II dərəcəli hüquqşünas **Məmmədov Orxan Sakit oğlu** – Bakı şəhəri Nizami rayon prokurorluğunun müstəntiqi

II dərəcəli hüquqşünas **Haqverdiyev Tural Oqtay oğlu** – Bakı şəhəri Sabunçu rayon prokurorluğunun müstəntiqi

II dərəcəli hüquqşünas **Sadıqov Kamran İlham oğlu** – Bakı şəhəri Suraxanı rayon prokurorluğunun müstəntiqi

II dərəcəli hüquqşünas **Cəlilov Pərviz Akif oğlu** – Ağdaş rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşünas **Məhərrəmov Tural Əbülfət oğlu** – Xızı rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşünas **Məhərrəmov Kənan Adil oğlu** – Sumqayıt şəhər prokurorluğunun müstəntiqi

ədliyyə baş leytenantı İsmayılov **Bayram Söhbət oğlu** – Gəncə hərbi prokurorluğunun müstəntiqi

ədliyyə baş leytenantı **Ələsgərov Elvin Əvəz oğlu** – Lənkəran hərbi prokurorluğunun müstəntiqi

ədliyyə baş leytenantı **Məmmədov Xaliq Musa oğlu** – Füzuli hərbi prokurorluğunun müstəntiqi

**5. Aşağıda adı çəkilən prokurorluq işçilərinə verilmiş intizam cəzası vaxtından əvvəl üzərlərindən götürülsün:**

kiçik ədliyyə müşaviri **Əzizov Cəsarət Rəsul oğlu** – Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat əməliyyat-axtarış fəaliyyətində qanunlaın icrasına nəzarət idarəsinin prokuroru

I dərəcəli hüquqşünas **Məmmədov Elşən Sulitdin oğlu** – Bakı şəhəri Nərimanov rayon prokurorunun köməkçisi

**6.** Baş Prokurorluğun Kadrlar idarəsi (N.Rəcəbov), Təşkilat-analitik idarəsi (M.Sultanov) və Maddi-texniki təminat şöbəsi (N.Məmişov) tərəfindən bu əmrdən irəli gələn müvafiq təşkilati məsələlərin həlli təmin edilsin.

**7.** Əmr prokurorluq işçilərinə elan edilməsi üçün bütün tabe prokurorluqlara göndərilsin.

*Əsas:* **Təqdimatlar**

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Zakir Qaralov**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı qeyd olunmuşdur

**Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq orqanlarının yaradılmasının 97 illiyi münasibətilə tədbir keçirilmişdir.**

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək bildirmişdir ki, ölkəmizdə prokurorluq orqanlarının əsası 1918-ci il oktyabrın 1-də qoyulsa da, onun müstəqil dövlət orqanı kimi fəaliyyəti və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunmuş, qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi milli dəyərlər və beynəlxalq prinsiplər əsasında təmin edilmişdir. Bu tədbirlərin tərkib hissəsi olaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. Prokurorluq orqanlarının qanunçuluğun təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində nüfuzlu təsisata çevrilməsi, fəaliyyətini dövrün tələbləri səviyyəsində qurması məhz ümummilli liderin rəhbərliyi altında həyata keçirilmiş mütərəqqi islahatlar nəticəsində mümkün olmuşdur. “Prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq tələb edən işdir, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir”, – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması üçün hüquqi zəmin formalaşdırmış, prokurorluğun fəaliyyət istiqamətlərini müəyyən etmişdir. Sonralar “Prokurorluq orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikası Qanununun, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Qeyd olunmuşdur ki, ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları ölkəmizin hüquq sisteminin dövrün ən yüksək demokratik standartlarına cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, müvafiq dövlət qurumlarının bu sahədə fəaliyyətinin yeni keyfiyyət tələblərin uyğun qurulmasına, o cümlədən Prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Bu gün də ölkəmizdə Prokurorluq orqanlarının fəaliyyətinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Dövlətimizin başçısı Prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: “Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzər biliklərə malik yeni nəsil Prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən

istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Hazırda ölkəmizdə prokurorluq orqanları ilə ictimaiyyətin əlaqələri qarşılıqlı etimad prinsipi əsasında qurulmuş, vətəndaşların müraciətlərinin vaxtında araşdırılması və zəruri tədbirlərin görülməsi, bütövlükdə isə ölkə Konstitusiyasında təsbit olunmuş vətəndaşların müraciət etmək hüququ yüksək səviyyədə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "Müstəqil dövlətin əsas sütunu onun hüquq-mühafizə orqanlarıdır. Hər bir ölkənin ümumi sabitliyi, sosial-iqtisadi inkişafı, ilk növbədə, həmin ölkənin hüquq-mühafizə orqanlarının fəaliyyətindən asılıdır. Ona görə də bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir".

Qeyd olunmuşdu ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları yüksək dövlət qayğısını daim öz üzərində hiss etmişdir. Ötən dövrdə muxtar respublika prokurorluğu, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Cinayət hadisələrinin qarşısının vaxtında alınmasında profilaktik tədbirlərin həyata keçirilməsi mühüm amildir. Muxtar respublikanın prokurorluq orqanları işçiləri hüquqi maarifləndirmə və profilaktik tədbirlərin keçirilməsini diqqət mərkəzində saxlayırlar. Bunun nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikasında cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır.

Prokurorluq orqanlarına işə qəbulun şəffaf şəraitdə, müsabiqə yolu ilə keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına təkmilləşdirilməsinə səbəb olmuşdur. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna muxtar respublika ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Sonda əminliklə ifadə olunmuşdur ki, öz üzərlərində yüksək dövlət qayğısını daim hiss edən prokurorluq orqanları əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Məhərrəm Talıbov, şəhər və rayon prokurorları çıxış edərək prokurorluq orqanlarına göstərilən dövlət qayğısından danışmışlar.

Sonda bir qrup prokurorluq əməkdaşı mükafatlandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluqda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir

**Ulu öndər Heydər Əliyevin xatirəsi Baş Prokurorluqda dərin ehtiramla yad edilmişdir**



Dekabrın 11-də Baş Prokurorluqda Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, ötən əsrin 60-cı illərindən başlamaqla ölkəmizin 30 ildən artıq bir dövrü əhatə edən ən yeni tarixi, bu dövr ərzində müstəqil dövlət kimi formalaşan Azərbaycan Respublikasının və xalqımızın taleyi Heydər Əliyev kimi dahi şəxsiyyətin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. Bu müddət ərzində ulu öndər tərəfindən həyata keçirilən möhtəşəm dövlətçilik tədbirlərinin nəticəsidir ki, azərbaycançılıq ideyası ətrafında birləşməklə, siyasi və iqtisadi müstəqilliyə nail olan xalqımız demokratik və hüquqi bir dövlətdə, demokratik dəyərlərə əsaslanan vətəndaş cəmiyyətində layiqli yaşamaq imkanı əldə etmişdir. Müxtəlif siyasi quruluşların mövcudluğu şəraitində Azərbaycan Respublikasına rəhbərlik etmiş Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondan ibarətdir ki, o, sovetlər dönəmində ölkəmizin gələcək müstəqilliyinin möhkəm iqtisadi əsaslarını yaratmaqla xalqımızı öz suverenliyi uğrunda mübarizəyə hazırlamağı bacarmış, dövlət müstəqilliyimizin itirilməsi və ölkəmizin parçalanması təhlükəsi yarandığı bir dövrdə xarici və daxili qüvvələrin məkrli cinayətkar hərəkətlərinin qarşısını almaqla sabitlik və əmin-amanlıq şəraiti yaratmış, daha sonra isə Azərbaycanın inkişaf etmiş bir ölkəyə çevrilməsini şərtləndirən misli görünməmiş quruculuq işlərini həyata keçirmişdir.

Bildirilmişdir ki, doğma xalqına və millətinə tə-




mənnasız xidməti həyatının mənası və məqsədi kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çox böyük maneələrlə rastlaşması, fiziki cəhətdən məhv edilmək təhlükəsi, çoxsaylı sui-qəsd və terror cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev öz siyasi müdrikliyi, polad iradəsi və qətiyyətli hərəkətləri, ən əsası-xalqının dəstəyi nəticəsində doğma Azərbaycanı bugünkü və gələcək nəsillər üçün qoruyub saxlamış və müstəqil inkişaf yoluna çıxarmışdır.

Xüsusi vurğulanmışdır ki, Azərbaycan Respublikasının tarixinə sabitlik və inkişaf dövrü kimi daxil olan 1993–2003-cü illər ərzində Heydər Əliyev tərəfindən müstəqil dövlətçiliyimizin ideoloji əsasları yaradılmış, o cümlədən azərbacançılıq məfkurəsi formalaşdırılmış, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan yeni iqtisadi münasibətlər bərqərar olmuş, Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edilməklə hüquqi dövlət quruculuğu yolunda inamlı addımlar atılmış, demokratik və ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin qurulması istiqamətində böyük işlər görülmüşdür.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın təbii ehtiyatlarından ölkənin milli maraqları naminə səmərəli istifadə edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq, ölkə iqtisadiyyatı və bütövlükdə ölkənin gələcəyi üçün həlledici amil olan “Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycanın dünyada analoqu olmayan sürətli inkişafı üçün hərtərəfli zəmin yaradılmışdır. Azərbaycanı bütün dünyaya tanıdan bu müqavilə irimiqyaslı xarici investisiyaların ölkəyə axını üçün böyük stimul oldu, ölkəmizin dünya iqtisadiyyatına hərtərəfli inteqrasiyasının əsasını qoydu.

Diqqətə çatdırılmışdır ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət təsisatlarından olan prokurorluq orqanlarının yenidən formalaşması ilk növbədə, ulu öndər Heydər Əliyev şəxsiyyəti ilə bağlıdır. Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması ölkəmizdə aparılan hərtərəfli məhkəmə-hüquq islahatlarının memarı olan Heydər Əliyevin dövlətçilik siyasəti, onun gündəlik qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur. 2003-cü ildən etibarən Azərbaycan prokurorluğu orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və prokurorluğa hərtərəfli qayğı göstərilir. Azərbaycan Prokurorluğunun inkişaf tarixində hərtərəfli müasirləşdirmə və təkmilləşdirmə dövrünün əsasını qoyan Dövlət başçısı tərəfindən təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı”na, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına uyğun olaraq həyata keçirilən təd-

birlər insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi üçün böyük imkanlar yaratmışdır.

Xüsusi vurğulanmışdır ki, cənab İlham Əliyevin 2003-cü ildən etibarən Dövlət başçısı kimi fəaliyyəti Heydər Əliyev ideyalarının yaşaması və onların reallaşdırılması istiqamətində görülən işlər bu dahi şəxsiyyətin unudulmaz xatirəsinin əbədiləşdirilməsinin və doğma Azərbaycanımızın hərtərəfli tərəqqisinin bariz göstəricisidir. Bu gün bütövlükdə ölkəmizin, eyni zamanda hər bir bölgənin hərtərəfli sosial-iqtisadi inkişafına nail olunmuş, demokratik vətəndaş cəmiyyətinin daha da təkmilləşdirilməsi istiqamətində inamlı addımlar atılmış, dünya dövlətləri birliyinə inteqrasiya proseslərini sürətləndirən ölkəmiz regionun aparıcı dövləti statusunu özündə saxlamış, enerji layihələrinin reallaşdırılması istiqamətində böyük işlər görülmüşdür. Nazirlər Kabinetinin cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Dövlət başçısı cənab İlham Əliyevin nitqində göstərildiyi kimi, ölkə iqtisadiyyatı uğurla inkişaf etmiş, bütün makroiqtisadi göstəricilər yüksək səviyyəyə çatmış, iqtisadi sahədə aparılan düşünülmüş siyasət qlobal iqtisadi maliyyə böhranı şəraitində Azərbaycan uğurlu iqtisadi inkişafını, ümumi daxili məhsulun əhəmiyyətli artımını təmin etmiş, nəzərdə tutulmuş bütün proqramlar uğurla icra edilmişdir.

Həyata keçirilmiş böyük quruculuq işləri və mütərəqqi islahatların nəticəsidir ki, əldə edilmiş uğurlar beynəlxalq maliyyə qurumları tərəfindən yüksək dəyərləndirilmiş, dünyanın nüfuzlu iqtisadi institutu olan Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 40-cı, MDB məkanı üzrə isə 1-ci yerdə qərarlaşmışdır.

Heydər Əliyev ideyalarının ardıcıl surətdə reallaşdırılmasının və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq ilk Avropa Oyunlarının 2015-ci ildə Azərbaycanda keçirilməsi, paytaxtımızın 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının 7-ci qlobal forumuna və 2017-ci ildə daha bir möhtəşəm tədbirə – İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcəyi ölkəmizin böyük uğuru kimi dəyərləndirilmişdir.

Anım mərasiminin iştirakçıları və Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun formalaşdırdığı siyasi kursa sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.



Mərasimin sonunda ümummilli liderin xatirəsinə həsr olunmuş Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Əbədiyyət: Heydər Əliyev və Dövlət quruculuğu" filmi nümayiş etdirilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respubliası Ppokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi yad edilmişdir

**Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 12-ci ildönümü ilə bağlı anma mərasimi keçirilmişdir**

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat verərək vurğulamışdır ki, Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutması məhz görkəmli dövlət xadimi, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə əvəzedilməz işlər görmüş Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan ümummilli lider xalqımızı can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Buna görə də O, Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran bir rəhbər kimi hələ sağlığında xalqımızın qəlbində əbədi yaşamaq hüququ qazanmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə sovet dövründə xalqımızın milli mənlik şüurunun inkişafına güclü təkan verən tədbirlər həyata keçirilmişdir. Sovet ideologiyasının hakim kəsildiyi bir zamanda böyük dövlət xadimi Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkmiş, 1969-cu ildə Azərbaycan KP MK-nın plenumunda ana dilində çıxış etməklə dilimizi, tarixi irsimizi yaşatmağın zəruriliyini böyük müdrikliklə göstərmişdir. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə dövlət dili kimi təsbit olunması və qorunub saxlanılması sahəsində atdığı addım o dövrdə böyük cəsarət tələb edirdi.

Sözün əsl mənasında, o illərdə Azərbaycan xalqı başqa mədəniyyətlərin təsirinə düşməkdən xilas olmuş, milli dəyərlərimiz özümüzə qaytarılmış, müasir müstəqil Azərbaycan dövləti məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969–1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. 1982–1987-ci illərdə, SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olanda da ulu öndər daim Azərbaycan haqqında düşünmüş, ölkəmizin gələcəyi üçün mühüm tədbirlər həyata keçirmişdir.

Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin ağır, çətin dövründə, 1990-cı il iyulun 22-də doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir. 1990-1993-cü illərdə, ölkəmizin ağır dövründə Naxçıvan Muxtar Respublikasında ulu öndərimizin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilmiş, muxtar respublikanın erməni təcavüzündən xilas olunması, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görülmüşdür. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan

Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan ilk addımlar idi.

Qeyd olundu ki, 1990–1993-cü illərdə Naxçıvanın siyasi, mədəni, mənəvi və iqtisadi mühitindən ümummilli liderimizin quruculuq fəaliyyəti qırmızı xətlə keçir. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın, tərəqqinin Heydər Əliyev yoluna qayıdan ilk region idi. Ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində xalq-lider birliyinin bariz təzahürü idi. Xalq ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişini vəziyyətdən yeganə çıxış yolu kimi görürdü. Ümummilli lider Heydər Əliyevə ünvanlanan müraciətlər maddi-mənəvi iztirablara məruz qalan bir xalqın, sadəcə, vəziyyətdən çıxış yolu deyildi. Bu həm də Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək və yenə də itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimizin qorunması üçün qəbul edilən tarixi bir ümumxalq qərarı idi. Ümummilli liderimizin 1993-cü ilin iyun ayında Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə xalqımızın itirilmiş inamı özünə qaytarılmış, ictimai-siyasi sabitliyin əsası qoyulmuşdur. Ulu öndər Heydər Əliyev həmin dövrdə deyirdi ki, “Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir. Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir. Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq. Bu yol xalq yoludur”.

Tarix də göstərdi ki, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yol düzgün yoldur. Belə ki, Azərbaycanın demokratik quruculuq və inkişaf yolu milli xüsusiyyətlər və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilməyə başlandı, ölkədə siyasi və milli-ideoloji birliyin təməli qoyuldu, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrildi. Bir sözlə, dövlət quruculuğu sahəsində nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və digər uğurlar ulu öndərin dövlətçilik konsepsiyasının mahiyyət etibarilə Azərbaycanın tarixi ənənələrini və müasir dünya dəyərlərini özündə birləşdirən yeni bir inkişaf modeli kimi özünü doğrultdu. İnkişafın Azərbaycan modelinin müəllifi olan ümummilli lider özünün zəngin bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmişdir.

Ölkəmizdə prokurorluq orqanlarının müstəqil dövlət orqanı kimi fəaliyyəti və inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunmuş, qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi milli dəyərlər və beynəlxalq prinsiplər əsasında təmin edilmişdir. Bu tədbirlərin tərkib hissəsi olaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Vurğulandı ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası sonrakı illərdə ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, respublikamız bütün sahələrdə uğurlu inkişaf yoluna çıxmış və bu yolla inamla daha xoş sabahlara doğru irəliləyir.

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokuroluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidentı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Mərasimdə edilən çıxışlarda Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevin doğma Azərbaycanımızın tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışıldı.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Hacıqabul şəhərində vətəndaşları qəbul edib



Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumlarının rəhbərləri tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinə əməl olunması ilə bağlı tapşırıqları Baş Prokurorluq tərəfindən daim diqqətdə saxlanılır və bu məqsədlə vətəndaşların bölgələrdə qəbulu davam etdirilir.

Baş prokuror Zakir Qaralov noyabrın 13-də Hacıqabul rayon prokurorluğunun inzibati binasında Şirvan şəhəri, Hacıqabul, Sabirabad, Salyan və Saatlı rayonlarında yaşayan vətəndaşları qəbul etmişdir.

Qəbula yazılma vətəndaşların yazılı və ya şifahi ərizələri üzrə, eləcə də prokurorluğun elektron poçt ünvana daxil olmuş müraciətlər əsasında həyata keçirilmişdir.

Qəbuldan əvvəl Baş prokuror Zakir Qaralov və Hacıqabul rayon İcra hakimiyyətinin başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, əziz xatirəsi ehtiramla yad edilmişdir.

Baş prokuror qəbulda 20-yə yaxın vətəndaşın müraciətini, o cümlədən ərizə, şikayət və təkliflərini dinləyib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi qanunauyğun və operativ şəkildə yerində öz həllini tapmış, digər müraciətlər üzrə isə müvafiq rayon prokurorlarına göstərişlər vermişdir.

Vətəndaşların ərizə və şikayətlərində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntularının, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həll edilməsi tapşırılmışdır.

## Baş prokuror Xaçmaz şəhərində vətəndaşları qəbul edib



Dekabrın 4-də Baş prokuror Zakir Qaralov Xaçmaz rayon prokurorluğunun inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayonlarında yaşayan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Xaçmaz rayon İcra hakimiyyətinin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, aziz xatirəsi ehtiramla yad edilmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 11 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Göstərilənlərlə yanaşı, qeyd edilən rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirilməklə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilmiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları diqqətlərinə çatdırılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Rusiya Federasiyası İstintaq Komitəsi arasında əməkdaşlıq haqqında Saziş imzalanmışdır

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Rusiya Federasiyası İstintaq Komitəsi arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir.

Oktyabrın 15-də Rusiya Federasiyası İstintaq Komitəsinin nümayəndə heyəti Fəxri Xiyabana gələrək Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoymuşdur. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülmüşdür. Şəhidlər Xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarı üzərinə tər çiçək dəstələri düzmüş, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoymuşlar.





Daha sonra nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüş keçirilmişdir.

Görüşdə iki ölkə arasında hüquqi sahədə əlaqələrin getdikcə inkişaf etdiyini qeyd edən Baş prokuror ölkəmizin son illər ərzində sosial-iqtisadi və ictimai-siyasi sahələrdə ardıcıl və sürətli inkişafa zəmin yaradan məhkəmə-hüquq islahatlarının həyata keçirildiyini vurğulamışdır. Dövlətlərimizin başçılarının siyasi iradələri və qarşılıqlı səfərləri nəticəsində ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndiyini qeyd edən Zakir Qaralov bu müsbət inkişafın hüquqi sahədə əməkdaşlıqda da müşahidə olunduğunu bildirmişdir.

Aleksandr Bastrıkinin 2008-ci ildə Azərbaycana səfəri və həmin səfər çərçivəsində ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində əldə edilən nailiyyətləri diqqətə çatdıran Baş prokuror həmin görüşün məntiqi nəticəsi kimi





2010-cu il sentyabrın 28-də tərəflər arasında imzalanmış "Əməkdaşlıq Proqramı"nın hər iki ölkənin hüquq mühafizə orqanları üçün mühüm əhəmiyyət kəsb etdiyini, qarşılıqlı səmərəli münasibətlərin və hüquqi əməkdaşlığın inkişafına töhfə verdiyini bildirmişdir.

Rusiyanın Azərbaycan ilə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə xüsusi önəm verdiyini deyən Aleksandr Bastrıkin iki ölkənin istintaq orqanları arasında əlaqələrin inkişafına təkan verildiyini, münasibətlərin dərinləşməsi üçün böyük perspektivlərin olduğunu bildirərək, qarşılıqlı səmərəli əlaqələrin daha da genişlənməsində maraqlı olduğunu vurğulamışdır.

Görüşdə hər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa, o cümlədən terrorçuluq və ekstremizmə qarşı birgə mübarizə sahəsində geniş fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılmış, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Müzakirələrin nəticəsi olaraq iki dövlət orqanı arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən "Əməkdaşlıq haqqında saziş" imzalanmışdır.

Saziş cinayətkarlıq və terrorçuluğa qarşı mübarizə, xüsusən də onun mütəşəkkil formaları, korrupsiya, iqtisadiyyat və yüksək texnologiyalar sahəsində cinayətlər və cəmiyyət üçün ciddi təhlükə təşkil edən digər cinayətlərin qarşısının alınmasında birgə əməkdaşlığı, informasiya və təcrübə mübadiləsini, hüquqi yardım və digər sahələri əhatə edir. Saziş mövcud münasibətlərin yeni səviyyəyə qaldırılması, ölkələrimizin tərəfdar olduğu beynəlxalq əməkdaşlığa dair sənədlərin icra olunmasının ikitərəfli səviyyədə təsdiqlənməsi, tərəflər arasında qarşılıqlı etimadın bir daha bəyan edilməsi və bir-birinin milli qanunvericiliyinə hörmətin ifadə olunması baxımından xüsusi əhəmiyyətə malikdir.

**Baş Prokurorluğun Beynəxlaq əlaqələr idarəsi**

# MDB-nin Müşahidə Missiyası Qərargahının rəhbəri Baş prokurorun birinci müavini ilə görüşmüşdür

Oktyabrın 29-da Baş prokurorun birinci müavini Rüstəm Usubov Müstəqil Dövlətlər Birliyinin Müşahidə Missiyası Qərargahının rəhbəri Yevgeniy Sloboda ilə görüşmüşdür.

Seçkilərin azad və demokratik şəraitdə keçirilməsi, seçicilərin azad şəkildə öz iradələrini ifadə etməsi məqsədi ilə görülən işlərdən danışan Rüstəm Usubov seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə ətraflı məlumat vermişdir.

Yevqeniy  Sloboda ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq seçkilərin normal keçirilməsi üçün hər cür şəraitin yaradıldığını, ötən illərlə müqayisədə dairə seçki komissiyalarının üzvlərinin peşəkarlıqlarının daha da artdığının şahidi olduğunu xüsusi qeyd edərək bu işdə Mərkəzi Seçki Komissiyası ilə yanaşı prokurorluq orqanlarının maarifləndirmə sahəsindəki əməyini yüksək qiymətləndirmişdir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

# Avstraliya Parlamentinin üzvləri Baş Prokurorluqda olmuşlar

Oktyabrın 28-də Azərbaycan Respublikası Baş prokurorunun brinci müavini Rüstəm Usubov Milli Məclisə keçiriləcək seçkiləri izləmək məqsədi ilə ölkəmizdə səfərdə olan Lyuk Simpkinsin rəhbərlik etdiyi Avstraliya Parlamentinin üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşmüşdür.

Rüstəm Usubov qonaqlara ölkəmizdə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirilən mühüm tədbirlər, keçiriləcək parlament seçkiləri ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə ətraflı məlumat vermişdir.

Görüşdə vətəndaşların seçki hüququnun etibarlı təmin edilməsi məsələləri ilə bağlı müzakirələr aparılmış, nümayəndə heyətinin üzvlərini maraqlandıran suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Mətbut Xidməti**

# 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun ünvanına təbrik məktubları daxil olmuşdur

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Sizi və rəhbərlik etdiyiniz peşəkar kollektivi 1 oktyabr – prokurorluq işçilərini peşə bayramı günü ilə səmimi qəlbdən təbrik edir və gərəkli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.*

*Xalqımızın ümumi lideri Heydər Əliyev tərəfindən təməli qoyulmuş məhkəmə-hüquq islahatları nəticəsində prokurorluq orqanları müasir tələblər səviyyəsində yenidən formalaşaraq cəmiyyətdə yüksək nüfuza malik olmaqla milli dövlətçiliyimizin əsas sütunlarından birinə çevrilmişdir.*

*Fəxrlə deyə bilərik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan Prokurorluğu ölkəmizdə qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə sahəsində fəaliyyətini əzmkarlıqla davam etdirir.*

*Ədalət mühakiməsinin həyata keçirilməsində mühüm rolu olan prokurorluq orqanlarının müasirləşdirilməsi üzrə bilavasitə rəhbərliyinizlə görülən tədbirlər və əldə olunan nailiyyətlər, o cümlədən maddi-texniki potensialın gücləndirilməsi, müasir təfəkkürlü yeni nəsil prokurorluq işçilərinin yetişdirilməsi, insanlara xidmət edən mütərəqqi informasiya-kommunikasiya texnologiyalarının tətbiqi hər birimizdə yüksək fərəh hissi doğurur.*

*Dövlətimizin güclü siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan mübarizədə prokurorluğun mühüm rolu, bu sahədə qətiyyətli fəaliyyətiniz, cari il Beynəlxalq Antikorrupsiya Akademiyasında uğurlu sədrliyiniz xüsusi qeyd olunmalıdır. Beynəlxalq Prokurorlar Assosiasiyasının şahidi olduğum son İllik Konfransında fəal iştirak etməklə Azərbaycanın müsbət antikorrupsiya təcrübəsi barədə təqdimatınızın böyük marağa səbəb olması ölkəmizin nailiyyətlərinin beynəlxalq aləmdə tanınmasını bir daha təsdiq edir.*

*Sevindirici haldır ki, ədliyyə və prokurorluq orqanları arasında çox səmərəli işgüzar münasibətlər mövcuddur.*

*Azərbaycan Prokurorluğunun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək peşə bayramınız ərəfəsində əməkdaşlarınızın ali xüsusi rütbələrə və dövlət təltiflərinə layiq bilinməsi ölkə başçısı tərəfindən fəaliyyətinizə göstərilən diqqət və qayğının bariz təzahürüdür.*

***Hörmətli Zakir müəllim!***

*Hər birimiz üçün əziz olan bayram münasibətilə Ədliyyə Nazirliyi rəhbərliyi və çoxminli kollektivi adından Sizi bir daha ürəkdən təbrik edir, müstəqil Azərbaycanımızın tərəqqisi naminə mühüm və məsuliyyətli işinizdə yeni-yeni nailiyyətlər diləyirəm.*

***Hörmətlə,***

***Fikrət Məmmədov,***
***Azərbaycan Respublikasının ədliyyə naziri,***
***Məhkəmə-Hüquq Şurasının sədri,***
***I dərəcəli dövlət ədliyyə müşaviri***

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi təbrik edir, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.*

*Demokratik prinsiplərin, humanist dəyərlərin və insan hüquqlarının xüsusi əhəmiyyət daşıdığı müasir dövrdə hər bir dövlətin hüquq siyasətinin həyata keçirilməsində prokurorluq orqanlarının böyük rolu vardır. Bu baxımdan, demokratik, hüquqi dövlət kimi Azərbaycan Respublikasının ən ümdə vəzifələrindən biri olan vətəndaşların hüquqlarının və azadlıqlarının müdafiəsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi kontekstində prokurorluq orqanlarının üzərinə böyük məsuliyyət düşür.*

*Azərbaycan Respublikası prokurorluq orqanları bu gün Sizin rəhbərliyinizlə öz fəaliyyətində ədalət və şəffaflıq prinsiplərini əsas götürərək ölkəmizdə aparılan hüquqi islahatlar prosesində fəal iştirak edir, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Prokurorluq orqanları öz işini digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə quraraq ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquqlarının və azadlıqlarının müdafiəsində fəal iştirak edir. İnanırıq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquq qaydasının və ədalətin qorunmasına yönəlmiş fəaliyyətinizi bundan sonra da uğurla davam etdirəcək, bu məsuliyyətli işdə öz təcrübənizi və səriştənizi əsirgəməyəcəksiniz.*

*Əlamətdar gün münasibətilə Sizə bir daha səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dövlətimizin tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.*

***Hörmətlə,***

***Fərhad Adbullayev,***
***Azərbaycan Respublikası***
***Konstitusiya Məhkəməsinin Sədri***

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Sizi və prokurorluq orqanlarında çalışan bütün əməkdaşları Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Ali Məhkəmənin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.*

*Bu bayramı ulu öndərimiz Heydər Əliyevin təsis etməsi prokurorluq orqanlarının fəaliyyətinə verdiyi yüksək qiymətin təcəssümüdür. Ümummilli liderimizin yolunu uğurla davam etdirən möhtərəm cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə hüquq sahəsində aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan Prokurorluğu mütərəqqi normativ hüquqi bazası olan, demokratik məzmunlu prinsiplər və iş metodları əsasında fəaliyyət göstərən sivil dövlət təsisatına çevrilmişdir.*

*Milli dövlətçiliyə daim sədaqətlə xidmət edən, respublikada ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının təminatında mühüm rol oynayan Azərbaycan prokurorluğunun əməkdaşları öz vəzifələrini şərəflə yerinə yetirməkdədirlər. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə Prokurorluğun bir qrup əməkdaşlarının yüksək dövlət təltiflərinə, ali xüsusi rütbələrə layiq görülməsi prokurorluq işçilərinin səmərəli fəaliyyətinə yüksək qiymətdir.*

*Dövlət həyatında əhəmiyyətli yer tutan prokurorluğun insan hüquq və azadlıqlarının təmininə, demokratik inkişafa törədilən maneələrin aradan qaldırılmasında, ədalət mühakiməsinin beynəlxalq tələbələrə cavab verən səviyyədə formalaşmasında, ictimai-siyasi həyatın bütün sahələrində dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında böyük rolu vardır.*

*Sizin rəhbərliyinizlə dövlət ittihamının təkmilləşdirilməsi işinin təmin edilməsi, şəffaf və ədalətli kadr islahatları prokurorluğun uğurlarının əsasını təşkil edir*

*Prokurorluq orqanlarında çalışan əməkdaşlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli xidmətlər göstərirlər.*

*Prokurorluq orqanlarında cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilir, dövlətçiliyimizin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının qorunması, sosial ədalətin bərpa olunması istiqamətində mühüm işlər görülür.*

*Əminik ki, prokurorluq orqanları öz fəaliyyətinin etimada layiq səviyyədə təşkili üçün bütün zəruri tədbirlərin görülməsini davam etdirəcək, xalqın mənafeyinin cinayətkar qəsdlərdən qorunmasında bundan sonra da yaxından iştirak edəcəklər.*

**_Hörmətli Zakir müəllim!_**

*Peşə bayramı günündə Sizi bir daha ürəkdən təbrik edir, şərəfli və məsuliyyətli vəzifələri yerinə yetirən prokurorluğun bütün kollektivinə möhkəm can sağlığı və işlərində uğurlar arzulayıram.*

**_Hörmətlə,_**

**_Ramiz Rzayev,_**
**_Azərbaycan Respublikası_**
**_Ali Məhkəməsinin sədri_**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Yarandığı gündən önəmli inkişaf yolu keçən prokurorluq orqanları Milli Lider Heydər Əliyevin rəhbərliyi ilə hüquq sahəsində dövlət siyasətini, qanunçuluğun etibarlı müdafiəsini təmin edən mümkün dövlət strukturu olaraq formalaşmış, cəmiyyətdə böyük nüfuz qazanmışdır.*

*Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin inkişafı və qüdrətlənməsi naminə həyata keçirilən tədbirlərdə fəal iştirak edən prokurorluq işçiləri məhkəmə hüquq sisteminin təkmilləşdirilməsinə, effektivliyinin artırılmasına, bütövlükdə demokratik islahatların uğurla davam etməsinə əhəmiyyətli töhfələr verirlər. Konstitusion dövlət quruluşunun möhkəmlənməsi, ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması, açılması, istintaqı və digər mühüm vəzifələrin icrasında prinsipiallığı, qanunlara sadiqliyi ilə seçilirlər. Prokurorluq əməkdaşlarının səmərəli fəaliyyətinin hər zaman dəyərləndirilərək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi Möhtərəm Prezidentimizin yüksək etimadının, diqqət və qayğısının əyani təsdiqidir.*

*Günbəgün inkişaf edən səmərəli qarşılıqlı əlaqələrimiz cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin, vətəndaşların hüquqlarının, cəmiyyətin və dövlətin maraqlarının qorunmasında mühüm rol oynamaqla Azərbaycanın tərəqqisinə xidmət etməkdədir.*

*Əlamətdar peşə bayramınız – prokurorluq orqanlarının yaranmasının 97-ci ildönümü münasibətilə Sizi və respublikanın bütün prokurorluq işçilərini ürəkdən təbrik edir, can sağlığı, ailə səadəti, xoşbəxtlik, məsul və şərəfli işinizdə yeni-yeni nailiyyətlər arzulayıram!*

**Dərin hörmətlə,**

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının**
**daxili işlər naziri,**
**general-polkovnik**

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Sizi və tabeliyinizdə olan kollektivi peşə bayramınız – Prokurorluq işçiləri günü münasibətilə ilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.*

*Ulu Öndərimiz Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində respublikamızın gələcəyə hesablanmış inkişaf istiqamətləri dəqiq müəyyənləşdirilmişdir. Ümummilli Liderimizin layiqli davamçısı Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında bu gün ölkəmizin uğurlu inkişafı təmin edilmiş, müdafiə qüdrəti artmış və dövlətçiliyimiz daha da möhkəmlənmişdir.*

*Respublikamızda qanunların aliliyinin yüksək səviyyədə təmin olunmasında, vətəndaşların hüquqlarının qorunmasında, cinayətkarlığa qarşı mübarizənin uğurla aparılmasında və qanunçuluğun bərqərar olunmasında Sizin və prokurorluğuq işçilərinin layiqli töhfələri vardır.*

*Sizə və kollektivinizin hər bir üzvünə möhkəm can sağlığı, uzun ömür, ailə səadəti və işlərinizdə yeni müvəffəqiyyətlər arzulayıram.*

**_Hörmətlə,_**

**_Zakir Həsənov,_**
**_Azərbaycan Respublikasının_**
**_müdafiə naziri,_**
**_general-polkovnik_**

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edərək, müstəqil inkişaf tarixinin yeni yüksəliş mərhələsini yaşayan ölkəmizdə qanunçuluğun, insan hüquq və azadlıqlarının təminatlı müdafiəsi, digər hüquq mühafizə orqanları ilə birgə cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi naminə fəaliyyətinizdə daim uğurlar diləyirəm.*

*Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə müstəqil və suveren respublikamızda həyata keçirilən dövlət quruculuğu və genişmiqyaslı hüquqi islahatlar nəticəsində tamamilə yenidən formalaşdırılan ölkə prokurorluğu milli dövlətçilik tariximizdə ilk dəfə olaraq konstitusion statusa və qanunvericilik təşəbbüsünə malik olmaqla yeni dövrün tələblərinə uyğun demokratik məzmunlu və mütərəqqi ruhlu dövlət təsisatına çevrilmiş oldu. Müstəqilliyimizin möhkəmlənməsində və qanunun aliliyinin təmin olunmasında prokurorluq orqanlarının önəmli rolunu layiqincə dəyərləndirən Dahi rəhbərin təşəbbüsü ilə qəbul edilən "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu və digər müvafiq qanunvericilik çərçivəsində reallaşdırılan kompleks tədbirlər hazırda ümumavropa meyarları toplusuna mühüm töhfələr bəxş edən ölkəmizin beynəlxalq hüquq məkanına inteqrasiyasını əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir.*

*Əbədiyaşar liderin humanizmə, ədalətə və digər yüksək bəşəri dəyərlərə söykənən köklü hüquq islahatlarını keyfiyyətcə yeni mərhələdə inamla davam etdirən ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarının ali diqqət və qayğısı sayəsində artıq təkmil normativ-hüquqi və ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunan maddi-texniki bazaya, həmçinin, demokratik prinsiplər və şəffaf prosedurlara əsaslanaraq müsabiqə yolu ilə milli dövlətçiliyimizə sədaqət ruhunda formalaşdırılan yeni nəsil kadr korpsuna malik prokurorluq orqanları bu gün "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının müvafiq tələblərinə uyğun daha da təkmilləşməkdə və demokratikləşməkdə davam etməklə dövlət başçısının qeyd etdiyi kimi, cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında, qanunçuluğun təmin edilməsində və bütövlükdə milli hüquq sisteminin inkişafında mühüm rol oynamaqdadır.*

*Peşə bayramınızla bağlı Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti adından bir daha səmimi təbriklərimi çatdıraraq, Sizə möhkəm can sağlığı və səadət diləyir, alternativsiz ölkə rəhbərinin müəyyənləşdirdiyi müasir məzmunlu hüquq mühafizə siyasətinin həyata keçirilməsində Azərbaycan Prokurorluğuna yeni-yeni nailiyyətlər arzulayıram.*

**_Hörmətlə,_**

**_Kəmaləddin Heydərov,_**
**_Azərbaycan Respublikasının_**
**_fövqəladə hallar naziri,_**
**_general-polkovnik_**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi 1 Oktyabr – prokurorluq işçilərinin peşə bayramı münasibətilə təbrik edirəm.*

*Müstəqil Azərbaycanın prokurorluq orqanlarının dövlətçiliyin maraqlarına və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması və 1 Oktyabr tarixinin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.*

*Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən dövlət quruculuğu siyasəti sayəsində Azərbaycanda prokurorluq orqanlarının fəaliyyətinin zamanın çağırışlarına, yeni siyasi, iqtisadi və sosial şəraitə uyğunlaşdırılması, bu sahədə şəffaflığın təmin olunması, korrupsiyaya qarşı mübarizənin vahid strategiya çərçivəsində qurulması, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində ciddi irəliləyişlərə nail olunmuşdur. Fərəhləndirici haldır ki, bu gün Azərbaycanın prokurorluq orqanları ölkəmizdə sabitliyin qorunması, qanunçuluğun təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə və hər kəsin qanun qarşısında hüquq bərabərliyinin təmin olunması işinə öz layiqli töhfələrini verir.*

**Hörmətli Zakir müəllim!**

*Sizi bir daha peşə bayramınız münasibətilə təbrik edir, ölkəmizdə qanunçuluğun və hüquq normalarının etibarlı müdafiəsi istiqamətində gördüyünüz bütün işlərdə Sizə yeni-yeni uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Fazil Məmmədov,**
**Azərbaycan Respublikasının vergilər naziri,**
**1-ci dərəcəli dövlət vergi xidməti müşaviri**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi və prokurorluq orqanları əməkdaşlarını Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı münasibəti ilə təbrik edirəm.*

*Ölkəmizdə hüquqi islahatlarının aparılması, demokratik təsisatların qurulması və qanunun alilik prinsipinin möhkəmləndirilməsi Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyildir ki, prokurorluq orqanlarında aparılan islahatların əsasını və qanunvericilik bazasını məhz Ulu Öndərimizin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil edir.*

*Dahi siyasət korifeyinin müəyyənləşdirdiyi strategiyanın reallaşdırılması, Azərbaycan Respublikası Prezidentinin "Əsas məqsədimiz – prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır" siyasi xəttinin həyata keçirilməsi nəticəsində dövlətin və cəmiyyətin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirən, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında xüsusi rol oynayan prokurorluq sistemi formalaşmışdır. Bu gün Azərbaycan Prokurorluğu mütərəqqi normativ hüquqi bazası olan, demokratik məzmunlu prinsiplər və iş metodları əsasında fəaliyyət göstərən mühüm dövlət qurumudur. Prokurorluq orqanlarında dövlətçiliyə sadiq, sağlam mənəviyyata, geniş dünyagörüşünə malik prokurorluq əməkdaşları çalışırlar. Qanunlarımızın aliliyinin, cəmiyyətdə hüquqi və mənəvi saflığın, əmin-amanlığın təmin olunmasında prokurorluq orqanlarının xidmətləri danılmazdır.*

*Ölkə rəhbərliyi tərəfindən Azərbaycanın prokurorluq sisteminə böyük diqqət və qayğı göstərilir, prokurorluq orqanları əməkdaşlarının çətin və şərəfli əməyi daim yüksək qiymətləndirilir. Hər il oktyabrın 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi, dövlət başçısının sərəncamları ilə Azərbaycan Respublikası Prokurorluğu əməkdaşlarının təltif olunması, ali xüsusi rütbələrin verilməsi Vətənimiz qarşısında xidmətlərinizə verilən yüksək qiymətin nümunəsidir.*

*Sizi və prokurorluq əməkdaşlarını bu əlamətdar gün münasibəti ilə bir daha təbrik edir, mühüm fəaliyyətinizdə uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Şahin Mustafayev,**
**Azərbaycan Respublikasının**
**iqtisadiyyat və sənaye naziri**

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Sizi və Azərbaycan Respublikasının Baş Prokurorluğunun kollektivini "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibəti ilə təbrik edirəm.*

*Azərbaycanda reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanları milli maraqlarımıza xidmət edən təsisat kimi müasir məzmunda yeniləşdirilməklə, sivil və demokratik inkişaf yolu keçmişdir. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası Prokurorluğu qanunun aliliyi, ölkəmizdə formalaşmış dayanıqlı ictimai-siyasi sabitliyin və milli maraqlarımızın cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı. mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini uğurla təmin edir.*

*Əminik ki, dövlətçiliyə sədaqətlə xidmət edən prokurorluğun kollektivi bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydasının qorunması işində daim dönməzlik və qətiyyət nümayiş etdirəcəkdir.*

*Sizi bu əlamətdar gün münasibəti ilə bir daha təbrik edir, şərəfli və məsuliyyətli işinizdə uğurlar arzulayıram.*

**_Hörmətlə,_**

**_Samir Şərifov,_**
**_Azərbaycan Respublikasının_**
**_maliyyə naziri_**

**_Azərbaycan Respublikasının Baş prokuroru_**

**_I dərəcəli dövlət ədliyyə müşaviri_**

**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Sizi 1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.*

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafı naminə məsul və səmərəli fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.*

*Ölkəmizdə hüquqi dövlət quruculuğu, qanunların aliliyi və ədalət prinsiplərinin qorunması baxımından rəhbərlik etdiyiniz qurumun özünəməxsus rolu vardır. Son illərdə prokurorluq orqanlarının işinin daha da təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmaqdadır.*

*1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi bir daha ürəkdən təbrik edir, gələcək fəaliyyətinizdə daha böyük nailiyyətlər diləyirəm.*

**_Hörmətlə,_**

**_Mikayıl Cabbarov,_**
**_Azərbaycan Respublikasının_**
**_təhsil naziri_**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi 1 oktyabr – Prokurorluq Orqanı İşçilərinin Peşə bayramı günü münasibətilə respublika nəqliyyatçıları adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, uzun ömür və Azərbaycanda qanunçuluğun təmin olunması naminə gərgin fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

*Ümummilli Liderimiz Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə oktyabrın 1-i respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuşdur. Azərbaycanda bu gün 97 illiyini qeyd etdiyimiz prokurorluq orqanları ilk dəfə 1918-ci il oktyabrın 1-də formalaşdığından bu Sərəncam həm də tarixi irsə dərin hörmətin təcəssümü kimi yüksək dəyərə malikdir.*

*İnkişaf etmiş sivil dövlətlərin təcrübəsi göstərir ki, ictimai-siyasi həyatın bütün sahələri üzrə dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulması, ictimai ədalət prinsiplərinə ciddi riayət olunması sabitliyin, vətəndaş həmrəyliyinin və dinamik iqtisadi inkişafın ən başlıca təminatlarından biridir. "Prokurorluq peşəsi ağır, çətin peşədir, amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" – deyən Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində Azərbaycanda prokurorluq orqanlarının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində nüfuzlu təsisata çevrilməsi reallaşmışdır. Hüquq-mühafizə sisteminə dövlət səviyyəsində diqqət və qayğı bu gün də inamla davam edir. Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev prokurorluq orqanlarının işinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirir.*

*İnanırıq ki, Azərbaycan prokurorluğu bundan sonra da ölkəmizdə cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiə olunması işinə layiqli töhfəsini verəcək, Azərbaycan Respublikasının Prezidenti Möhtərəm Cənab İlham Əliyevin yorulmaz dövlətçilik fəaliyyətində ona yardımçı olacaqdır.*

**Hörmətli Zakir müəllim!**

*Sizi bir daha Peşə bayramı günü münasibətilə ürəkdən təbrik edir, Sizə və rəhbərlik etdiyiniz kollektivin hər bir üzvünə möhkəm can sağlığı, uzun ömür, ölkəmizdə hüquqi dövlət quruculuğunun təmin edilməsi və insan haqlarının qorunması naminə şərəfli işinizdə yeni-yeni uğurlar arzu edirəm.*

**Dərin hörmətlə,**

**Ziya Məmmədov,**
**Azərbaycan Respublikasının**
**nəqliyyat naziri**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Müdafiə Sənayesi Nazirliyinin kollektivi Sizi və rəhbərlik etdiyiniz qurumun əməkdaşlarını 1 oktyabr – Prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edir, belə bir xoş gündə Sizlərə uzun ömür, möhkəm cansağlığı və respublikamızda təhlükəsizliyin, ədalətin qorunub saxlanması naminə həyata keçirdiyiniz işlərdə uğurlar arzulayır.*

*Çoxillik tarixə malik olan Azərbaycan Respublikasının prokurorluq orqanları ötən illər ərzində böyük sınaqlardan çıxmışdır. Təhlükəsizliyin, ədalətin keşiyində duran prokurorluq orqanlarını bu sınaqlar daha da qüvvətləndirmişdir.*

*1991-ci il ildə yenidən müstəqillik əldə etmiş respublikamızın öz müstəqilliyini itirmə təhlükəsi ilə üzləşdiyi bir dövrdə xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyevin böyük qətiyyəti və iradəsi sayəsində Azərbaycanın müstəqilliyi qorunub saxlanıldı, ölkədə sabitlik təmin edildi, qanunsuz silahlı birləşmələr tərksilah edildi, atəşkəsə nail olundu, güclü dövlətin möhkəm özülü qoyuldu.*

*Bu gün Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə gedən inkişaf prosesləri məhkəmə-hüquq islahatlarının dərinləşməsinə, hüquq-mühafizə, eyn zamanda prokurorluq orqanlarının infrastrukturunun yaxşılaşdırılmasına da təkan verir. Təhlükəsizliyin və ədalətin təminatçısı olan Azərbaycan Respublikasının prokurorluq orqanlarının keyfiyyətcə yeniləşməsindən xəbər verən bu işlər hər zaman qanun keşiyində duran Sizlərin danılmaz xidmətlərinizin bariz nümunəsidir.*

**Hörmətli Zakir müəllim,**

*Bu əlamətdar gün münasibəti ilə müdafiə Sənayesi nazirliyinin kollektivi səmimi təbriklərini bir daha Sizlərə çatdırır, üzərinizə ötürdüyünüh şərəfli və məsuliyyətli işlərin bundan sonra da yerinə yetirilməsi naminə Ulu Tanrıdan öz şəfqət və mərhəmətini Sizlərdən əsirgəməmsisini diləyirəm.*

**Hörmətlə,**

**Yavər Camalov,**
**Azərbaycan Respublikasının**
**müdafiə sənayesi naziri**

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Azərbaycan xalqı tərəfindən dövlətçiliyinin möhkəmlənməsində, ictimai təhlükəsizliyin və asayişin qorunmasında müstəsna xidmətləri olan Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının ildönümü – 01 oktyabr prokurorluq işçilərinin peşə bayramı günü hər il böyük fərəh və qürur hissi ilə qeyd olunur.*

*Bu əlamətdar gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 17 iyul 1998-ci ildə imzaladığı Sərəncamla əbədi müstəqilliyə qovuşan Azərbaycanın müasir dövlətçilik tarixinin mühüm səhifəsini təşkil edir.*

*Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycan Prokurorluğu cəmiyyətdə öz layiqli yerini tutmağa nail olmuş, dövlətçiliyimizin sütunlarından hesab olunan mühüm təsisata çevrilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti dövründə bütün hüquq mühafizə orqanları, o cümlədən prokurorluq öz inkişafının məzmunca və keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoymuşdur. Son illər prokurorluğun hüquq sistemində rolunun artırılması, əməkdaşlarının əməyinin mütəmadi olaraq qiymətləndirilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində mühüm qərarlar qəbul edilmişdir. Bu gün Sizin rəhbərliyinizlə prokurorluğun mühüm təsisat kimi təkmilləşdirilməsi və fəaliyyətinin səmərəliyinin artırılması sahəsində görülən işlər öz müsbət təsirini göstərməkdədir.*

**_Hörmətli Zakir müəllim,_**

*Mədəniyyət və Turizm Nazirliyinin kollektivi və şəxsən öz adımdan Sizi, eyni zamanda dövləti və dövlətçiliyi qoruyan Prokurorluğun yüksək peşəkarlığa malik bütün əməkdaşlarını peşə bayramı günü münasibəti ilə ürəkdən təbrik edir, məsuliyyətli və şərəfli xidmətinizdə böyük nailiyyətlər, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram!*

**_Hörmətlə,_**

**_Əbülfəz Qarayev,_**
**_Azərbaycan Respublikasının_**
**_mədəniyyət və turizm naziri_**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz kollektivi 1 Oktyabr – Prokurorluq orqanları işçilərinin peşə bayramı günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Hər bir ölkədə dövlətçilik maraqlarının və qanunların aliliyinin təmin edilməsi ən vacib vəzifələrdən biridir. Yarandığı vaxtdan şərəfli bir inkişaf yolu keçən Azərbaycan Prokurorluğu bu vacib və şərəfli vəzifəni daim yüksək səviyyədə yerinə yetirir.*

*Xalqımızın Ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra ölkəmizin prokurorluq orqanlarının həyatında da inkişaf və yeniləşməyə doğru mühüm addımlar atılıb. Azərbaycan Prokurorluğu dövlətçiliyimizin möhkəmləndirilməsi, ən mühüm nailiyyətlərimizdən biri olan ictimai-siyasi sabitliyin, vətəndaş təhlükəsizliyinin qorunması proseslərində daim fəal və işgüzar mövqeyi ilə seçilib. Ulu öndərin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə Prokurorluq orqanları işçilərinin peşə bayramı gününün təsis edilməsi də dövlətçiliyin əsas sütunlarından biri olan prokurorluğun cəmiyyətdəki roluna yüksək dəyər verilməsinin, bu orqanlarda çalışan insanlara qayğıkeş münasibətin daha bir əməli təsdiqi olub.*

*Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsi kimi sabitlik və dinamik inkişaf məkanı olan Azərbaycanda prokurorluq orqanları da keyfiyyətcə yeni tərəqqi mərhələsini yaşayır. Ölkə prokurorluğunun maddi-texniki bazası və fəaliyyəti ən müasir tələblərə uyğun və mütərəqqi standartlar əsasında təkmilləşir, onun peşəkarlıq səviyyəsi daim yüksəlir.*

*Bu amillər, ümumən Azərbaycan prokurorluq orqanlarının qanunların aliliyinin, ictimai asayişin və əmin-amanlığın təmin olunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində, cinayətkarlığın qarşısının alınmasında dövlətçiliyə sədaqət hissi ilə göstərdikləri mühüm xidmətlər respublika ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanır və hər birimizdə qürur hissi doğurur.*

*Peşə bayramı gününüzdə Sizi bir daha ürəkdən təbrik edir, məsul və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.*

**Hörmətlə,**

**Səlim Müslümov,**
**Azərbaycan Respublikasının**
**əmək və əhalinin sosial müdafiəsi naziri**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*1 Oktyabr – Prokurorluq orqanları işçilərinin peşə bayramı münasibətilə Sizi və sizin simanızda bütün əməkdaşlarınızı səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.*

*Hər bir ölkədə prokurorluq orqanları dövlətçiliyin və dövlət maraqlarının qorunması, qanunçuluğun təmin edilməsi kimi çox mühüm vəzifələri yerinə yetirir. Azərbaycan Respublikasında Sizin rəhbərlik etdiyiniz bu vacib dövlət qurumu Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik siyasətinin prinsiplərinə əsaslanaraq Prezident İlham Əliyev cənablarının düşünülmüş daxili siyasətini həyata keçirən önəmli hüquq-mühafizə orqanlarındandır. Hazırda ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıqda, ümumi tərəqqidə Vətənimizin prokurorluq orqanlarının da əhəmiyyətli payı vardır. Bütün şəxsi heyəti ilə ölkəmizdə qanunçuluğun bərqərar olması, qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə var qüvvə ilə çalışan prokurorluq Azərbaycanın dinamik ictimai-siyasi və iqtisadi-sosial inkişafı üçün zəruri olan şərtləri yaradaraq, Vətənimizin çiçəklənməsinə dəyərli töhfələr verir.*

*Peşə bayramınız münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm sağlamlıq, ailənizə xoşbəxtlik və əmin-amanlıq, ölkəmizdə qanunçuluğun keşiyində dayanan hər kəsə bu fəaliyyətində uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Oqtay Şirəliyev,**
**Azərbaycan Respublikasının**
**səhiyyə naziri**

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı münasibətilə Sizi və rəhbərlik etdiyiniz qurumun bütün kollektivini səmimi qəlbdən təbrik edərək, ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığa qarşı mübarizənin səmərəsinin yüksəldilməsinə istiqamətlənmiş xidməti fəaliyyətinizdə uğurlar diləyirəm.*

*Müstəqilliyimizin möhkəm iqtisadi təməllərini böyük uzaqgörənliklə sovet dönəmindən yaratmağa başlayan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan Respublikasında milli dövlətçilik ənənələrimizə və beynəlxalq standartlara əsaslanaraq reallaşdırılan çoxşaxəli məhkəmə-hüquq islahatları nəticəsində digər hüquq-mühafizə strukturları kimi, tamamilə yenidən formalaşdırılan ölkə prokurorluq orqanları mütərəqqi ruhlu normativ-hüquqi bazaya və demokratik məzmunlu fəaliyyət prinsiplərinə malik konstitusion statuslu sivil bir qurum olaraq müstəqil və suveren dövlətçiliyimizin əsas sütunlarından birinə çevrilmişdir. Dahi Rəhbərin təşəbbüsü ilə sonralar aparılan zəruri struktur dəyişiklikləri və köklü kadr islahatları bu sistemin daha da təkmilləşməsində mühüm rol oynamış, «...Mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram» – deyən əbədiyaşar Liderimizin müdrik göstəriş və tövsiyələri bu gün də öz aktuallığını saxlamaqla hər bir prokurorluq əməkdaşını doğma Vətənə və xalqımıza sədaqətlə xidmət etməyə səsləməkdədir.*

*Ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarının parlaq gələcəyə hesablanmış praqmatik dövlətçilik fəaliyyəti sayəsində digər aidiyyəti qurumlar kimi, öz inkişafının məzmun və keyfıyyətcə yeni mərhələsinə qədəm qoyan prokurorluq orqanlarının hərtərəfli demokratikləşmə və müasirləşməsinə xidmət edən müvafiq Dövlət Proqramı çərçivəsində gerçəkləşdirilən kompleks tədbirlər qanunçuluğun möhkəmləndirilməsində prokurorluğun rolunun artırılması, kadr korpusunun gənc mütəxəssislər cəlb olunmaqla şəffaf prosedurlar əsasında formalaşdırılması, ən müasir informasiya-kommunikasiya şəbəkəsinin yaradılması ilə yanaşı, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və onların sosial müdafiəsinin gücləndirilməsini təmin etmiş, dövlət başçısının vurğuladığı kimi, cəmiyyətimizdə prokurorluğa olan ictimai etimadı daha da artırmaqla onun nüfuzunu əhənuyyətli dərəcədə yüksəltmişdir.*

*Peşə bayramınızla bağlı Dövlət Gömrük Komitəsinin şəxsi heyəti adından bir daha səmimi təbriklərimi çatdıraraq Sizə möhkəm cansağlığı və uzun ömür diləyir, möhtərəm Prezidentimizin alternativsiz rəhbərliyi ilə müasir məzmunlu dövlət quruculuğu və sivil vətəndaş cəmiyyətinin formalaşdırılmasında özünəməxsus yeri olan Azərbaycan Prokurorluğuna yeni-yeni nailiyyətlər arzulayıram.*

**_Hörmətlə,_**

**_Aydın Əliyev,_**
**_Azərbaycan Respublikası_**
**_Dövlət Gömrük Komitəsinin sədri,_**
**_gömrük xidməti general-leytenantı_**

***Уважаемый Закир Бекир оглы!***

*Свидетельствую Вам глубокое уважение и от имени коллектива Генеральной прокуратуры Республики Узбекистан и себя лично горячо поздравляю Вас, весь прокурорский корпус и ветеранов прокуратуры Азербайджанской Республики с профессиональным праздником – Днем работника прокуратуры!*

*Искренне желаю Вам и всем сотрудникам прокуратуры крепкого здоровья, неиссякаемой энергии и дальнейших успехов в ответственной деятельности, а ветеранам – спокойного долголетия и благополучия!*

*Уверен, что органы прокуратуры Азербайджана и впредь будут неуклонно обеспечивать верховенство закона, надежно защищать конституционные права и свободы граждан, интересы общества и государства, вносить весомый вклад в противодействие современным вызовам и угрозам, укрепление стабильности в стране и её процветание.*

*Пользуясь случаем, выражаю надежду, что сложившиеся дружественные отношения и конструктивное сотрудничество между нашими ведомствами будут развиваться и укрепляться.*

***С глубоким уважением,***

***И.Абдуллаев,***
***Генеральный прокурор***
***Республики Узбекистан***

***

***Уважаемый Закир Бекирович!***

*От имени Главной прокуратуры Грузии и от себя лично поздравляю Вас и всех Ваших сотрудников с профессиональным праздником – Днем работников прокуратуры Азербайджана.*

*Желаю Вам, всем Вашим коллегам, сотрудникам и ветеранам органов прокуратуры крепкого здоровья, благополучия, успешной деятельности, достижения намеченных целей.*

*От имени Главной прокуратуры Грузии выражаю надежду на плодотворное сотрудничество и укрепление дружбы между прокуратурами наших государств, и пользуюсь случаем вновь выразить Генеральной прокуратуре Азербайджанской республики свое уважение.*

***С уважением,***

***Георгий Бадашвили,***
***Главный прокурор Грузии***

**_Уважаемый Закир Бекир оглы!_**

*От всей души поздравляю Вас и возглавляемый Вами коллектив с профессиональным праздником – Днем работников прокуратуры Азербайджанской Республики!*

*Ежедневная работа прокуратуры под Вашим руководством, основанная на высоком профессионализме, ответственности, честности, принципиальности и преданности своему делу, обеспечивает стабильность и надежную защиту интересов общества и государства.*

*Примите самые искренние пожелания благополучия, мира, успехов, неиссякаемой энергии и новых профессиональных достижений!*

*Пользуясь случаем, позвольте выразить уверенность в дальнейшем плодотворном сотрудничестве органов прокуратуры Украины и Азербайджанской Республики на благо наших народов и государств.*

**_С уважением_**

**_Виктор Шокин,_**
**_Генеральный прокурор Украины_**

***

**_Уважаемый Закир Бекир оглу!_**

*От коллектива Генеральной прокуратуры Республики Беларусь и себя лично поздравляю Вас и Ваших коллег с профессиональным праздником – Днем работников прокуратуры Азербайджана!*

*Выражаю уверенность, что взаимопонимание и конструктивное сотрудничество, сложившиеся между прокуратурами наших государств, будут развиваться и в дальнейшем.*

*Искренне желаю Вам, всем работникам органов прокуратуры Азербайджанской Республики крепкого здоровья, успехов в нелегком, но благородном деле борьбы с преступностью во имя благополучия и процветания Вашей страны и азербайджанского народа.*

**_С уважением,_**

**_А.В.Конюк,_**
**_Генеральной прокурор_**
**_Республики Беларусь_**

**Уважаемый Закир Бекир оглу!**

*Примите самые искренние поздравления с профессиональным праздником – Днём образования органов прокуратуры Азербайджанской Республики.*

*В этот знаменательный день желаю Вам и всем сотрудникам прокуратуры, её ветеранам – крепкого здоровья, благополучия, успехов в работе и достижения намеченных целей по укреплению законности и правопорядка.*

*Выражаю уверенность, что сотрудничество и отношения профессионального товарищества, существующие между нашими странами, будут и в дальнейшем укрепляться на благо процветания наших дружественных государств.*

***С уважением,***

***Ю.А.Рахмон,***
***Генеральный прокурор***
***Республики Таджикистан***

***

**Уважаемый Закир Бекир оглы!**

*От имени Генеральной прокуратуры Кыргызской Республики и от себя лично искренне поздравляю Вас и работников органов прокуратуры Азербайджанской Республики с профессиональным праздником – Днем работника прокуратуры!*

*В этот торжественный день для работников органов прокуратуры Азербайджанской Республики позвольте пожелать Вам и всему прокурорскому корпусу Азербайджанской Республики здоровья, счастья, благополучия и успехов в профессиональной деятельности.*

*Пользуясь, случаем, позвольте выразить уверенность в дальнейшем развитии и укреплении плодотворного сотрудничества между Генеральными прокуратурами наших дружественных государств на основе взаимного понимания общих целей и задач в укреплении верховенства законности и борьбы с преступностью.*

***С уважением,***

***И.Джолдубаева,***
***Генеральный прокурор***
***Кыргызской Республики***

***Уважаемый Закир Бекир оглу !***

*От имени Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств и от себя лично сердечно поздравляю Вас и весь коллектив Генеральной прокуратуры Азербайджанской Республики с профессиональным праздником – Днем работников прокуратуры.*

*Желаю Вам, всем работникам и ветеранам прокуратуры крепкого здоровья, благополучия и профессиональных успехов в деле обеспечения законности и правопорядка в Азербайджанской Республике.*

*Выражаю надежду на дальнейшее плодотворное сотрудничество и укрепление взаимодействия в рамках Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств.*

***С искренним уважением,***

***Л.В.Ермолаев,***
***Исполнительный секретарь***
***Координационного совета***
***генеральных прокуроров***
***государств-участников СНГ***

***

***Уважаемый Закир Бекирович!***

*Сердечно поздравляю Вас и в Вашем лице всех сотрудников Прокуратуры с профессиональным праздником – Днем работников прокуратуры Азербайджана.*

*Органы прокуратуры Азербайджанской Республики являются одним из гарантов законности и правопорядка в обществе. Профессионализм, высокая компетентность, преданность долгу сотрудников прокуратуры обеспечивают эффективную защиту законных прав и интересов граждан, успешную борьбу с правонарушениями и коррупцией.*

*Пользуясь случаем, выражаю признательность за Ваше внимание к всестороннему сотрудничеству между нашими странами.*

*Желаю Вам, уважаемый Закир Бекирович, и всем сотрудникам Прокуратуры успехов в вашей нелегкой, но столь необходимой службе на благо азербайджанского народа.*

*Крепкого здоровья, счастья и благополучия Вам, Вашим родным и близким!*

***С уважением,***

***Геннадий Ахрамович,***
***Посол Республики Беларусь***
***В Азербайджанской Республики***

# Cinayət prosesində hal şahidlərinin iştirakı məsələləri

Məlum olduğu kimi, hal şahidləri Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində cinayət prosesində iştirak edən digər şəxslər sırasına aid edilmişlər.

Cinayət-Prosessual Məcəllənin 94-cü maddəsi hal şahidlərinə həsr edilmişdir. Həmin maddəyə əsasən hal şahidləri cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı ilə aşkar olunan faktların, onların məzmununun, gedişinin və nəticələrinin təsdiq olunması üçün bu Məcəllənin 236, 244, 246-cı maddələrində nəzərdə tutulmuş hallarda istintaq hərəkətlərinin aparılmasında iştirak etmək üçün cəlb edilmiş şəxslərdir.

Yüksək texnologiyaların həyatın müxtəlif sahələrinə, o cümlədən cinayət prosesinə tətbiq olunduğu müasir elmi-texniki tərəqqi dövrü hal şahidlərinin cinayət prosesində iştirakının zəruriliyinə və əhəmiyyətinə, onların iştirakı olmadan da bəzi istintaq hərəkətlərinin keçirilməsinin mümkünlüyü məsələlərinə elmi nöqteyi-nəzərdən yenidən baxılmasını zəruri edir.

Bu baxımdan, cinayət prosesində hal şahidləri institutunun tarixinin, müxtəlif xarici ölkələrdə onların cinayət prosesində iştirakı təcrübəsinin öyrənilməsi vacib əhəmiyyət kəsb edir.

Hal şahidləri institutunun tarixinə nəzər saldıqda, bu institutun hələ 1649-cu ildə Rusiyada qəbul edilmiş və 1832-ci ilədək qüvvədə olmuş «Соборное Уложение» adlı qanunların külliyyatında nəzərdə tutulduğunun şahidi oluruq. Həmin sənədin 87-ci maddəsində hal şahidlərinin xoşxasiyyət, inanıla bilən, mehriban insanlardan təyin edilməsi barədə tələb irəli sürülməklə, bu hüquqi təsisatın məqsədinin vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə etmələrinin qarşısını almaq olduğu göstərilmişdir.

Müasir hüquq ədəbiyyatında hal şahidlərinin cinayət prosesində iştirakının zəruriliyinə dair müxtəlif fikirlər mövcuddur.

Bu institutun saxlanılmasının lehinə olan müəlliflər əsasən aşağıdakı tezisləri irəli sürürlər:

- hal şahidləri şəxsin hüquqlarının və ədalət mühakiməsinin maraqlarının təminatçısı qismində çıxış edir;
- hal şahidlərinin cinayət prosesinə cəlb olunmaları zamanın yoxlamasından keçmişdir;
- hal şahidlərinin iştirakı ilə keçirilmiş istintaq hərəkətləri nəticəsində əldə edilmiş sübutlar daha mötəbər hesab edilir;
- hal şahidi institutu ayrı-ayrı istintaq hərəkətləri zamanı cinayət təqibi orqanları tərəfindən sübutların saxtalaşdırılmasının qarşısını alır;
- hal şahidlərinin iştirakı ilə toplanmış sübutların sonradan tədqiqi mümkün olmaqla, onların müvafiq istintaq hərəkətləri ilə əlaqədar dindirilərək obyektiv həqiqətin üzə çıxarılması mümkündür.

Hazırda postsovet məkanında alimlərin əksəriyyəti istintaq hərəkətlərinin aparılması zamanı hal şahidi institutunun saxlanmasına tərəfdardırlar. Hal şahidlərinin cinayət prosesinə cəlb olunması ibtidai araşdırmanın obyektiv və hərtərəfli aparılmasını təmin etməklə, müstəntiqin icraat zamanı qanunsuz metod və üsullardan istifadəsinin qarşısının alınmasında mühüm təminatdır.

Professor V.Q.Ulyanovun fikrincə, hadisə yerinə baxış zamanı hal şahidlərinin iştirak etməmələri ibtidai araşdırma zamanı müdafiə və ittiham tərəfinin prosessual imkanlar balansının, bununla da, cinayət prosesində tərəflərin çəkişməsi prinsipinin pozulmasına səbəb olacaq.[1]

Professor F.Baqautdinov bildirir ki, istintaq orqanları hal şahidlərini işə cəlb edərkən təsadüfi adamlara arxalanmamalı və ya küçələrə qaçmamalıdır. Hal şahidləri iş üzrə həqiqətin müəyyən edilməsində maraqlı olan aktiv, sağlam insanlar olmalıdır. Ona görə də potensial hal şahidləri

[1] Ульянов В.Т. Обязательно ли участие понятых при производстве следственных действий? Право и политика-2012, №6, səh.1093-1097.

barəsində bank məlumatları yaradılmalıdır (gənclərdən, tələbələrdən ibarət). Bu baxımdan, hal şahidləri institutu tam yaşamaq hüququna malikdir.[2]

Bu fikir cəlbedici olsa da, qeyd olunan məlumat sisteminin yaradılması kifayət qədər vaxt, vəsait tələb etməklə, ali təhsil müəssisələrinin az olduğu və ya olmadığı bir sıra rayonlarda, habelə insanların gediş-gəlişinin az olduğu ərazilərdə belə məlumat sisteminin yaradılması və tətbiqi qeyri-real görünür.

Bəzi alimlər məsələnin kompromis variantı kimi hal şahidlərinin iştirakı və ya onların iştirakı olmadan aparılan istintaq hərəkətləri zamanı prosessual pozuntulara qarşı effektiv maddi-hüquqi sanksiyaların tətbiqini görürlər. Məsələn, sübutları saxtalaşdıran həm cinayət təqibi orqanlarının vəzifəli şəxslərinin, həm də cinayət prosesinə cəlb olunan hal şahidlərinin cinayət məsuliyyətinin sərtləşdirilməsi.

Lakin təcrübə göstərir ki, heç də bütün hallarda cəzanın sərtləşdirilməsi qarşıya qoyulan məqsədə çatmaq üçün kifayət etmir.

Hal şahidləri institutunun saxlanmasının əleyhdarları isə mövqelərini əsaslandırmaq üçün aşağıdakı fikirləri irəli sürürlər;

- hal şahidləri institutunun tətbiqi dövlətin, ictimaiyyətin və məhkəmələrin cinayət təqibi orqanlarına inamsızlığının təzahürüdür;
- cinayət təqibi orqanları tərəfindən bəzi hallarda şübhəli reputasiyaya malik şəxslər hal şahidi qismində dəvət edilir;
- hazırki dövrdə cinayət təqibi orqanlarının hərəkətlərini dəqiqliklə fiksə edə bilən elmi-texniki vasitələr sürətlə inkişaf edir və istintaq hərəkətlərinin texniki vasitələrlə fiksə edilməsi onların mötəbərliyini təmin edir;
- müstəsna hallarda, məsələn yüksək dağlıq, insanların yaşamadığı və ya az yaşadığı ərazilərdə hal şahidlərinin cinayət prosesinə cəlb edilmələri qeyri-mümkün olur;
- insanların əksəriyyəti ədalət mühakiməsinə yardımçı olmaqda maraqlı olmamaqla, cinayət prosesində hal şahidi kimi iştirak etməkdən imtina edirlər və onların hal şahidi qismində iştirakını stimullaşdıran hüquqi və digər vasitələr mövcud deyil;
- gələcəkdə məhkəmə baxışı zamanı ittiham tərəfinin şahidi ola biləcək hal şahidlərinin təhlükəsizliyi təmin edilmir.

Qeyd edilməlidir ki, hal şahidi institutunun saxlanılmasının əleyhinə olan alimlərin fikirlərini təsdiq edən xarici dövlətlərin müvafiq qanunvericilik təcrübəsi də mövcuddur.

Belə ki, bir sıra ölkələrin cinayət prosessual qanunvericiliyində hal şahidi institutu öz əksini tapmamışdır. Həmin ölkələrdə polis əməkdaşlarının ifadələri əsas götürülür, ona görə də kənar şəxslərin, yəni hal şahidlərinin iştirakına ehtiyac duyulmur.

İstər anqlo-sakson, (Böyük Britaniya, ABŞ, Kanada), istərsə də roman-german (kontinental) hüquq sisteminə malik (Fransa, Almaniya) inkişaf etmiş bir sıra dövlətlərdə hal şahidləri institutundan imtina olunmuşdur. Əsasən bu kimi ölkələrin cinayət mühakimə icraatında hal şahidləri institutundan imtina edilməsi cəmiyyətin hüquq mühafizə orqanlarına olan yüksək etimadından irəli gəlir.

Almaniya mütəxəssisləri isə hesab edirlər ki, hər hansı kənar şəxsin hadisə yerinə buraxılması iş üzrə mühüm əhəmiyyət kəsb edən izlərin, maddi sübutların itməsinə və ya məhv edilməsinə səbəb ola bilər. Məhz müasir ibtidai araşdırma şərtləri diktə edir ki, hər bir cinayətin izi qorunmalıdır və mütəxəssislər gəlincə kənar şəxslərin hadisə yerinə buraxılması qadağandır.

İsrail dövlətində isə cinayət prosesində hal şahidlərinin iştirakı formal xarakter daşıyır. Belə ki, həmin dövlətin qanunvericiliyinə görə polis üç halda hal şahidlərinin iştirakı olmadan müəyyən istintaq hərəkətlərini yerinə yetirə bilər; mənzildə yaşayanın və ya onun ailə üzvlərinin xahişi olduqda, məhkəmənin qərarı olduqda və müstəsna hallarda.

Çin Xalq Respublikasının cinayət-prosessual qanunvericiliyində də cinayət prosesində hal şahidlərinin iştirakı nəzərdə tutulmamışdır. Belə ki, Çin ekspertləri bunu onunla izah edirlər ki, kənar şəxslərin cinayət prosesinə buraxılması yolverilməzdir.

Postsovet məkanından qonşu Gürcüstan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (09.10.2009-cu il tarixdə qüvvəyə minmişdir)

---

[2] Багаутдинов, Ф. Институт понятых: совершенствовать, а не упразднять / Ф. Багаутдинов // Законность. - 2012. - №№ 4. – səh. 50-53.

331-ci maddəsində axtarış və götürmə kimi istintaq hərəkətlərində ən azı iki hal şahidinin iştirakı nəzərdə tutulmuşdur. Lakin 01.10.2012-ci il tarixdə həmin maddə qüvvədən düşmüşdür. Hazırda məcburi istintaq hərəkətləri aparılarkən video çəkilişdən istifadə olunur.

Rusiya Federasiyasının cinayət prosessual qanunvericiliyində hal şahidi institutu mövcud olsa da, istintaq hərəkətlərində onların iştirakı məcburi olmayan hallar da nəzərdə tutulmuşdur.

Belə ki, Rusiya Federasiyası CPM-nin 170-ci maddəsində hal şahidlərinin cinayət prosesində iştirakı halları göstərilmişdir. Axtarış, götürmə, şəxsi axtarış və tanınmaya təqdim etmə zamanı hal şahidlərinin iştirakı məcburidir. Əmlak üzərinə həbs qoyulması, eksqumasiya, istintaq eksperimenti, danışıqlara qulaq asma və ifadələrin yerində yoxlanılması zamanı hal şahidlərinin iştirakı isə müstəntiqin mülahizəsindən asılıdır və bu halda texniki vasitələrdən istifadə oluna bilər. Texniki vasitələrdən istifadə olunması mümkün olmadıqda, bu barədə istintaq hərəkəti protokolunda müstəntiq tərəfindən qeyd aparılır. Həmin maddəyə əsasən, rabitə vasitələrinin olmadığı və insanların gediş-gəlişi çətin olan yerlərdə, habelə istintaq hərəkətinin yerinə yetirilməsi ilə əlaqədar insan həyatı üçün təhlükə yarandıqda, istintaq hərəkətləri hal şahidlərinin iştirakı olmadan həyata keçirilə bilər. Bu halda texniki vasitələrdən istifadə olunur.

Belarus Respublikasının Cinayət-Prosessual Məcəlləsində hal şahidlərinin bəzi məcburi aparılan istintaq hərəkətlərin aparılmasında iştirakı nəzərdə tutulmuşdur. Həmin Məcəllənin 64-cü maddəsində göstərilir ki, hal şahidlərinin əvvəlki işlərdə iştirakı onlara etiraz edilməsi üçün əsas deyildir. Lakin hal şahidlərinin işlərdə sistematik iştirakı onlara etiraz edilməsi üçün əsasdır.

Ukraynanın Cinayət-Prosessual Məcəlləsində (127-ci maddə) axtarış, götürmə, tanınmaya təqdim etmə, əmlakın siyahıya alınması, hadisə yerinin bərpa olunması kimi məcburi istintaq hərəkətlərində iki hal şahidinin iştirakı nəzərdə tutulmuşdur. Şəxsi müayinə zamanı hal şahidlərinin iştirakı isə müstəntiqin hüququ kimi təsbit olunmuşdur. Bu istintaq hərəkəti aparılarkən müstəntiq mülahizəsinə görə hal şahidlərinin iştirakını təmin edir.

İstintaq təcrübəsi göstərir ki, dağlıq və digər gediş-gəlişi çətin olan yerlərdə istintaq hərəkətləri aparılarkən hal şahidlərinin cinayət prosesinə cəlb olunmasında çətinliklər yaranır. Yaxud təxirəsalınmaz hallarda məcburi istintaq hərəkəti aparılarkən hal şahidlərinin axtarılıb tapılması və istintaq hərəkətlərinin aparılmasına cəlb edilməsi xeyli vaxt almaqla, istintaq hərəkətlərinin gecikməsinə, nəticədə isə vacib əhəmiyyət kəsb edən maddi sübutların itməsinə, korlanmasına və ya onların sübut əhəmiyyətinin azalmasına səbəb olur.

Həmçinin, vətəndaşların cinayət prosesində hal şahidi qismində iştirakdan imtina etmələri də istintaq təcrübəsində mühüm çətinliklərdən biri olmaqla, cinayət prosesində düzgün seçilməmiş hal şahidinin iştirakı istintaq hərəkətlərinin nəticələrinin etibarsız hesab edilməsinə əsas ola bilər.

Belə ki, hazırda reallıq ondan ibarətdir ki, müstəntiq hər hansı istintaq hərəkəti apararkən hal şahidinə ehtiyac olduqda o, bu barədə təhqiqat orqanına tapşırıq verir və sonuncular isə ya tanıdıqları, ya da təsadüfən yoldan keçən şəxsləri hal şahidi kimi dəvət edirlər.

Nəticədə isə istintaq və təhqiqat orqanlarının tanıdığı və ya təsadüfən yoldan keçən, bəzən iştirak etdiyi istintaq hərəkətlərinin mahiyyətini, öz hüquq və vəzifələrini dərk etməyən təsadüfi şəxslər cinayət prosesinin iştirakçılarına çevrilir və bütün bunlar istintaq hərəkətlərinin nəticələrini şübhə altına alır.

Odur ki, xarici ölkələrin müsbət təcrübəsindən istifadə edilərək, yüksək texnologiyaların istintaq prosesinə tətbiqinin mümkünlüyü nəzərə alınmaqla, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə də hal şahidlərinin istintaq hərəkətlərinin həyata keçirilməsində iştirakının məcburi olmadığı halların, xüsusən insanların gediş-gəlişi çətin olan dağlıq yerlərdə, habelə istintaq hərəkətinin keçirilməsinin insan həyatı və sağlamlığına təhlükə yaratdığı hallarda istintaq hərəkətlərinin icrası zamanı hal şahidlərinin iştirakının məcburi olmaması, bu halda məcburi videoçəkilişdən istifadə olunması barədə müddəaların daxil edilməsi cinayət təqibinin sadələşdirilməsinə, cinayət mühakimə icraatının tezliyinə və ədalət mühakiməsinin mənafelərinə xidmət etmiş olardı.

**Sərdar İmanov**
**Sumqayıt şəhər prokuroru**
**baş ədliyyə müşaviri**

# Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin bəzi vəzifəli şəxsləri barəsində cinayət işi başlanılmışdır

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, onun struktur qurumlarının və tabeçilikdə olan müəssisə və əlaqəli şirkətlərin ayrı-ayrı rəhbər vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə, mənimsəmə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq-əməliyyat qrupu yaradılmaqla istintaq aparılır.

Əsaslı şübhə vardır ki, dövlət əmlakının sistemli şəkildə mənimsəmə və israf etmə yolu ilə talanması məqsədi ilə rollar bölüşdürülməklə qeyd olunan qurum və şirkətlərin ayrı-ayrı vəzifəli şəxslərindən ibarət korrupsiya şəbəkəsi təşkil olunaraq büdcə vəsaitlərinin talanması istiqamətində çoxsaylı korrupsiya sxemləri həyata keçirilmişdir. Korrupsiya şəbəkəsinə daxil olan vəzifəli şəxslər tərəfindən dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşmiş layihələrin yaxın qohumlarının adına rəsmiləşdirilməklə faktiki özlərinə məxsus şirkətlər tərəfindən həyata keçirilməsinin rəsmiləşdirilməsi barədə saxta sənədlərin tərtib olunması, görülən xidmətlərin dəyərinin dəfələrlə şişirdilməsi, faktiki yerinə yetirilməmiş xidmətlərə görə ödənişlərin həyata keçirilməsi  və sair yollarla külli miqdarda dövlət əmlakını mənimsəmə və israf etmə faktları aşkar edilmişdir.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin baş direktoru B.H. 2009-2015-ci illərdə arvadının təsisçisi olduğu "Bakı Rabitə Təmir Tikinti" və "Təmir Təchizat Servis" MMC-lərinin direktoru B.V., yaxın münasibətlərdə olduğu "3 nömrəli Rabitə Təmir Tikinti", "Rabitə Mülki Tikinti" MMC-lərinin direktoru E.M. və birliyin baş mühasibi A.M. ilə qabaqcadan əlbir olub yeni rabitə xətlərinin çəkilməsi, binaların, qurğuların təmiri-tikintisi və sair işlərin yerinə yetirilməsi üçün onların hesablaşma hesablarına köçürüləcək pul vəsaitlərinin işlərin həcmindən asılı olaraq 35-45% həcmində hissəsinin nağdlaşdırılaraq B.H.-un özünə verilməsinə dair razılığa gəlmələri barədə ifadələr verilmişdir. Bundan sonra B.H. tabeliyində olan qovşaqların formal olaraq keçirdikləri tenderlərdə vəzifə saxtakarlığı ilə həmin məhdud məsuliyyətli cəmiyyətlərin qalib elan olunaraq müqavilələr bağlanmaqla və faktiki işlərin tam icra olunmadığı halda, o cümlədən internet xidmətinin təmin edilməsi üçün fiber-optik kabel xətlərinin çəkilişi zamanı işlərin faktiki olaraq telefon qovşaqları tərəfindən aparıldığı halda guya həmin işlərin faktiki özünə məxsus olan müəssisələr tərəfindən görülməsi və işlərin həcminin artırılması barədə saxta sənədlərin tərtib edilməsi yolu ilə adıçəkilən MMC-lərin hesabına köçürülmüş ümumilikdə 71 milyon 263 min manat məbləğində vəsaitin 21 milyon 379 min manatını mənimsəməklə dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmalarında şübhələr üçün əsaslar müəyyən edilmişdir.

Bununla yanaşı, nazirliyin Aparat rəhbəri V.Z. qulluq mövqeyindən sui-istifadə edərək nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə qabaqcadan razılaşmaqla həmin strukturlar tərəfindən işlərin görülmədiyi, tam yerinə yetirilmədiyi, avadanlıqlar alınmadığı, istifadə olunan avadanlıqların, xidmətlərin qiymətlərinin mövcud olduğundan 4-5 dəfə artıq göstərilməsi və digər üsullarla işlərin və xidmətlərin guya yerinə yetirilməsini özlərinin himayə etdikləri, yaxın münasibətdə olduqları şəxslərin adına olan özəl şirkətlər tərəfindən saxta sənədlər əsasında rəsmiləşdirməsini təmin etməklə mü-

vafiq müəssisələrin ayrı-ayrı banklardakı hesabına köçürülmüş 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmaqla mənimsənilməsini və israf edilməsini təşkil etməsində şübhələr üçün əsaslar müəyyən edilmişdir.

Cinayət işi üzrə nazirliyin strukturuna daxil olan "Aztelekom" MMC, "AzİnTelekom" MMC, "Azərpoçt" MMC, Məlumat Hesablama Mərkəzi və özəl şirkət "Optik Rabitə Tikinti və Quraşdırma" MMC-nin fəaliyyətində də mənimsəmə və israf etmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı faktlarının da mövcud olmasına şübhələr vardır.

İş üzrə B.H., A.M., E.M., B.V. və "Aztelekom" MMC-nin baş mühasibi O.R. Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı), V.Z., həmçinin "AzİnTelekom" MMC-nin baş direktoru C.C., "Azərpoçt" MMC-nin baş direktoru Q.B. və "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin direktoru N.M. həmin məcəllənin 179.3.2 və 308.2-ci, MMC-nin baş mühasibi S.H. isə 179.3.2, 308.2 və 313-cü maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə barələrində məhkəmənin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilmişdir.

Vergilər və Maliyyə nazirliklərinin mütəxəssisləri tərəfindən qeyd olunan dövlət və özəl müəssisə və şirkətlərin maliyyə-təsərrüfat fəaliyyətləri təftiş edilir.

Cinayət işi üzrə korrupsiya şəbəkəsinə daxil olan şəxslərin tam dairəsinin və vurulmuş ziyanın müəyyən edilməsi, habelə vurulmuş ziyanın ödənilməsi və talanmış əmlakın aşkar edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Milli Təhlükəsizlik Nazirliyinin bəzi vəzifəli şəxsləri barəsində cinayət işi başlanılmışdır

Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq-əməliyyat qrupu yaradılmışdır.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə nazirliyin bir qrup əməkdaşı tərəfindən xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin tələblərini pozmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr edilməsi, ayrı-ayrı şəxslərin hüquq və qanunla qorunan mənafelərinin pozulmasına əsaslı şübhələr yaranmışdır.

Cinayət işi üzrə Milli Təhlükəsizlik Nazirliyinin 7 vəzifəli şəxsi Cinayət Məcəlləsinin 308.2, 309.1 və 302.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə məhkəmənin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

Sahibkarlar və ayrı-ayrı vətəndaşlardan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və prokurorluq orqanlarına daxil olan çoxsaylı müraciətlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində həyata keçirilən araşdırma nəticəsində Milli Təhlükəsizlik Nazirliyinin bir sıra baş idarə, idarə, şöbələrinin rəhbərləri və digər əməkdaşları tərəfindən xidməti vəzifələrinin icrası ilə

əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma, gizli qaydada telefon danışıqlarına qulaq asmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr, elektron məlumat daşıyıcılarından, informasiya texnologiyalarından istifadə etməklə özgənin əmlakının gizli talanması, Bakı şəhəri və respublikanın müxtəlif bölgələrində iş adamlarının izlənilərək, nazirliyin inzibati binalarına gətirilib qanunsuz azadlıqdan məhrum edilməsi, rüşvət alınması, hədə-qorxu yolu ilə onlara məxsus külli miqdarda nağd pul, daşınar və daşınmaz əmlakın tələb edilib ələ keçirilməsinə dair şübhələr üçün əsaslar toplanmışdır.

Nazirliyin Baş İdarəsinin sabiq rəisi A.Ç. tabeçiliyində olan idarə və şöbə rəisləri A.Ə., S.M. və O.O. ilə cinayət əlaqəsinə girib qrup halında qanunsuz əməliyyatlar keçirib sahibkarlar İ.Q., N.O., T.İ., C.S., Ş.Q., F.Z., A.K., E.H., Q.Ə. və başqalarının nazirliyə gətirilərək qanunsuz azadlıqdan məhrum etmələri, zor tətbiq etmələri, həbs olunacaqları ilə hədələyərək külli miqdarda nağd pullarını, qızıl-zinət əşyalarını, digər əmlak və torpaq sahələrini hədə-qorxu yolu ilə almalarına dair əsaslı şübhələr müəyyən edilmişdir.

Nazirliyin digər Baş İdarəsinin sabiq rəisi S.Q. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin vəzifəli şəxslərindən ümumi himayədarlığın həyata keçirilməsi adı ilə son 3-4 il ərzində hər ay sabit olaraq külli miqdarda rüşvət almasına dəlalət edən sübutlar toplanmışdır. S.Q. və tabeçiliyində olan idarə və şöbə rəisləri F.Ə., N.A. və Z.M. ibarət mütəşəkkil cinayətkar dəstənin 2015-ci ilin mart ayında sahibkar Z.S.-un iş yerində qanunsuz axtarış keçirməsi, onun A.Z. və M.Q. zorla nazirliyə aparıb qanunsuz azadlıqdan mərhum edərək hədə-qorxu gəlməklə külli miqdarda pul vəsaitlərinin ələ keçirilməsinə dair əsaslı şübhələr vardır.

Nazirliyin həmin vəzifəli şəxslərindən ibarət mütəşəkkil dəstənin 2014-cü ilin dekabr ayında sahibkar K.S. olduğu avtomaşını güdərək onu nazirliyin inzibati binasına aparıb qanunsuz azadlıqdan məhrum etməsinə, qanunsuz əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş rüsvayedici məlumatların yayılacağı və narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər cinayətlərə görə həbs olunacağı hədəsi ilə külli miqdarda pul aldıqdan sonra azad etməsinə dair əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan əlavə, həmin mütəşəkkil dəstənin ayrı-ayrı sahibkarlar G.Ə., A.K., Ə.İ., S.M., Ə.M. və digərlərini eyni üsullarla hədələyib hüquqlarını pozmalarına dair əlavə faktlar üzrə araşdırmalar aparılır.

Nazirliyin Baş İdarəsinin sabiq rəis müavini İ.Ə. və şöbə rəisinin müavini A.M sahibkar M.M. barəsində keçirdikləri qanunsuz əməliyyat-axtarış tədbirləri nəticəsində əldə etdikləri şəxsi məlumatların yayılacağı, onun şəxsiyyəti üzərində zor tətbiq ediləcəyi və cinayət işi başlanaraq həbs olunacağı hədəsi ilə külli miqdarda pulunu ələ keçirmələrinə dair şübhələr üçün əsaslar müəyyən edilmişdir. Şübhəli şəxslərin hədə-qorxu və təzyiqləri nəticəsində hüquqları pozulmuş digər sahibkarların müraciətləri də araşdırılır.

Nazirliyin digər Baş İdarələrinin sabiq rəisləri T.Q və N.M., həmin qurumların digər vəzifəli şəxsləri E.Ə., A.Ş., F.A. və E.Ə. səlahiyyət hüdudlarından açıq-aşkar surətdə kənara çıxıb qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrlə ayrı-ayrı sahibkarların telefon danışıqlarının dinlənilməsi və digər əməliyyat-axtarış tədbirlərini qanunsuz həyata keçirərək fiziki və hüquqi şəxslərin hüquq və mənafelərinə, həmçinin dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmalarına dair şübhələr üçün əsaslar müəyyən edilmişdir.

Nazirliyin sabiq şöbə rəisi V.Ə. sahibkar N.K-u təqsirləndirilən şəxs qismində cəlb edərək həbs etməsi, azad olunması üçün külli miqdarda rüşvət alaraq onu ev dustaqlığına buraxması və barəsində olan cinayət təqibinə xitam verməsinə dair əsaslı şübhələr müəyyən edilmişdir. Bundan başqa V.Ə-un həmin üsullarla sahibkarlar H.S., M.S., İ.Ş., N.R. və digərlərini

hüquqlarını pozmasına dair faktlar üzrə istintaq aparılır.

Nazirliyin digər əməkdaşı M.A sahibkarlar Ş.Q. və B.H-u əsassız olaraq nazirliyin inzibati binasına gətirməsi, onları qanunsuz şəkildə burada saxlaması və azad edilmələri müqabilində hədə-qorxu gəlməklə külli miqdarda pulu tələb edib alması ilə əlaqədar ittiham elan olunmuşdur.

İstintaq zamanı həmçinin müəyyən edilmişdir ki, nazirliyin Baş İdarəsinin sabiq şöbə rəisi M.Ə. sahibkar V.Ə.-in bank hesabına külli miqdarda pulun köçürüldüyünü qanunsuz əməliyyat-axtarış tədbirləri nəticəsində bilmiş, sahibkar həmin pulu aldıqdan sonra onu qanunuz saxlayaraq telefon danışıqlarına qulaq asıldığını bildirmişdir. M.Ə-un iş adamını həbs olunacağı ilə hədələyərək pulun əksər hissəsini ələ keçirdikdən sonra buraxması və gələcəkdə hesabına göndəriləcək pul vəsaitlərinin alınmasına maneə törətməmək üçün əlavə olaraq külli miqdarda pul almasına dair kifayət qədər əsaslı şübhələr mövcuddur.

Qeyd olunan faktlar üzrə 21 şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, 19 şəxs barəsində həbs qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilmiş, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs qətimkan tədbiri seçilməklə axtarış elan edilmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının törətməkdə şübhələnən cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınmışdır. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilmişdir.

Hazırda ayrı-ayrı vətəndaşlardan yeni müraciətlər daxil olmaqdadır. Müraciətlərdə göstərilən bütün xüsusatların tam, hərtərəfli və obyektiv araşdırılması təmin edilərək, zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası istiqamətində zəruri tədbirlər görülür.

Cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi**

# Bakı şəhərinin Nardaran qəsəbəsində silahlı cinayətkar dəstə zərərsizləşdirilmişdir

Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terror aktları, bütövlükdə konstitusiya quruluşunu dəyişdirməklə şəriət qanunları ilə idarə olunan dini dövlətin yaradılmasını planlaşdıran silahlı cinayətkar dəstənin zərərsizləşdirilməsi üzrə noyabrın 26-da Daxili İşlər Nazirliyi tərəfindən Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilmişdir.

Əməliyyat zamanı polis əməkdaşlarına silahlı müqavimət göstərmiş cinayətkar dəstənin 4 üzvü məhv edilmiş, daha bir neçə nəfəri yaralanmışdır. Xidməti vəzifələrini sonadək mərdliklə yerinə yetirən polis serjantları Vüqar Nəsibov və İsmayıl Tağıyev qəhrəmancasına həlak olmuşlar.

Hadisə yerindən maddi sübut kimi 4 avtomat, 4 tapança, 12 qumbara, biri kənardan idarə edilən olmaqla 3 ədəd partlayıcı qurğu, 10 ədəd "Molotov Kokteyli", 7 ədəd bıçaq və xəncər, 3 ədəd beşbarmaq və s. götürülmüşdür. Fakt üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 120-ci, 214-cü, 220-ci, 228-ci, 233-cü, 278-ci, 279-cu, 281-ci, 283-cü, 315-ci və digər maddələri ilə cinayət işi başlanılmışdır. Cinayətkar dəstənin rəhbəri ilə yanaşı 24 üzvü barədə məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilmişdir.

Xüsusi əməliyyat başa çatdıqdan sonra ayrı-ayrı destruktiv elementlər Nardaran qəsəbəsində icazəsiz toplantı keçirməyə, sakinləri konstitusion

quruluşa qarşı çıxmağa, hakimiyyət nümayəndələrinə zor tətbiq olunmasına, kütləvi itaətsizliyə çağırışlar etmiş, yolları bağlamış, barrikadalar qurmuş, silah qismində əşyalar toplamış, lakin həyata keçirilən tədbirlərlə bu kimi qanunazidd hərəkətlərin qarşısı alınmışdır.

Daxili işlər və prokurorluq orqanları tərəfindən dəqiqləşdirilmiş məlumatlar əsasında qanunsuz olaraq odlu silah, partlayıcı maddələr və qurğular saxlayan şəxslər müəyyən edilərək həmin əşyaların könüllü təhvil verilməsi tələb olunmuş, ancaq qəsəbənin bir qrup nümayəndəsinin silah saxlayan şəxslərə müvafiq müraciəti müsbət nəticə verməmişdir.

Noyabrın 30-da Gəncə şəhərində "Müsəlman birliyi" hərəkatına dəstək verən 6 nəfər saxlanılmış, yaşadıqları ünvanlara baxış zamanı oradan 1 avtomat, 1 tüfəng, 12 qumbara, çoxlu sayda döyüş sursatı, dini ədəbiyyat və s. aşkar edilib götürülmüşdür.

Qəsəbənin bir sıra sakinləri hüquqi, dünyəvi, demokratik dövlət quruluşuna və idarəçiliyinə qarşı çıxmış, özlərini dövlət orqanlarına münasibətdə tərəf saymağa, hakimiyyət nümayəndələri ilə danışıqlar aparmaq kimi bölücülük xarakterli şərtlər və digər qanunsuz tələblər irəli sürməyə cəhdlər göstərmişlər.

Dini radikalizmi, ekstremizmi özlərinin əqidəsinə və həyat tərzinə çevirmiş həmin şəxslər qəsəbədə ölkənin qanunlarını, dövlət atributlarını inkar edmiş, Azərbaycan dilinin tətbiqi ilə bağlı qanunvericiliyin tələblərini qəsdən pozmuş, azyaşlı və yeniyetmələr arasında cəhaləti və zorakılığı təbliğ etmişlər.

Nardaran qəsəbəsində gərginliyin saxlanılmasına edilən cəhdlər onun sakinlərinin bir qismində, həmçinin ölkənin bütün vətəndaşlarında narazılıq, narahatlıq doğurmuş və onlar dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə yönələn hüquqazidd əməllərin qarşısının alınmasını, qanunçuluğun, sabitliyin və ictimai qaydanın bərpa edilməsini, dövlət və bələdiyyə orqanlarının normal işinin təmin olunmasını, silahlı cinayətkar qruplaşmalara qarşı qətiyyətli tədbirlərin görülməsini tələb etmişlər.

Vətəndaşların hüquqlarının, azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, əllərdə qanunsuz saxlanılan odlu silahların, partlayıcı maddə və qurğuların yığılması məqsədilə dekabrın 1-də saat 8.00-da qəsəbədə xüsusi əməliyyat keçirilməsinə başlanılmışdır. Müvafiq plana uyğun olaraq Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və nizami polis hissələrinin məhdud sayda xüsusi texnikası, şəxsi heyəti qəsəbəyə daxil olmuş, müəyyən edilmiş yerlərdə postlar qoyulmuş və xüsusi əməliyyat zonasında Baş Prokurorluğun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin istintaq-əməliyyat qrupu fəaliyyət göstərmişdir.

Nardaran qəsəbəsinin sakinlərindən, onların əmin-amanlığının təmin olunması naminə keçirilən xüsusi əməliyyat zamanı hüquq qaydasına ciddi riayət etmələri, ictimai asayiş, hakimiyyət nümayəndələrinin həyat və sağlamlığı üçün təhlükə törədən və şərait yaradan hərəkətlərə yol verməmələri, göstərişlərinə əməl etmələri tələb olunmuşdur.

Cinayətin bütün iştirakçılarının, o cümlədən bu silahlı cinayətkar dəstəyə köməklik edən şəxslərin müəyyən edilib tutulması və məsuliyyətə cəlb edilməsi üçün əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri həyata keçirilir.

Xüsusi əməliyyat Azərbaycan Respublikası Prezidentinin nəzarətindədir və gedişi mütəmadi məruzə olunur.

Ölkənin hüquq mühafizə və xüsusi xidmət orqanları tərəfindən bu kimi hadisələrin qarşısının vaxtında alınması, formalaşan istənilən mütəşəkkil cinayətkar dəstənin və ya cinayətkar birliyin dərhal zərərsizləşdirilməsi istiqamətində tədbirlər bundan sonra da qətiyyətlə davam etdiriləcəkdir.

**Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi**

# Dövlət Neft Şirkətinin "Günəşli" yatağındakı yanğın ilə əlaqədar cinayət işi başlanılmışdır

Respublikada hava şəraitinin kəskin dəyişməsi dənizdə neft-qaz əməliyyatlarının həyata keçirilməsində ciddi çətinliklər yaratmışdır. Dekabrın 4-də şimal küləyinin sürəti saniyədə 38-40 metr, dalğanın hündürlüyü açıq dənizdə 8 metr və daha çox olmuşdur. Axşam saatlarında eyni istiqamətdə ara verməyən külək daha da güclənmiş, dalğaların hündürlüyü 9-10 metrə çatmışdır. Saat 17:40 radələrində nəhəng dalğalar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə 110 atmosfer təzyiqlə işləyən sualtı qaz xəttinin dayaq borusunu qırmış, nəticədə boru kəmərini zədələmiş və şiddətli yanğın baş vermişdir. Yarana biləcək fəsadların qarşısını almaq məqsədi ilə 10 saylı dərin dəniz özülünə gələn bütün neft-qaz kommunikasiya sistemləri bağlanılmış, özüldə istismarda olan 28 ədəd neft və qaz quyusunun istismarı dayandırılmışdır. Lakin texnoloji sistemlərdə və boruda olan qalıq qazın hesabına yanğın davam etmişdir.

Təlimata və təxliyyə planına uyğun olaraq, yanğın və baş verə biləcək partlayışdan xilas olmaq məqsədi ilə işçilər özüldəki iki xilasedici qayığa minmiş və qayıqları aşağı buraxmışlar. Qayıqlar dəniz səviyyəsindən təqribən 10 metr məsafəyə qədər endirilərək saxlanılmışdır. Qəza baş verəndən 15-25 dəqiqə sonra Fövqəladə Hallar Nazirliyinin "Günəşli" yatağında növbədə olan "Vixr-9" yanğınsöndürən gəmisi, daha sonra isə kiçik zaman intervalı ilə "Vixr-5" yanğınsöndürən, "Avior" dalğıc, "Samir Quliyev" yedək gəmiləri özülə yaxınlaşaraq dərhal əməliyyata başlamışdır. Eyni zamanda, "Azəri-Çıraq-Günəşli" yataqlarında növbədə olan müasir naviqasiya sistemi ilə təchiz edilmiş "Topaz-Diqnizi", "Endeavour", "Protektor", "Lənkəran" gəmiləri də yanğınsöndürmə və xilasetmə işlərinə cəlb olunmuşlar.

Lakin qasırğanın güclənməsi, dalğanın faktiki hündürlüyünün 9-10 metrə qədər çatması səbəbindən gəmilərin heç biri özülə yan ala bilməmişdir. Bu isə xilasedici qayıqların suya endirilməsini və gəmilər tərəfindən yedəyə götürülməsini mümkünsüz etmişdir. Eləcə də alovun söndürülməsi üçün suyun fasiləsiz vurulması işlərini çətinləşdirmişdir. Təqribən 22:45-də güclü küləyin təsiri və hündür dalğaların zərbəsi nəticəsində xilasedici qayıqlardan birinin qarmağı açılmış və qayıq, içindəki adamlarla birlikdə dənizə düşmüşdür. Yaxındakı gəmilər vasitəsi ilə işçilərdən 3 nəfər və 1 cəsədin dənizdən çıxarılması mümkün olmuşdur. Qaranlıq və qasırğalı hava şəraitində ikinci xilasetmə qayığındakı işçilərin təxliyyə edilməsi böyük risk və təhlükə yaratdığı üçün təxliyyə işlərinin hava işıqlandıqdan sonra davam etdirilməsi qərara alınmışdır. Dekabrın 5-də ağır hava şəraitinin hələ də davam etməsinə baxmayaraq, ikinci xilasetmə qayığındakı işçilərin təxliyyə edilməsi əməliyyatı həyata keçirilmişdir. Belə ki, saat 08:02-də Fövqəladə Hallar Nazirliyinə məxsus, göyərtəsində 15 xilasedici olan 2 ədəd helikopter hadisə yerinə cəlb olunmuşdur. Lakin yüksək temperaturdan helikopterlər özüldə eniş edə bilməmiş, 3 və 5 saylı qonşu özüllərə enmişdir. Bir qədər sonra FHN-in həmin xilasedicilərinin bir qrupu "Azal" QSC-yə məxsus helikopterlə, digər qrupu isə "Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Müslüm Maqomayev" gəmisi ilə özülə çıxmış, qayıqdan 26 nəfər, özüldən 3 nəfəri təxliyyə edərək həmin gəmiyə götürmüşlər. Beləliklə, cəmi 32 nəfər təxliyyə edilmiş, 1 nəfərin isə cəsədi sudan çıxarılmışdır. Birinci xilasedici qayıqdan dənizə düşmüş insanların axtarışı akvatoriyada olan SOCAR və "BP" şirkətlərinin, FHN və Dövlət Sərhəd Xidmətinin gəmiləri və FHN helikopterləri vasitəsilə davam etdirilmişdir. Müşahidə zamanı özüldən, təqribən, 50 km cənubda içərisi boş

qayıq müəyyən edilmiş, bununla bağlı Dövlət Dəniz Administrasiyası vasitəsilə yaxınlıqdakı gəmilər məlumatlandırılmışdır. SOCAR-ın prezidenti və Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi özüldə əməliyyata bilavasitə rəhbərlik etmişlər.

Faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 225.2-ci (Yanğın təhlükəsizliyi qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanmış, Baş Prokurorluq, Fövqəladə Hallar, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmışdır.

Cinayət işi üzrə zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri həyata keçirilməklə hadisənin baş vermə səbəbləri, vurulmuş ziyanın müəyyənləşdirilməsi məqsədi ilə iş üzrə müvafiq ekspertizalar təyin edilmiş, eyni zamanda zəruri prosessual hərəkətlər yerinə yetirilmişdir.

Baş vermiş qəza ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dövlət Komissiyası yaradılmışdır. Komissiyanın rəhbəri Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə təyin olunmuşdur.

İstintaqın gedişi barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat verilir.

İstintaq davam etdirilir.

**Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi**

# Azərbaycan Prokurorluğu Vartan Sirmakesin cinayət məsuliyyətinə cəlb edilməsi üçün İsveçrə Konfederasiyası Baş Prokurorluğuna müraciət etmişdir

Azərbaycan Respublikasının Xarici İşlər, İqtisadiyyat və Sənaye nazirliklərindən daxil olmuş İsveçrə Konfederasiyasının vətəndaşı "Franck Muller Group" şirkətinin həmtəsisçisi və baş icraçı direktoru Vartan Sirmakesin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının işğal etdiyi ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyəti ilə bağlı materiallarda göstərilən xüsusatlar Baş Prokurorluqda araşdırılmışdır.

Araşdırmalar zamanı V.Sirmakesin Ermənistanın ölkəmizin işğal etdiyi ərazilərində yaratdığı qanunsuz rejimi beynəlxalq səviyyədə tanıtdırmaq və təbliğ etmək məqsədilə qabaqcadan əlbir olan bir qrup şəxslə bu ərazilərdə qanunsuz iqtisadi fəaliyyətlə məşğul olması, Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının razılığı olmadan icazəsiz Zəngilan rayonunun Vejnəli kəndində yerləşən qızıl mədəninin açılış mərasimində iştirak etməklə dövlət sərhədini qanunsuz keçməsi, eyni zamanda Azərbaycanın ərazi bütövlüyü və suverenliyini şübhə altına alan qərəzli hərəkətlər etməsində şübhələr üçün kifayət qədər əsaslar müəyyən edilmişdir.

Göstərilən faktlarla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 318.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə), 281.2 (bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə) və 192.2.2-ci (külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq) maddələri ilə cinayət işi başlanmışdır.

Hazırda iş üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

V.Sirmakesin cinayət məsuliyyətinə cəlb edilməsi üçün İsveçrə Konfederasiyası Baş Prokurorluğuna müvafiq qaydada hüquqi yardım göstərilməsi barədə vəsatət göndərilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində geniş əməliyyat müşavirəsi keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin oktyabrın 12-də keçirilmiş Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası zamanı verdiyi tapşırıq və tövsiyələrdən irəli gələn məsələlərin icrası məqsədilə Baş prokuror Zakir Qaralovun sədrliyi ilə oktyabrın 14-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində qurumun fəaliyyətinin daha da gücləndirilməsi və səmərəliliyinin artırılması ilə əlaqədar geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Tədbiri giriş nitqi ilə açan Baş prokuror dövlət başçısı cənab İlham Əliyevin böyük siyasi iradə, əzm və qətiyyəti hesabına davamlı iqtisadi tərəqqiyə və xalqın rifahının yüksəldilməsinə nail olunduğunu, müasir dünyada mövcud olan siyasi-iqtisadi vəziyyət, qlobal maraqlar sistemi nəzərə alınmaqla ölkəmizin davamlı inkişafına yönəlmiş islahatların, o cümlədən korrupsiya və rüşvətxorluğa qarşı kəsərli mübarizə tədbirlərinin inamla həyata keçirildiyini diqqətə çatdırmışdır.

Ölkəmizdə korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin tərkib hissəsi olmasını vurğulayan Baş prokuror bu sahədə həyata keçirilmiş institusional və cinayət təqibi tədbirlərinin müsbət nəticələrini bildirməklə mübarizənin kəsərliliyinin daha da artırılmasının vacibliyini xüsusi qeyd etmiş, Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclas zamanı dövlət başçısının korrupsiyaya qarşı mübarizə tədbirlərinin səmərəliliyinin daha da artırılması, bu sahədə sistem xarakterli islahatların davam etdirilməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ictimai nəzarətin gücləndirilməsi, büdcə vəsaitlərinin israf edilməsinin qarşısının alınması, həmçinin maliyyə və iqtisadi sahədə şəffaflığın tam təmin edilməsi, sahibkarlığın inkişafına mane olan inhisarçılıq, sahibkarlıq fəaliyyəti subyektlərinin dövlət qurumları tərəfindən qanunsuz yoxlanılması və çoxsaylı əsassız lisenziyaların verilməsi, sahibkarlar qarşısında qanunazidd tələblər irəli sürülməsi kimi neqativ halların aradan qaldırılması istiqamətində daha ciddi mübarizənin aparılması barədə çıxışından irəli gələn vəzifələrin vacibliyini bildirməklə bu sahədə prokurorluq, o cümlədən ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsindən konkret vəzifələrin icrası tələb edilmişdir.

Müşavirədə məruzə ilə çıxış edən Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Baş İdarənin cari ilin 9 ayı ərzindəki fəaliyyətini təhlil etmiş, bu müddət ərzində 161 saylı “Qaynar xətt” əlaqə mərkəzinə 5108 müraciətin daxil olduğunu, həmin müraciətlərin əsasən nəqliyyat, tikinti və bank sektoru sahələrini əhatə etdiyini, həmçinin 224 şəxs barəsində 146 cinayət işinin istintaqının tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərildiyini bildirmişdir. Həmin cinayət işlərindən 87 şəxs barəsində 58 iş mənimsəmə və israf etmə, 48 şəxs barəsində 37 iş dələduzluq, 33 şəxs barəsində 19 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 23 şəxs barəsində 9 iş rüşvət alma, 10 şəxs barəsində 6 iş isə rüşvət vermə, 9 şəxs barəsində 9 iş saxta sənədlərdən istifadə etmə, 7 şəxs barəsində 4 iş vəzifə saxtakarlığı və 6 şəxs barəsində 3 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə faktı ilə əlaqədar olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 98 milyon 571 min manat ziyandan istintaq müddətində 31 milyon 640 min manat və ya 32 %-i ödənilmiş, qalan ziyanın təqsirləndirilən şəxslərin əmlakları üzərinə həbs qoyulmaqla ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülmüşdür.

Əməliyyat müşavirəsində müvafiq idarələrin rəisləri hesabatla çıxış edərək korrupsiyaya qarşı daha ciddi mübarizənin aparılması ilə əlaqədar təkliflərini irəli sürmüşlər.

Müşavirədə dövlət başçısının göstərişlərinin icrası ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin qarşısında konkret tapşırıqlar müəyyən edilmiş, korrupsiya hüquqpozmalarının daha çox baş verdiyi sahələrin araşdırılması, onların təhlili və qarşısının alınması

istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə müvafiq işçi qrupların yaradılması, eyni zamanda müxtəlif sahələrdə mütəşəkkil və sistemli xarakter almış korrupsiya cinayətləri törətməkdə olan cinayətkar şəbəkələrin ifşa edilməklə üzvlərinin məsuliyyətə cəlb edilməsi barədə qanunla nəzərdə tutulmuş cinayət təqibi tədbirlərinin qısa müddət ərzində həyata keçirilməsi qərara alınmışdır.

Bundan başqa, korrupsiyaya qarşı mübarizədə inzibati və cəza tədbirləri ilə yanaşı vətəndaşların ictimai nəzarətin həyata keçirilməsində aktivliyinin artırılması üçün maarifləndirmə tədbirlərinin genişləndirilməsi barədə konkret tapşırıqlar verilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi göstərişlərin səmərəli və keyfiyyətli icrasının təmin edilməsi məqsədilə Baş prokuror tərəfindən Bakı şəhəri, bütün rayon (şəhər) və ərazi hərbi prokurorlarına korrupsiyaya şərait yaradan halların aradan qaldırılması, sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin və digər dövlət qurumları tərəfindən belə hallara yol verilməsinin qarşısının qəti şəkildə alınması üçün kəsərli təsir tədbirlərinin görülməsi, sahibkarlara qarşı qanunsuz tələblərin irəli sürülməsi barədə daxil olmuş müraciətlərin dərhal Respublika Baş Prokurorluğunun rəhbərliyinə məruzə olunması, habelə tabe prokurorların və bütün prokurorluq əməkdaşlarının fərdi məsuliyyət hissinin artırılması ilə əlaqədar rəsmi göstəriş verilmişdir.

## Hüquqi şəxslərin cinayət məsuliyyəti və əmlakın bərpası Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində müzakirə edilmişdir

Noyabrın 19-dan 20-dək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi və Avropa Şurası tərəfindən həyata keçirilən "Proqram Əməkdaşlıq Çərçivəsi" layihəsi üzrə "Hüquqi şəxslərin cinayət məsuliyyəti və əmlakın bərpası" mövzusunda təlim keçirilmişdir.



Baş Prokurorluğun müvafiq idarələrinin, Baş prokuror yanında Korrupsiya qarşı Mübarizə Baş İdarəsinin, Hərbi Prokurorluğun və Bakı şəhər prokurorluğunun, habelə Respublika Audirtorlar Palatası və Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidmətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev çıxış edərək korrupsiyaya qarşı mübarizənin Azərbaycanda dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulamaqla bu mübarizənin möhkəm siyasi iradəyə əsaslandığını qeyd etmiş, bu sahədə ölkə daxilində, eyni zamanda beynəlxalq səviyyədə əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Avropa Şurasının ekspertləri Martin Poleyn və Nimişa Aqerval hüquqi şəxslər tərəfindən törədilən korrupsiya cinayətlərinə qarşı mübarizənin aspektləri, bu kateqoriyadan olan cinayətlərlə mübarizə sahəsində müsbət təcrübə, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının hüquqi və praktiki tərəfləri barədə təqdimatlar keçirilmişdir.

Tədbirdə hüquqi şəxslərin cinayət məsuliyyəti ilə əlaqədar tədris tapşırıqları iştirakçılar tərəfindən müvəffəqiyyətlə icra edilmiş, onları maraqlandıran suallar ətraflı müzakirə edilmişdir.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ixtisasartırma kursları təşkil edilmişdir

## "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksinin tələbləri" ixtisasartırma kursu



Noyabrın 23-dən 29-dək Baş Prokurorluğun idarə, Bakı şəhər prokurorluğunun şöbə prokurorları, dövlət ittihamçıları, tabe rayon (şəhər) prokurorluqlarının müstəntiq və prokuror köməkçiləri üçün "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin Etik Davranış Kodeksinin tələbləri" ixtisasartırma kursu təşkil edilmişdir.

Kursda "Etik fikir və onun təkamülünün əsas mərhələləri", "Əxlaq və hüquq", "Cinayət qanunvericiliyinin etik əsasları", "Korrupsiyaya qarşı hüquqi vasitələrlə mübarizənin etik əsasları", "Ayrı-ayrı istintaq hərəkətlərinin əxlaqi və mənəvi əsasları", "Peşə etikası. Prokuror fəaliyyətinin əxlaqi əsasları", "Prokurorluq işçisinin əxlaqi keyfiyyətləri", "Nitq və prosessual sənədlərdə yazı mədəniyyəti", "Cinayət-prosessual sübutetmənin əxlaqi əsasları", "Prokurorluq işçilərinin etik davranış kodeksində əxlaq məsələlərinin qoyuluşu və həlli", "Ədalət mühakiməsinin əxlaqi əsasları. Məhkəmə müzakirələrinin etikası", "Cəza və onun etik əsasları" mövzuları tədris olunmuşdur.

Məqsəd prokurorluq işçilərinin vətəndaşlarla, cinayət prosesi iştirakçıları ilə münasibətdə yüksək əxlaqi davranış nümayiş etdirmələrini, şikayətlərə, cinayət hadisələrinə hüquqi qiymət verilərkən qanunun tələblərini rəhbər tutmaqla yanaşı daxili inama əsaslanaraq vicdanla hərəkət etmələrini, prosessual hərəkətləri həyata keçirərkən etik qaydaların pozulması hallarına yol verməmələri, sosial ədalətin bərpa olunmasında etik əsaslara söykənməyi və digər mənəvi keyfiyyətlərə sahib olmalarını aşılamaqdan ibarət olmuşdur.

## “Maraqlar toqquşmasının qarşısının alınması” ixtisasartırma kursu

Dekabrın 1-dən 5-dək Baş Prokurorluğun idarə, Bakı şəhər prokurorluğunun şöbə prokurorları, dövlət ittihamçıları, tabe rayon (şəhər) prokurorluqlarının müstəntiq və prokuror köməkçiləri üçün “Maraqlar toqquşmasının qarşısının alınması” ixtisasartırma kursu təşkil edilmişdir.

Kursda “Korrupsiyaya qarşı mübarizənin sistemi”, “Korrupsiyaya qarşı mübarizə sahəsində normativ və digər hüquqi aktlar”, “Korrupsiyanın qarşının alınmasında profilaktiki vasitələr (beynəlxalq və milli təcrübə)”, “Maraqların toqquşması korrupsiyaya qarşı səmərəli profilaktiki vasitə kimi (beynəlxalq və milli təcrübə)”, “Maraqların toqquşmasının qarşısının alınması məqsədi ilə dövlət qulluqçuları üçün müəyyən edilən məhdudiyyət, qadağa və tələblər”, “Prokurorluq orqanlarında maraqların toqquşmasının profilaktikasının xüsusiyyətləri”, “Maraqların toqquşmasının tipik halları və onların qarşılanması” mövzuları tədris olunmuşdur.

Məqsəd prokurorluq işçisinin peşə fəaliyyətində şəxsi maraqlarını cəmiyyətin və peşəsinin mənafelərindən üstün tutmaması, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə öz vəzifə borcunu layiqincə yerinə yetirməsi, xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə etməməsi, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməsi və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməsi, qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda imtina etməsi, korrupsiya ilə əlaqədar hüquqpozmaların qarşısının alınması, aşkar olunması və nəticələrinin aradan qaldırılması, dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsi istiqamətində müvafiq bilgilərə sahib olmalarını təmin etməkdən ibarət olmuşdur.

## “Maliyyə xarakterli məlumatların bəyan edilməsi” ixtisasartırma kursu

Dekabrın 8-dən 10-dək Baş Prokurorluğun idarə, Bakı şəhər prokurorluğunun şöbə prokurorları, dövlət ittihamçıları, tabe rayon (şəhər) prokurorluqlarının müstəntiq və prokuror köməkçiləri üçün “Maliyyə xarakterli məlumatların bəyan edilməsi” ixtisasartırma kursu təşkil edilmişdir.

Kursda “Maliyyə xarakterli məlumatların bəyan edilməsi antikorrupsiya institutu kimi”, “Maliyyə xarakterli məlumatların bəyan edilməsi üzrə beynəlxalq təcrübə”, “Korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşdırılmış xidmətlərin təşkili (Fransa təcrübəsi)”, “Maliyyə xarakterli məlumatların bəyan edilməsinin hüquqi əsasları və milli təcrübə”, “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma əməlinin cinayət-hüquqi xarakteristikası”, “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma (CM-nin 193-1-ci maddəsi) cinayətlərinin istintaq metodikası” mövzuları tədris olunmuşdur.

Məqsəd maliyyə xarakterli məlumatların təqdim edilməsi, bu məlumatların yoxlanılması, qorunması əsasları, maliyyə xarakterli məlumatlar şəxsi həyatın sirri hesab edildiyindən bu hüququn pozulması zamanı sosial ədalətin bərpa edilməsi, qanunsuz toplanılması və ya yayılmasına görə cinayət məsuliyyətinin, ibtidai araşdırmasının əsasları barədə məlumatlandırılmadan ibarət olmuşdur.

***

Tədris məşğələləri qabaqcıl metodlardan və müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə keçirilmişdir. Mövzular əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin əməkdaşları tərəfindən tədris olunmuşdur. Yekun üzrə kurslarda iştirak etmiş dinləyicilərin əldə etdikləri biliklər yazılı imtahan vasitəsilə yoxlanılmışdır. Nəticələr qənaətbəxş olmuşdur.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Baş prokurorluğun əməkdaşları “Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri” III beynəlxalq elmi-praktiki konfransda iştirak etmişlər

**Daxili İşlər Nazirliyinin Polis Akademiyası tərəfindən “Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri” III beynəlxalq elmi-praktiki konfrans təşkil olunmuşdur**




Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının dəvətinə əsasən “Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri” III beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Mütəşəkkil cinayətkarlıqla mübarizənin problemləri kafedrasının rəisi Behbud İsmayılov, Cinayət hüququ, cinayət prosesi və kriminologiya kafedrasının prokuroru Talıb Cəfərov və Hüquqi təminat və informasiya idarəsinin prokuroru Malik Səlimov iştirak etmişlər.




Konfrans Polis Akademiyası tərəfindən təşkil olunmaqla, oktyabrın 16-da Daxili İşlər Nazirliyinin "Xəzri" istirahət mərkəzində keçirilmişdir. Tədbirdə həm yerli, həm də xarici qonaqlar iştirak etmişlər. Polis Akademiyasının rəisi Nazim Əliyev konfransı açıq elan etdikdən sonra, "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" adlı saytın (www.regionalcrimeconf.pa.edu.az) təqdimatı keçirilmiş, ötən tədris ilində təhsildə və idmanda fərqlənmiş müdavimlərə döş nişanları təqdim olunmuş, əvvəlki konfranslar barədə video-rolik göstərilmiş və kollektiv fotoşəkil çəkilmişdir.

Konfransda İlham Məmmədzadə (AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun direktoru), Yuri Qolik (YUSTO Avropa institutunun kafedra müdiri), Xanlar Ələkbərov (hüquq elmlər doktoru, professor), Vladimir Catiev (Rusiya Dövlət Ticarət-İqtisadi Universitetinin kafedra müdiri), Dmitriy Şestakov (Sankt-Peterburq beynəlxalq kriminoloji klubun prezidenti), Firudin Səməndərov (Bakı Dövlət Universitetinin kafedra müdiri), Əmir Əliyev (Bakı Dövlət Universitetində hüquq fakültəsinin dekanı), Esberqen Alauxanov (Qazaxstan beynəlxalq kriminoloji klubun prezidenti) və başqaları çıxış etmişlər.

Tədbirin sonunda konfrans bəyanat qəbul etmiş və mövzu ətrafında səslənən çıxışların toplusu konfrans iştirakçılarına təqdim olunmuşdur.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi dairəsi genişləndirilir




Azərbaycan Respublikasında dövlət səviyyəsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar mütəmadi və məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində bir sıra nailiyyətlər əldə olunmuşdur. Dövlət orqanları içərisində xüsusi yeri və rolu olan prokurorluq orqanlarında da müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı müvafiq işlər görülmüş, Baş Prokurorluğun mərkəzi aparatını, Bakı şəhər prokurorluğunu və Bakı şəhərinin rayon prokurorluqlarını əhatə edən vahid daxili şəbəkənin yaradılması işi başa çatdırılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Baş Prokurorluqda “Elektron sənəd dövriyyəsi” və “Elektron cinayət” proqramları hazırlanmış, bu proqramların real olaraq işləməsini təmin etmək məqsədilə xüsusi hazırlıq kursları təşkil olunmuşdur.

Proqramlarda aparılan əməliyyatlar, prosedurlar və digər funksionallıqlar barədə ətraflı məlumatların verilməsi, prokurorluq əməkdaşlarında müvafiq vərdişlərin yaranması üçün "Elektron sənəd dövriyyəsi proqramından istifadə qaydaları" və "Elektron cinayət proqramından istifadə qaydaları" Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən təsdiq edilərək, nəşr olunmaqla aidiyyəti prokurorluq qurumlarına göndərilmişdir. Hazırda “Elektron sənəd dövriyyəsi” proqramı Baş Prokurorluğun mərkəzi aparatında, Bakı şəhər prokurorluğunda və Bakı şəhərinin rayon prokurorluqlarında, “Elektron



cinayət" proqramı isə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində, Bakı və Sumqayıt şəhər, Bakı şəhərinin rayon prokurorluqlarında və Abşeron rayon prokurorluğunda tətbiq olunur.

Tabe rayon (şəhər) prokurorluqlarında da müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində müvafiq işlər görülmüşdür. Tabe rayon (şəhər) prokurorluqları "Elektron sənəd dövriyyəsi" və "Elektron cinayət" proqramlarından istifadə edilməsi məqsədilə vahid daxili şəbəkəyə birləşdirilmişdir. Oktyabr və noyabrda 62 şəhər və rayon prokurorluğunun bütün əməkdaşlarının iştirakı ilə bölgələrdə 6 regional xüsusi hazırlıq kursları təşkil olunmuşdur. Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin rəisi Natiq Hüseynovun, Təşkilat-analitik idarəsinin rəis müavinləri Rauf Zeynalovun və Rövşən Əliyevin, Hüquqi təminat və informasiya idarəsinin İnformasiya texnologiyalarmm tətbiqi xidmətinin rəhbəri Murad Dadaşovun, xidmətin baş mütəxəssisləri Aqil Əsədovun, Amal Fərəcovun və mütəxəssisi Ayxan Ağazadənin iştirakı ilə oktyabrın 15-də Sumqayıt şəhər prokurorluğunun, 16-da Lənkəran rayon prokurorluğunun, 20-də Şirvan şəhər prokurorluğunun, 23-də Şəki rayon prokurorluğunun, noyabrın 6-da Mingəçevir şəhər prokurorluğunun, 13-də Gəncə şəhər prokurorluğunun inzibati binasında xüsusi hazırlıq kursları keçirilmişdir. Zəruri hazırlıq işləri başa çatdırılaraq dekabrın l-dən etibarən şəhər və rayon prokurorluqlarında sənədlərin "Elektron sənəd" dövriyyəsi proqramına, araşdırma materiallarının və cinayət işlərinin isə "Elektron cinayət" proqramına daxil edilməklə hərəkətinin təmin edilməsinə başlanılmışdır.

Prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində səmərəliliyin artırılması məqsədilə zəruri tədbirlərin həyata keçirilməsi davam etdirilir.

**Baş Prokurorluğun Hüquqi təminat<br>və informasiya idarəsi**

# Təqsirsizlik prezumpsiyası prinsipinin tətbiqinə dair seminarlar keçirilmişdir

**Dekabrda Sabirabad və Tərtər rayon prokurorluğunda bölgə prokurorluqlarının işçiləri üçün təqsirsizlik prezumpsiyası prinsipinə dair seminar keçirilmişdir.**





Dekabrın 18-də Tərtər rayonunda Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin prokuroru Malik Səlimov tərəfindən Mingəçevir şəhər, Ağdam, Ağcabədi, Ağdaş, Füzuli, Bərdə, Tərtər, Yevlax, Zərdab, Ucar, Laçın rayon, Tərtər və Qarabağ hərbi prokurorluqlarının işçiləri üçün seminar keçirilmişdir.

Dekabrın 25-də Sabirabad rayonunda Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin böyük prokuroru Mahir Tağıyev tərəfindən Şirvan şəhər, Sabirabad, Beyləqan, Saatlı, İmişli, Kürdəmir, Salyan, Hacıqabul, Biləsuvar, Neftçala, Cəbrayıl rayon və Füzuli hərbi prokurorluqlarının işçiləri üçün seminar keçirilmişdir.

Seminarlarda milli qanunvericilikdə – Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsi, Cinayət-Prosessual Məcəlləsinin 21-ci maddəsi, eləcə də beynəlxalq normalarda – İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 11-ci maddəsinin 1-ci bəndi, Mülki və siyasi hüquqlar haqqında Paktın 14-cü maddəsinin 2-ci bəndi və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndində təsbit olunmuş təqsirsizlik prezumpsiyası hüququnun anlayışı izah olunmuş, Deeverin Belçikaya qarşı, Minellinin İsveçrəyə qarşı, Allen de Ribemonım Fransaya qarşı, Adolf Avstriyaya qarşı, Enqlert Almaniyaya qarşı, Lutz Almaniyaya qarşı, Lötşer Niderlanda qarşı, Qaritski Polşaya qarşı və digər işlər üzrə Avropa Məhkəməsinin qərarlarında əks olunan mövqeyi diqqətə çatdırılmışdır. Prokurorluq üzrə «Cinayət təqibi zamanı prokurorluq orqanlarında təqsirsizlik prezumpsiyasının təmin olunması haqqında» əmrin əhəmiyyəti və tələbləri barədə məlumat verilmişdir. Sonda müzakirə olunan məsələlər ilə bağlı tövsiyələr verilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat**
**və informasiya idarəsi**

# Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması istiqamətində tabe rayon (şəhər) prokurorluqlarında təlimlərin keçirilməsi davam edir

## Lənkəran rayon prokurorluğunda seminar

Oktyabrın 12-də Lənkəran rayon prokurorluğunda «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin tələblərinin öyrənilməsi və icra edilməsi məqsədilə seminar keçirilmişdir.



Seminarda Lənkəran, Astara, Salyan, Neftçala, Lerik, Masallı və Biləsuvar rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Yadigar Aslanov əmrin tələblərindən irəli gələn vəzifələr barədə məlumat verməklə yanaşı vətəndaşların qəbulu işinin təşkilinə dair müddəaları izah etmişdir. Tabe prokurorluqlara ünvanlanan Baş prokurorun müavininin müvafiq müraciətində göstərilmiş yaşayış yerləri üzrə vətəndaşların qəbulu barədə məlumatların ictimaiyyətin diqqətinə dolğun və operativ formada çatdırılması, bunun üçün yerli kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilməsinə dair tövsiyəsi bir daha diqqətə çatdırılmışdır. Vətəndaşların qəbulu qrafiklərinin vaxtında tərtib edilərək qəbulların mütəmadi olaraq keçirilməsi zəruriliyi, rayon prokurorlarının bu sahəyə şəxsən cavabdeh olmaları xüsusi vurğulanmışdır.

Müraciətlərə baxılması və vətəndaşların qəbulunda daha çox rast gəlinən nöqsan və çatışmazlıqlar təhlil edilmiş, onların gələcəkdə istisna edilməsi üçün yerinə yetirilməsi zəruri olan tədbirlər müzakirə olunmuş, bu işə məsul olan rayon prokurorunun köməkçilərinə vəzifələrinin icrası ilə əlaqədar tövsiyələr verilmişdir.

## Mingəçevir rayon prokurorluğunda seminar

Oktyabrın 26-da Mingəçevir şəhər prokurorluğunda vətəndaşların qəbulu işinə məsul olan prokuror köməkçiləri üçün seminar keçirilmişdir.

Tədbirdə Mingəçevir şəhər, Ağdaş, Balakən, Yevlax, Qəbələ, Oğuz, Şəki və Qax rayon prokurorlarının əməkdaşları iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi, Vətəndaşların qəbulu şöbəsinin prokuroru Yaqut Əliyeva prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat vermiş, «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin vətəndaşların qəbulu məsələlərini tənzimləyən müddəalarını şərh etmiş və vətəndaşların prokurorluq orqanlarında qəbulunun səmərəli keçirilməsinə dair tövsiyələr vermişdir.

Rayon (şəhər) prokurorlarının vətəndaşların qəbulu işinə məsul olan köməkçilərinin vəzifələri barədə müzakirələr aparılmış, prokurorluqlarda və yaşayış yerlərində qəbulun xüsusiyyətləri təhlil edilmiş, bu sahədə təcrübədə yaranan problemlər müzakirə olunmuş, qəbulun təşkili və keçirilməsi qaydaları izah edilmişdir.

## Ağcabədi rayon prokurorluğunda seminar



Noyabrın 23-də Ağcabədi rayon prokurorluğunda «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilmişdir.

Seminarda Ağcabədi, Ağdam, İmişli, Zərdab, Bərdə və Beyləqan rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi, Vətəndaşların qəbulu şöbəsinin prokuroru Yaqut Əliyeva prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat vermiş, «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrin vətəndaşların qəbulu məsələlərini tənzimləyən müddəalarını şərh etmiş və vətəndaşların prokurorluq orqanlarında qəbulunun səmərəli keçirilməsinə dair tövsiyələr vermişdir.

Əmrdən irəli gələn tələblərə əsasən yuxarı prokurorluqlardan daxil olan bütün müraciətlərin müəlliflərinin hər bir halda qəbul olunması, vətəndaşların yaşayış yerləri üzrə qəbulunun müəyyən edilmiş qrafiklər üzrə ayda bir dəfədən az olmayaraq həyata keçirilməsi, bu qəbullara dair məlumatların uçotunun təmin edilməsi məqsədilə “Vətəndaşların yaşayış yerləri üzrə qəbulunun qeydiyyatı kitabı”nda zəruri məlumatların qeydiyyata alınması, prokurorluqlarda qəbul olunmuş vətəndaşların qeydiyyatı və uçotunun aparılması məqsədilə vətəndaşların prokurorluq orqanlarının aidiyyəti vəzifəli şəxsləri tərəfindən yalnız müvafiq qeydiyyatdan keçirildikdən və onlara dair zəruri məlumatlar müvafiq kitaba daxil edildikdən sonra qəbul edilməsi, qeydiyyat kitabında aparılan qeydlərin bir gün ərzində müvafiq prokurorluğun xüsusi elektron məlumat bazasına daxil edilməsi barədə izah və tövsiyələr verilmiş, rayon prokurorlarının vətəndaşların qəbulu işinin təşkilinə məsul olan köməkçilərinin vəzifələri müzakirə olunmuşdur.

# Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir



Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mülkü müdafiənin təmin edilməsi haqqında" 25.09.1998-ci il tarixli 193 nömrəli Qərarına əsasən, fövqəladə hadisələrin, qəza və dağıntıların nəticələrini aradan qaldırmaq, ilkin qəza-xilasetmə, tibbi yardım və digər mülki müdafiə tədbirlərinin yerinə yetirilməsini təmin etmək məqsədi ilə müvafiq dövlət orqanlarında hərbiləşdirilməmiş mülki müdafiə qüvvələrinin yaradılması nəzərdə tutulmuşdur.

Prokurorluq üzrə müvafiq əmrlə Baş Prokurorluğun hərbiləşdirilməmiş mülki müdafiə dəstələri yaradılmışdır. Tədbirlər planına uyğun olaraq oktyabrın 9-da Baş Prokurorluğun inzibati binasında Müraciətlərə baxılması idarəsinin məxfiçilik və mülki müdafiə məsələləri üzrə prokuroru Yadigar Aslanov hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşq keçirmişdir.

Təlim məşqində Azərbaycan Respublikası FHN-in Mülki müdafiə idarəsinin Mülki müdafiə qüvvələrinin hazırlığı bölməsinin rəisi Elşən Yolçuyev və həmin idarənin Mülki Müdafiənin Kəşfiyyatı bölməsinin rəisi İlqar Səfərov iştirak etmişlər.

Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqlərinin keçirilməsində məqsəd şəxsi heyətin komplektləşdirilməsi, təchizatı, rabitə və xəbərdarlıq sisteminin hazırlığı vəziyyətinin yoxlanılmasının təmini, onların təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsidir. Mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş vəzifələrə aid nəzəri biliklərə yiyələnməsinin vəziyyəti, zəruri vərdişləri mənimsəmələrinin keyfiyyəti yoxlanılmış və müvafiq bilgilərə sahib olmaları müəyyən edilmişdir.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

# Naxçıvan Muxtar Respublikasında Konstitusiya gününə həsr olunmuş konfrans keçirilmişdir

**Noyabrın 10-da Konstitusiya Gününə və Milli Fəaliyyət Proqramının 2015-ci ildə icra vəziyyətinə həsr olunmuş konfrans keçirilmişdir.**



Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova açaraq qeyd etmişdir ki, Konstitusiyada yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqlar çox geniş şəkildə öz əksini tapmış, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Konstitusiyanın qəbulu ölkədə hüquqi islahatların keyfiyyətcə yeni mərhələsinin başlamasına təkan vermişdir. İnsan hüquq və azadlıqlarının təmin olunması istiqamətində qəbul edilmiş normativ sənədlər sırasında ümummilli lider Heydər Əliyevin 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanını və 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan hüquqlarının müdafiəsinin daha səmərəli təşkilinin konsepsiyasını müəyyən etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov "Azərbaycan Respublikası Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının statusu" mövzusunda məruzə edərək bildirmişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilmişdir. Konstitusiyaya görə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvanın muxtariyyəti özünəməxsusluğu ilə fərqlənir. İlk fərq ondan ibarətdir ki, bu, milli yox, ərazi muxtariyyətidir. Yəni Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas ərazisindən tam təcrid olunmuş "anklav" ərazi kimi geopolitik əsasa görə yaranmışdır. Naxçıvanın muxtariyyətinin ən mühüm özünəməxsusluğundan biri də onun statusunun təkcə milli qanunvericiliklə yox, həm də beynəlxalq müqavilələrlə (16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars) təsdiq edilməsi və ona beynəlxalq hüquqi təminat verilməsidir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi müəyyənləşdirilmişdir. Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisində 28 aprel 1998-ci il tarixdə qəbul olunduğunu və bu Konstitusiyanın 29 dekabr 1998-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildiyini diqqətə çatdıran Cəlil Rüstəmov bildirmişdir ki, Naxçıvanın dövlətçilik tarixində ilk dəfə olaraq hamılıqla qəbul edilən, ideoloji əsaslardan arındırılmış, demokratik prinsip və dəyərlərə uyğun qəbul edilən bu Konstitusiya muxtariyyət tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biridir. Bütün sivil və müasir konstitusiyalar kimi, Muxtar Respublikanın Konstitusiyası da insan və vətəndaş hüquq və azadlıqlarına təminat vermişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Polad Həsənovun "Konstitusiya nəzarətinin mahiyyəti: Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi muxtar respublikada Konstitusiya nəzarətini həyata keçirən orqan kimi" adlı məruzəsi dinlənilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov "Milli Fəaliyyət Proqramı: Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təmin edən sənəd kimi" adlı məruzəsində qeyd etmişdir ki, insan hüquqları və azadlıqları konstitusiya hüququnun əsas institutlarından biridir. 12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Həmçinin Konstitusiyanın 2-ci bölməsi bütövlükdə əsas hüquqlar, azadlıqlar və vəzifələrə həsr edilmişdir. İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı" təsdiq edilmişdir. Ölkə Konstitusiyasının 3-cü fəslində nəzərdə tutulmuş əsas insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsinin səmərəliliyinin artırılması Milli Fəaliyyət Proqramında öz əksini geniş tapmışdır. Milli Fəaliyyət Proqramı ölkə Konstitusiyasınında təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təmin edir.

Sonra məruzələr ətrafında çıxışları olmuşdur. Tədbirə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova yekun vurmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi" ilə əlaqədar yerlərdə maarifləndirici tədbirlər keçirilmişdir

Oktyabr ayının 6-da Babək Rayon İcra Hakimiyyətində, 13-də Culfa Rayon İcra Hakimiyyətində, 20-də Şərur və Sədərək Rayon İcra Hakimiyyətlərində, 30-da Kəngərli Rayon İcra Hakimiyyətində, noyabr ayının 3-də Şahbuz Rayon İcra Hakimiyyətində, 6-da isə Ordubad Rayon İcra Hakimiyyətində icra nümayəndələri və bələdiyyə sədrlərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov "Torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə məsuliyyət" mövzusunda çıxış edərək bildirmişdir ki, torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər. Bu orqanların torpaqlardan istifadə və onların mühafizəsi üzrə səlahiyyətləri dairəsində göstərişləri bütün torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri üçün məcburidir. Torpaq qanunvericiliyinə əsasən, müəyyən kateqoriyaya aid edilmiş torpaqların başqa məqsədlər üçün istifadəsinə yalnız onun təyinatının dəyişdirilməsindən sonra yol verilə bilər. Torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi İnzibati Xətalar Məcəlləsinin 90-cı maddəsində nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur.

Qeyd olunmuşdur ki, torpaqların özbaşına tutulması, torpaq sahələrində qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi, torpaqların çirkləndirilməsi, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələşdirilməsi, tikilməsi və istismara verilməsi, mülkiyyətdə və istifadədə olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsi, torpaqların dövlət uçotundan və qeydiyyatından gizlədilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət və inzibati məsuliyyətə səbəb olur.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahəsindən istifadə hüququ fiziki və hüquqi şəxslərə torpaq sahələrini bu cür istifadəyə verməyə vəkil edilmiş orqanının qərarına əsasən, qanunla müəyyənləşdirilmiş qaydada verilir. Torpaqların özbaşına tutulması, yəni zəbt edilməsi isə qanunla qadağan olunur. Həmin əməli törtəmiş şəxslər Cinayət Məcəlləsinin 188-ci maddəsinə əsasən məsuliyyət daşıyırlar. Ona görə də zəbt edilmiş torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpağın mülkiyyətçisinin və ya digər qanuni sahibinin razılığı, yaxud dövlət və bələdiyyə torpağının istifadəyə ayrılması haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş sərəncam olmadan torpaq sahəsini ələ keçirmə torpaq sahəsini özbaşına tutma əməli hesab olunur.

Torpaqların zəbt olunmasının qarşısını vaxtında almayan cavabdeh şəxslər Cinayət Məcəlləsində nəzərdə tutulmuş qaydada səhlənkarlıq əməlinə görə məsuliyyət daşıyırlar. Bələdiyyə rəhbərləri və işçiləri də cinayət qanunvericiliyinə əsasən vəzifəli şəxs hesab olunurlar və bələdiyyə torpaqlarının mühafizəsinə cavabdehdirlər. Cavabdeh şəxslərinin öz xidməti vəzifələrini yerinə yetirməməsi, qanunvericilik aktları ilə onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün obyektiv və subyektiv imkanların olmasına baxmayaraq, həmin vəzifələrin icra edilməməsidir. Lazımi qaydada yerinə yetirməmə dedikdə isə, cavabdeh şəxslərinin öz vəzifələrini tam, vaxtında və dəqiq icra etməməsi başa düşülür. İşə vicdansız və ya laqeyd münasibət isə torpaqların mühafizəsinə cavabdeh şəxslərin öz məsuliyyətini lazımi qaydada dərk etməməsi, qulluq mənafeyini başqa mənafelərə nisbətən ikinci dərəcəli hesab etməsidir. Qeyd olunan əməlləri törətmiş şəxslər isə cinayət qanunvericliyinə əsasən cəzalandırılır.

Tədbirdə Naxçıvan MR Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sektor müdiri İntizar Həziyev "Torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi" mövzusunda çıxış etmişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları tələbələrlə görüşüb

**Oktyabrın 22-də Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları universitetin Sosial idarəetmə və hüquq fakültəsinin tələbələri ilə görüş keçirmişlər.**



Tədbiri universitetin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Qərib Allahverdiyev açaraq ümummilli lider Heyder Əliyevin təhsil strategiyasının ölkədə, o cümlədən muxtar respublikda uğurlu davamının real nəticələrindən danışmışdır. Dekan vurğulamışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı muxtar respublikada layiqli kadr potensialı yetişdirilməsində, onların təcrübi biliklərinin artırılmasında, yüksək intellektli mütəxəssislərin müəyyənləşdirilib gələcəkdə iş yerləri ilə təmin olunmasında mühüm rol oynayacaqdır. Qeyd olunmuşdur ki, sözügedən Sərəncamın icrası məqsədilə muxtar respublikada fəaliyyət göstərən müxtəlif nazirlik və təşkilatların nümayəndələri, o cümlədən hüquq-mühafizə orqan-

larının əməkdaşları Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisaslarının tələbələri ilə görüşlər keçirirlər.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kadrlar şöbəsinin rəisi Zəfər Mahmudov çıxış edərək ümummilli lider Heydər Əliyevin təhsilin çoxcəhətli inkişafı, dünya səviyyəsinə yüksəldilməsi, xüsusilə də milli ali hüquq təhsilinin formalaşması istiqamətində müstəsna xidmətlərindən danışmışdır. Zəfər Mahmudov bu sahədə muxtar respublikada da mühüm tədbirlər həyata keçirildiyini, 2015-ci il 27 iyul tarixli Sərəncamın əhəmiyyətini diqqətə çatdıraraq bildirib ki, Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 2015-ci ildə görüləcək işlərə dair tədbirlər planı təsdiq olunub. Tədbirlər planında hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakını və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsini, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi sahəsi üzrə məhkəmələrdə iştirakını, prokurorluğun imtahan-informasiya sistemində nəzəri bilik səviyyələrinin kompüter vasitəsilə yoxlanmasını, gələcəkdə prokurorluq orqanlarında işləmək arzusunda olan tələbələrdə prokurorluq orqanlarına müvafiq qaydada işə qəbulla bağlı hüquqi bazanın formalaşdırılmasını təmin etmək, habelə gələcək hüquqşünasların Muxtar Respublika Prokurorluğunun kitabxanasından və qanunvericilik bazası sistemindən istifadə etmələri, istehsalat təcrübələri keçmələri üçün lazımi şərait yaradılması nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov tələbələrə prokurorluğun fəaliyyət istiqamətləri və fəaliyyətinin əsas prinsipləri barədə çıxış edərək qeyd etmişdir ki, ölkəmizdə prokurorluq orqanlarının əsası 1918-ci il oktyabrın 1-də qoyulsa da, onun müstəqil dövlət orqanı kimi fəaliyyəti və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə ictimai-siyasi sabitliyə nail olunmuş, qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi milli dəyərlər və beynəlxalq prinsiplər əsasında təmin edilmişdir. Bu tədbirlərin tərkib hissəsi olaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Ölkə Konstitusiyasının 133-cü maddəsi Azərbaycan Respublikasının Prokurorluğu adlanır. Konstitusiyada göstərilir ki, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir və məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

Faiq Səfərov təmsil etdiyi qurumun öz fəaliyyətini qanunçuluq, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma və digər əsas prinsiplər üzərində qurulduğunu qeyd edərək, prokurorluğun fəaliyyətinə müdaxilənin və prokurorluğa hörmətsizlik göstərilməsinin yolverilməzliyi, prokurorluğun sistemi və təşkili, prokurorluq orqanlarının fəaliyyəti, prokurorluqda ərizə, şikayət və müraciətlərə baxılması, prokuror aktlarının tərtibi barədə məlumat vermişdir.

Görüş ali təhsil ocağı ilə mütəmadi əməkdaşlığın perspektiv istiqamətlərinin müzakirəsi ilə yekunlaşıb.

**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Azərbaycan Respublikası Prokurorluğu daha bir mötəbər quruma üzv qəbul olunub

**Azərbaycan Respublikası Prokurorluğu səsvermə nəticəsində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatına üzv qəbul edilib.**




Korrupsiyaya qarşı mübarizə məqsədi ətrafında peşəkarları birləşdirən müstəqil forum olan Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) Parisdə 15-ci illik Peşəkar Konfransı və Baş Assambleyası keçirilib.

"Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı və inzibati tədbirlərin balanslaşdırılmış tətbiqi" mövzusunda keçirilən tədbir Fransa Milli Polisi Baş İnspektorluğunun təsis edilməsinin 130 illiyi münasibətilə bu qurumun inzibati binasında təşkil olunub.

Hər iki qurumun prezidenti, eləcə də Avropa Komissiyasının Dələduzluqla Mübarizə İdarəsinin (OLAF) baş direktoru Covanni Kesslerin 2014-cü ilin noyabrında Azərbaycana səfəri zamanı Baş prokuror Zakir Qaralov ilə əldə edilmiş razılığa əsasən, Azərbaycan Respublikası Prokurorluğu, o cümlədən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin EPAC-a və EACN-ə üzvlük məsələsinin baxılması məqsədilə Fransa Milli Polisi Baş İnspektorluğunun rəhbəri xanım Mariya Frans Moneger-Quyomarş və OLAF-ın baş direktorunun dəvəti ilə bu tədbirlərdə baş prokurorun müavini – Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak edib.

Baş Assambleyada Azərbaycanın EPAC-a üzvlük məsələsinə baxılıb. Səsvermədən əvvəl Kamran Əliyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində bütün beynəlxalq təşəbbüslərin fəal iştirakçısı olmaqla beynəlxalq əməkdaşlığa böyük önəm verdiyini, mütərəqqi beynəlxalq təcrübələrin öyrənilərək tətbiq edilməsinin beynəlxalq əməkdaşlığın prioritet istiqaməti olduğunu vurğulayıb.

Sonra səsvermə keçirilib və Azərbaycan Respublikası Prokurorluğu bu təşkilata üzv qəbul edilib.

Konfransda iştirakçılara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilmiş tədbirləri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar təqdim edilib.

Tədbir çərçivəsində İspaniya, Ukrayna və Litvanın ixtisaslaşmış antikorrupsiya qurumlarının rəhbərləri, habelə bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə ikitərəfli görüşlər keçirilib, əməkdaşlığın perspektivləri müzakirə olunub.

Konfransın sonunda korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə "Paris bəyannaməsi" qəbul edilib. Həmçinin 16-cı İllik Konfransın Korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə üzrə Bürosunun (KNAB) təşkilatçılığı ilə Latviyanın paytaxtı Riqada keçirilməsi qərara alınıb.

**Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# BMT çərçivəsində Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyəti yüksək qiymətləndirilmişdir




Noyabrın 2-dən 6-dək Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının "Korrupsiyanın prevensiyası və əmlakin bərpası" mövzusunda 6-cı sessiyası keçirilmişdir.

BMT-yə üzv dövlətlərin yüksək səviyyəli nümayəndələri, antikorrupsiya qurumlarının, habelə bu sahədə ixtisaslaşmış nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, qeyri-hökümət təşkilatlarının və beynəlxalq ekspertlərin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarsi Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi və tərkibinə Baş Prokurorluq, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, həmçinin Azərbaycanın Avstriyadakı səfirliyinin əməkdaşları və ölkəmizin Sankt-Peterburq şəhərindəki baş konsulunun daxil olduğu nümayəndə heyəti təmsil etmişdir.

Konfransın açılışında Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey İvanov çıxış edərək Rusiya Prezidenti Vladimir Putinin müraciətini konfrans iştirakçılarının diqqətinə çatdırmışdır. Daha sonra BMT-nin Baş katibinin müavini, qurumun Narkotiklər və Cinayətkarliq Ofisinin rəhbəri Yuri Fedotov çıxış edərək konfransın qarşısında duran vəzifələr barədə bildirmişdir.

Rusiya Federasiyasının Ədliyyə naziri Aleksandr Konavalovun sədrliyi ilə keçirilən plenar iclasda Kamran Əliyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional islahatlar, korrupsiyanin prevensiyası

sahəsində ən uğurlu tədbirlərdən biri kimi "ASAN xidmət" konsepsiyası barədə ətraflı məlumat verməklə son dövrlər sahibkarlığın inkişaf etdirilməsi və biznes mühitinin daha da sağlamlaşdırılması məqsədi ilə görülmüş komleks və ardıcıl tədbirləri xüsusi vurğulamışdır. O, çıxışında Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində bütün beynəlxalq təşəbbüslərin aktiv iştirakçısı olduğunu diqqətə çatdıraraq tədbir iştirakçılarını Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun hazırda Assambleyasına sədrlik etdiyi Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) fəaliyyətində yaxından iştirak etməyə dəvət etmişdir.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyəti tərəfindən "Korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın müsbət təcrübələri" adlı tədbir keçirilmişdir. Nümayəndə heyətinin rəhbəri tərəfindən Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, o cümlədən məhkəmə-hüquq islahatları, ixtisaslaşmış antikorrupsiya qurumu – Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyası, habelə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış cinayət təqibi orqanı kimi Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin, xüsusən də qaynar-xətt əlaqə mərkəzinin fəaliyyəti barədə təqdimat keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaslara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr söbəsinin müdir müavini Elçin Hüseynli korrupsiyanın qarşının alınması sahəsində ölkəmizdə həyata keçirilən və artıq Azərbaycan brendi statusu qazanmış "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir. "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinə həsr olunmuş videomaterial tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Yaponiya, Qazaxıstan, Kamboca və digər ölkələrin nümayəndələri çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın qabaqcıl təcrübəsini, o cümlədən bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirmişlər.

Plenar sessiya çərçivəsində Azərbaycan Respublikasının müəllifi olduğu "Qabaqcıl təcrübələrin və texnoloji innovasiyaların tətbiqi vasitəsilə şəffaf, məsuliyyətli və səmərəli ictimai xidmətlərin göstərilməsinin təşviq edilməsi ilə korrupsiyanın qarşısının alınması" adlı qətnamə səsverməyə çıxarılmış və Ermənistan nümayəndə heyətinin davamlı etirazlarına baxmayaraq qəbul edilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ən ali siyasi forum hesab edilən konfrans çərçivəsində Azərbaycanın müəllifliyi ilə belə bir qətnamənin qəbul edilməsi ölkəmiz üçün tarixi əhəmiyyət daşıyır. Həmin qətnamə Azərbaycanın "ASAN xidmət" təcrübəsinin beynəlxalq müstəvidə təşviq edilməsində və bu təcrübənin Azərbaycan brendi kimi digər ölkələrlə mübadilə edilməsi istiqamətində müstəsna rolu olacaqdir. Belə ki, qətnamə BMT Katibliyinə sözügedən təcrübə mübadiləsinin aparılması üçün institusional çərçivə yaratmaq tapşırığı verir və üzv dövlətləri öz müsbət təcrübələrini bölüşməyə cağırır. Qətnamə həmçinin bu yaxınlarda "ASAN xidmət"in təltif edildiyi BMT-nin ictimai xidmətlər üzrə mükafatını müvafiq sahə üzrə ən yüksək və prestijli mükafat olaraq bir daha təsdiq etmişdir.

Konfrans çərçivəsində Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası, Türkiyə, Belarus, Malayziya və digər ölkələrin nümayəndə heyətləri, habelə bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə ikitərəfli görüşlər keçirərək səmərəli fikir mübadiləsi aparmışdır.

Tədbir zamanı konfrans iştirakçılarına Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilmiş nailiyyətləri özündə əks etdirən jurnal, buklet və broşurlar paylanmışdır.

BMT-nin Korrupsiya əleyhinə Konvensiyasını ratifikasiya etmiş ölkələrin 6-cı illik konfransı zamanı korrupsiyaya qarşı mübarizənin ən mühüm və aktual aspektləri üzrə, o cümlədən korrupsiyaya qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, bu sahədə yeni informasiya texnologiyalarının tətbiqi, dövlət qurumları və özəl sahələr arasında səmərəli, işgüzar, şəffaf münasibətlərin qurulması, cinayət yolu ilə əldə edilmiş əmlakın tapılması və geri qaytarılması, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi kimi məsələlər müzakirə edilmiş və gələcəkdə BMT-nin Narkotiklər və Cinayətkarliq üzrə Ofisinin rolunun daha da artırılmasının vacibliyi vurğulanmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Prokurorluğun nümayəndə heyəti İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Antikorrupsiya Şəbəkəsinin 18-ci geniş iclasında iştirak etmişdir

Oktyabrən 7-9-da Fransanın Paris şəhərində İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Antikorrupsiya Şəbəkəsinin 18-ci geniş iclası keçirilmişdir. İclasda ölkəni həmin qurum üzrə milli koordinator Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev təmsil etmişdir. İclasda quruma daxil olan ölkələrin III dəyərləndirmə raundu üzrə dövrü hesabatları dinlənilmiş, 2016–2019-cu illər üçün nəzərdə tutulmuş IV raund dəyərləndirmənin metodologiyası və iş planı üzrə müzakirə aparılmışdır.

Tədbirdə çıxış edən Kamran Əliyev Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş qanunvericilik və institusional, habelə bu sahədə son illəri əhatə edən qabaqlayıcı və cinayət təqibi tədbirləri barədə ətraflı məlumat vermişdir.

Həmçinin çıxışda, xüsusi olaraq korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşdırılmış qurumlar olan Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının, bu sahədə cinayət təqibi orqanı funksiyasını yerinə yetirən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, preventiv tədbirlər sahəsində isə ASAN xidmət mərkəzlərinin səmərəli fəaliyyəti ətraflı işıqlandırılmışdır.

Bundan əlavə, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının III dəyərləndirmə raundu çərçivəsində verilmiş tövsiyələrin icrası vəziyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat təqdim edilmişdir. Azərbaycan Respublikası üzrə hesabat dinlənildikdən sonra çıxışlar zamanı ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində keçirilmiş tədbirlər yüksək qiymətləndirilmiş, xüsusən də cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin uğurlu fəaliyyəti təqdirəlayiq hesab edilmişdir. İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı tərəfindən xüsusi buraxılışda hazırlanmış vəsaitdə Baş İdarə dünya üzrə qabaqcıl antikorrupsiya qurumlarının siyahısına daxil edilməklə əsasnaməsi, strukturu və iş prinsiplərinə həsr edilmiş xüsusi bölmə ayrılmış və tədbir çərçivəsində qeyd olunan vəsait iştirakçılara paylanmışdır.

ASAN xidmət mərkəzlərinin fəaliyyəti isə qeyd olunan təşkilata daxil olan ölkələrdə tətbiq edilmiş ən uğurlu qabaqlayıcı tədbir kimi qiymətləndirilməklə bu modelin digər ölkələrdə artıq tətbiqinə başlandığı vurğulanmışdır.

Bundan başqa, çıxışda Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində bütün beynəlxalq təşəbbüslərin fəal iştirakçısı olması vurğulanmaqla Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə həyata keçirilməkdə olan səmərəli qarşılıqlı əməkdaşlıq, habelə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun qurumun Assambleyasının sədri kimi fəaliyyəti barədə ətraflı məlumat verilmişdir.

Həmçinin Azərbaycan Respublikasının nümayəndəsi 2015-ci ilin 12-17 sentyabr tarixlərində İsveçrənin Sürix şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosasiyasının (IAP) 20-ci illik iclası zamanı korrupsiyaya qarşı mübarizə sahəsində çalışan prokurorlar üçün xüsusi antikorrupsiya saytının yaradılmasını və onun Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmasını bildirməklə İqtisadi İnkişaf və Əməkdaşlıq təşkilatının antikorrupsiya şəbəkəsinin həmin saytın aparılmasında fəal iştirakçılardan biri olmağa dəvət etmişdir.

Tədbir çərçivəsində qurumun növbəti IV raund dəyərləndirmə prosedurları müzakirə edilmiş, habelə 2016–2019-cu illər üçün iş planı ilə bağlı Azərbaycan Respublikası tərəfindən verilmiş təkliflər nəzərə alınmışdır.

Qurumun Antikorrupsiya Şəbəkəsinin növbəti yüksək səviyyəli görüşünün 2016-cı ilin fevral ayında keçirilməsi barədə qərar qəbul edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Prokurorluğun nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının "Terrorizm və zorakı ekstremizmə qarşı mübarizə" mövzusunda konfransda iştirak etmişlər

**Beynəlxalq Prokurorlar Assosiasiyasının 7-ci regional konfransında terrorizmə qarşı mübarizədə prokurorların rolu müzakirə edilmişdir**




Noyabrın 9-12-də Rusiya Federasiyasının Soçi şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) "Terrorizm və zorakı ekstremizmə qarşı mübarizə" mövzusunda Rusiya Baş Prokurorluğunun təşkilatçılığı ilə Mərkəzi və Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün 7-ci regional konfrans keçirilmişdir.

Otuzdan artıq ölkənin prokurorluq orqanlarının və nüfuzlu beynəlxalq təşkilatların iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin rəisi, BPA-nın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyev və Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanovdan ibarət nümayəndə heyəti təmsil etmişdir.

Tədbirin açılış mərasimində Rusiya Federasiyasının Baş prokuroru Yuri Çayka və BPA-nın prezidenti Gerhard Yaroş çıxış edərək son zamanlar artma tendesiyaları müşahidə edilən terrorizmə və ekstremizmə qarşı mübarizədə bey-






nəlxalq əməkdaşlığın və bu prosesdə prokurorların vacib rolunu qeyd etmişlər.

7-ci regional konfransda terrorizm və zorakı ekstremizmlə mübarizədə yeni çağırışlar, ayrı-ayrı ölkələrin prokurorluq orqanları tərəfindən tətbiq edilən milli təcrübə və mexanizmlər, bu bəşəri bəlaya qarşı beynəlxalq əməkdaşlıq və digər aktual məsələlər müzakirə edilmişdir.

Konfransın plenar iclasında çıxış edən Baş prokurorun müavini Kamran Əliyev ölkəmizin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə sahəsində qəbul edilən bütün beynəlxalq və regional konvensiyalara qoşulduğunu və bu fəaliyyət strategiyasının banisi xalqımızın ümummilli lideri Heydər Əliyevin olduğunu qeyd etmişdir. Vurğulanmışdır ki, bu gün dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası beynəlxalq antiterror koalisiyasının, o cümlədən enerji təhlükəsizliyi və sülhməramlı əməliyyatların həyata keçirilməsində fəal iştirakçılardan birinə çevrilmişdir.

Bildirilmişdir ki, ölkəmiz ötən əsrin 90-cı illərin əvvəllərində terrora məruz qalaraq 20% ərazisi Ermənistan tərəfindən işğal olunmuşdur. Qeyd edilmişdir ki, nəzarətdən çıxan bu cür ərazilər terrorçular üçün düşərgələrin yerləşdirilməsi, axtarışda olan terrorçulara sığınacaq verilməsi, yeni üzvlərə təlimlərin keçirilməsi, terror aktlarının planlaşdırılması və törədilməsi üçün əlverişli zəmin və şərait yaradır.

Konfransın növbəti günü plenar iclasa sədrlik edən Azərbaycan nümayəndə heyətinin rəhbəri terrorçuluğa qarşı mübarizədə prokurorluğun rolu barədə, həmçinin Azərbaycanda bu sahədə qəbul edilmiş normativ hüquqi aktlar, milli konsepsiya və praktiki mexanizmlər barədə ətraflı məlumat vermişdir.

Tədbirin sonunda terrorizmə və zorakı ekstremizmə qarşı mübarizədə prokurorluq orqanları tərəfindən beynəlxalq əməkdaşlığın davam etdirilməsi, genişləndirilməsi və bu istiqamətdə bütün lazımi səylərin göstərilməsi qərara alınmışdır.

Səfər çərçivəsində Azərbaycanın nümayəndə heyəti BAP-ın rəsmiləri, həmçinin Rusiya, Qazaxıstan, Ukrayna, Çin, Səudiyyə Ərəbistanı, Bəhreyn və digər ölkələrin və beynəlxalq təşkilatların nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək əməkdaşlığın inkişafına dair müzakirələr aparmışlar.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi**

# Azərbaycan Respublikasının Beynəlxalq Antikorrupsiya Akademiyasına verdiyi töhfələr yüksək qiymətləndirilmişdir




Dekabrın 9-dan 11-dək Vyanada "Beynəlxalq Antikorrupsiya Akademiyasının beynəlxalq təşkilat qismində təsis edilməsi haqqında" Sazişə tərəfdaş dövlətlərin Assambleyasının IV sessiyası keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasını Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi və tərkibinə Xarici İşlər Nazirliyinin məsul əməkdaşlarının daxil olduğu nümayəndə heyəti təmsil etmişdir.

Plenar iclasda Kamran Əliyev ötən ilin noyabrında Bakıda keçirilmiş III sessiya zamanı Assambleyanın sədri vəzifəsinə seçilmiş Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun adından çıxış edərək Azərbaycanda son illərdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri, o cümlədən ən uğurlu qabaqlayıcı institusional tədbirlərdən biri kimi "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti, habelə ölkəmizin bu sosial bəlaya qarşı mübarizə sahəsində apardığı səmərəli beynəlxalq əməkdaşlıq barədə ətraflı məlumat vermişdir.

Azərbaycanın Assambleyaya sədrliyi dövründə həyata keçirilmiş uğurlu fəaliyyət nəticəsində 5 ölkə Akademiyaya üzv qəbul olunmaqla qeyd olunan Sazişə qoşulmuş və ya ratifikasiya etmiş üzvlərin sayı 65-ə çatmışdır. Sessiyada Akademiyanın rəhbərliyi tərəfindən ötən müddət ərzində Azərbaycanın təşkilata verdiyi töhfələr yüksək qiymətləndirilmişdir.

Assambleyanın nizamnaməsinə görə sessiyanın açılışında təşkilata sədrlik Nigeriyaya keçmişdir.

Daha sonra Akademiyanın İdarə Heyətinə seçkilər keçirilmişdir. Təşkilatın fəaliyyətinə ölkəmizin verdiyi töhfələrin məntiqi nəticəsi kimi Azərbaycan parlamentinin deputatı Vüsal Hüseynov 6 il müddətinə İdarə Heyətinə üzv seçilmişdir.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti Bolqarıstanın vitse-prezidenti, Akademiyanın İdarə Heyətinin sədri xanım Marqarita Popova, Avstriyanın Daxili işlər naziri xanım Yohanna Mikl-Leytner, Akademiyanın dekanı və icraçı katibi Martin Kroytner və digər nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirmiş, gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmişdir.

Tədbirdə Azərbaycanın Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Qalib İsrafilov iştirak etmişdir.

Sessiya çərçivəsində tədbir iştirakçılarına Azərbaycan Respublikasında son 10 il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən jurnallar paylanmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi**

# Baş Prokurorluğun nümayəndə heyəti İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin baş prokurorlarının ikinci iclasında iştirak etmişdir




Noyabrın 3-4-də Türkiyə Respublikasının Antalya şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzv dövlətlərinin baş prokurorlarının ikinci iclası keçirilmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunu tədbirdə Baş prokurorun müavini Namiq Əsgərov




və Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri İsmayıl Qayıbov təmsil etmişlər.

İclasın əsas mövzuları transmilli cinayətkarlıq və kibercinayətkarlığa qarşı mübarizə sahələrində İƏT üzv dövlətləri arasında hüquqi əməkdaşlığın gücləndirilməsi və regional əməkdaşlığın qarşısında dayanan problemlərin aradan qaldırılması olmuşdur.

İclasda Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndələri ilə yanaşı İƏT Katibliyinin, Türkiyə Respublikası, İran İslam Respublikası, Pakistan İslam Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Tacikistan Respublikası, həmçinin müşahidəçi qismində Şimali Kipr Türk Respublikası baş prokurorluqlarının rəhbər əməkdaşlarından ibarət nümayəndə heyətləri iştirak etmişlər.

Tədbirin ilk günündə təşkilati məsələlər həll edilərək iclasın sədrliyinin həyata keçirilməsi yekdilliklə Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Mehmet Akarcaya həvalə edilmiş, gündəlik təsdiq edilmiş, yekuna dair bəyannamənin tərtib edilməsi məqsədilə işçi qrupu yaradılmışdır.

İran İslam Respublikasının Tehran şəhərində 2012-ci ildə keçirilmiş İƏT-in üzv dövlətləri baş prokurorlarının birinci iclasında qəbul edilmiş qərarların realizə edilməsi istiqamətində həyata keçirilmiş tədbirlər barədə İƏT Baş katibinin müavini Səyid Calaləddin Alavi Sabzevari geniş hesabat vermişdir.

İclasın ikinci sessiyasında nümayəndə heyətləri başçılarının bəyanatları dinlənilmiş, həmin sessiyada Azərbaycan Respublikası Baş prokurorunun müavini Namiq Əsgərov məruzə ilə çıxış edərək ölkəmizdə transmilli cinayətkarlıq və kibercinayətkarlıqla mübarizə sahələrində görülən işlər barədə dolğun məlumat vermiş, konkret təkliflər irəli sürmüşdür.

Sessiya çərçivəsində İƏT üzv dövlətləri arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, o cümlədən hüquqi yardım imkanlarının artırılması, kibercinayətkarlığın qarşısını almaq üçün hüquqi və texniki amillərin inkişaf etdirilməsi və bir sıra di-

gər məsələlər müzakirə edilmiş, bu sahədə İƏT üzv dövlətləri arasında beynəlxalq sazişin bağlanılması təklif edilmişdir.

İclasın 3-cü sessiyasında Pakistan İslam Respublikası nümayəndəsinin təklifi dəstəklənərək İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin baş prokurorlarının 3-cü iclasının 2016-cı ildə İslamabad şəhərində keçirilməsi qərara alınmış, yekun hesabat və «Antalya Bəyannaməsi» təsdiq edilmişdir.

Əlaqələrin operativ həyata keçirilməsi məqsədilə üzv dövlətlərin baş prokurorluqlarından qısa müddət ərzində əlaqələndirici şəxslərin müəyyən edilərək müvafiq məlumatın verilməsi barədə İƏT Katibliyinin xahişi nəzərə alınaraq Katibliklə əlaqələndirici şəxs qismində Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri İsmayıl Qayıbov müəyyən edilmiş və bu barədə Katibliyə məlumat verilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq
əlaqələr idarəsi**

# Avropa Şurası ilə əməkdaşlıq uğurla davam edir

**Avropa Şurası və Avropa İttifaqının birgə təlim proqramlarının təqdimatı olmuşdur**

Oktyabrın 27-də Bakıda Avropa Şurası və Avropa İttifaqının Azərbaycanda jurnalistlər, ədliyyə, prokurorluq və inzibati orqan işçiləri, peşəkar hüquqşünaslar üçün nəzərdə tutulan layihələrinin təqdimat mərasimi keçirilmişdir.

Mərasimdə Azərbaycanın rəsmi orqanlarının, QHT-lərin təmsilçiləri və parlamentin deputatları iştirak etmişlər. Baş Prokurorluğu Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov təmsil etmişdir.

Azərbaycanda 2015-2017-ci illərdə "Proqramlı əməkdaşlıq haqqında" çərçivə sazişi əsasında reallaşacaq dörd layihə müzakirə edilmişdir. Layihələrin əsas məqsədi media və ifadə azadlığının genişləndirilməsi, inzibati orqanlarda rüşvətxorluqla mübarizə və rüşvətxorluğun qarşısını alma imkanlarının gücləndirilməsi, Ədliyyə Akademiyasının rolunun və imkanlarının artırılması, hakimlərə təhsil verilməsi, habelə Azərbaycanda ədliyyə xidmətlərinin səmərəsi və keyfiyyətinin yüksəldilməsinə həsr olunan xüsusi layihənin həyata keçirilməsidir.

4,7 milyon avro dəyərində olan layihələr Avropa İttifaqı və Avropa Şurası tərəfindən maliyyələşdirilir və Avropa Şurası tərəfindən həyata keçirilir. Avropa Şurası və Avropa İttifaqı ümumilikdə "Şərq Tərəfdaşlığı" ölkələrində, o cümlədən Azərbaycanda 2020-ci ilədək 33 milyon avro dəyərində layihələr həyata keçirməsini planlaşdırır.

Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Draqana Filipoviç bildirmişdir ki, layihələr insan hüquqları, qanunun aliliyi, informasiyalı cəmiyyətin qarşısında duran problemlər, məhkəmə sistemi, rüşvətxorluğa qarşı mübarizə, media və ifadə azadlığı sahələrini əhatə edir. Bu layihələr Azərbaycan hökuməti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Layihələrin yalnız Bakıda deyil, bir sıra rayonlarda, o cümlədən Gəncə, Şəki və başqa regionları da əhatə etməsi nəzərdə tutulmuşdur.

Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin rəhbəri Malena Mard, Avropa Şurası və Avropa İttifaqı Şərq Tərəfdaşlığı Proqramı Əməkdaşlığı Çərçivəsi (PCF) üzrə milli əlaqələndirici, Azərbaycan Xarici İşlər Nazirliyinin əməkdaşı Həbib Mikayıllı, PCF üzrə Avropa Şurasının əlaqələndiricisi Arkadi Sytine çıxış etmişlər.

Sonra "2015-2017 AŞ və Aİ Şərq Tərəfdaşlığı PCF illik əməkdaşlıq görüşü çərçivəsində aşağıdakı layihələrin təqdimatı olmuşdur: Avropa İnsan

Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi; Azərbaycan məhkəmələrinin səmərəliliyinin artırılmasına, hakimlərin təliminin təkmilləşdirilməsinə və məhkəmələrdə özünü idaretməyə dəstək; Azərbaycanda korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılmasına dəstək; Azərbaycanda ifadə və media azadlığı.

Layihələrin məzmunu ətrafında müzakirələr aparılmışdır.

## Şərq tərəfdaşlığının proqram əməkdaşlığı çərçivəsində



Dekabrın 16-da Bakıda Şərq tərəfdaşlığının proqram əməkdaşlığı çərçivəsində (PCF) 2015-2017-ci illər üzrə Avropa Şurası və Avropa İttifaqının birgə Proqramı üzrə "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi"nə dair Ehtiyacların qiymətləndirilməsi barədə dəyirmi masa keçirilmişdir.

Tədbirdə Avropa Şurasının ekspertləri, nümayəndələri, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının rəhbəri, Məhkəmə-Hüquq Şurasının üzvləri, Vəkillər Kollegiyasının üzvləri və digər şəxslər iştirak etmişlər. Baş Prokurorluqdan tədbirdə Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov iştirak etmişdir.

Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, Məhkəmə-Hüquq Şurası, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Vəkillər Kollegiyası üçün verilən tövsiyələr müzakirə edilmiş, tövsiyələrdən irəli gələn öhdəliklər, görüləcək işlərin dairəsi müəyyənləşdirilmişdir.






***

Oktyabrın 5-də Bakıda Şərq tərəfdaşlığının proqram əməkdaşlığı çərçivəsində (PCF) 2015-2017-ci illər üzrə Avropa İttifaqı və Avropa Şurasının birgə Proqramı üzrə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyası və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi"nə dair Avropa Konvensiyasının 5-ci maddəsi üzrə tədris planına uyğun işçi qrupunun ikinci görüşü keçirilmişdir.

Görüşdə beynəlxalq və milli ekspertlər, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, Ali Məhkəmə, Vəkillər Kollegiyasının nümayəndələri iştirak etmişlər. Prokurorluq orqanlarından Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi, milli ekspert Günay Əyyubova təmsil olunmuşdur.

Məqsəd Azərbaycanda hakim, prokuror, vəkil və digər praktik hüquqşünaslar üçün "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 5-ci maddəsi üzrə Avropa Şurasının elektron platforması üzərindən distant tədrisin (e-tədrisin) təşkil edilməsidir. Tədrisin distant təşkili praktik hüquqşünasların iş yerlərindən, vəzifələrinin icrasından ayrılmadan, vaxt və resurs itkisinə yol vermədən Avropa Konvensiyasının müddəalarının öyrənilib bu sahədə biliklərin artırılmasına və təcrübədə tətbiqinə xidmət edir.

Tədbirdə Avropa Konvensiyanın 5-ci maddəsi üzrə e-kursun təşkili ilə əlaqədar hazırlanmış təlim materiallarının müzakirəsi aparılmış, çatışmazlıqların aradan qaldırılması və sənədlərin təkmilləşdirilməsi istiqamətində tövsiyələr verilmişdir. Təlim materiallarının müzakirəsindən sonra ekspertlər arasında yeni iş bölgüsü və meyarlar müəyyən edilmişdir. Digər milli ekspertlərin Avropa Konvensiyasının 5-ci maddəsinin bəzi bəndləri üzrə hazırlamaqda çətinlik çəkdikləri təlim materiallarının yazılmasını Günay Əyyubova öhdəsinə götürmüşdür.

Yekunda işçi qrupunun növbəti görüşünün keçirilməsi cari ilin dekabrına təyin edilməsi qərara alınmışdır.

***

Dekabrın 15-də Bakıda Şərq tərəfdaşlığının proqram əməkdaşlığı çərçivəsində (PCF) 2015-2017-ci illər üzrə Avropa İttifaqı və Avropa Şurasının birgə Proqramı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyası və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi"nə dair Avropa Konvensiyasının üçün hazırlanmış təlim materiallarına nəzər yetirilmiş və müzakirələr aparılaraq həm beynəlxalq, həm də milli ekspertlər tərəfindən münasibət bildirilmişdir. Günay Əyyubovanın hazırladığı təlim materialları Avropa Şurasının ekspertləri tərəfindən bəyənilmişdir.

Sonda e-kursun "Milli adaptasiya" hissəsi üçün müvafiq materialların hazırlanması üzrə işçi qrupunun üzvləri arasında iş bölgüsü aparılmışdır. Üzvlərə Avropa




5-ci maddəsi üzrə tədris planına uyğun işçi qrupunun üçüncü görüşü keçirilmişdir.

Görüşdə Avropa Şurasının ekspertləri, nümayəndələri, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının nümayəndələri, Bakı Apellyasiya Məhkəməsinin hakimi, Vəkillər Kollegiyasının üzvü və digər şəxslər iştirak etmişlər. Baş Prokurorluqdan tədbirdə Elm-Tədris Mərkəzi, İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi, milli ekspert Günay Əyyubova iştirak etmişdir.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 5-ci maddəsi üzrə distant tədrisin (e-tədrisin) 2016-cı ildə tətbiqini reallaşdırmaq Məhkəməsi tərəfindən Konvensiyanın 5-ci maddəsi üzrə Azərbaycana qarşı qəbul olunan işlər və bu qərarlarda aşkar edilən pozuntular, eləcə də onların milli qanunvericilikdə və ya təcrübədə aradan qaldırılması barədə məlumatların müəyyən edilib hazırlanması tapşırığı verilmişdir.

Bütün işlərin yekunlaşdırılması və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 5-ci maddəsi üzrə distant tədrisin (e-tədrisin) tətbiqi 2016-cı ildə nəzərdə tutulmuşdur.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Azərbaycanın nümayəndə heyəti türkdilli ölkələrin Məhkəmə Şuralarının iclasında iştirak etmişdir

Dekabrın 22-23-ü Türkiyə Respublikasının İstanbul şəhərində türkdilli ölkələrin Məhkəmə Şuralarının iclası keçirilmişdir.

Ali Məhkəmənin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi Ali Məhkəmənin hakimi Xaqani Məmmədov, Ali Məhkəmənin Beynəlxalq əlaqələr şöbəsinin rəisi Fərid Mədətli, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi İlqar Cəfərovdan ibarət tərkibdə Azərbaycan Respublikasının nümayəndə heyəti tədbirdə təmsil olunmuşdur.

İclasda iştirak edən hər ölkə milli məhkəmə şurasının yaranma tarixi, statusu, tərkibi, səlahiyyətləri, fəaliyyəti və qarşıda duran vəzifələri barədə məlumat vermişlər. Ramiz Rzayev Azərbaycanın məhkəmə sistemi, Məhkəmə-Hüquq Şurası, hakimlərin seçki Komitəsi və s. barədə məlumat vermişdir.

Azərbaycanın nümayəndə heyəti milli məhkəmə və prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı sualları cavablandırmış və eyni zamanda digər ölkələrin məruzələri ətrafında keçirilən müzakirələrdə yaxından iştirak etmişdir.

**Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi**

# Baş Prokurorluğun nümayəndəsi Avropa Prokurorlarının Məşvərətçi Şurasının iclasında iştirak etmişdir



Prokurorların dövlətin cinayət ədliyyəsi sistemində və qanunun aliliyinin qorunmasında müstəsna rolunu və Avropa Şurasına üzv dövlətlərin prokurorları arasında əməkdaşlığın zəruriliyini nəzərə alaraq 2015-ci ilin iyulunda AŞ Nazirlər Komitəsinin qərarı ilə Avropa Prokurorlarının Məşvərətçi Şurası (CCPE) yaradılmışdır.

AŞ üzv dövlətlərin yüksək vəzifəli prokurorlarını birləşdirən Şura hər il plenar iclaslar təşkil etməklə prokuror fəaliyyətinə aid aktual mövzular üzrə rəylər hazırlayıb Nazirlər Komitəsinə təqdim edir.

Noyabrın 19-20-də Strasburq şəhərində CCPE-nin 10-cu plenar iclası keçirilmişdir.

Tədbirdə ekspert qrupu tərəfindən "Prokurorların cinayət işlərinin istintaqında rolu" adlı sənəd müzakirə edilərək qəbul edilmişdir. Sənəddə istintaqın hansı hallarda prokuror tərəfindən aparılması, prokurorların digər istintaq orqanları ilə əlaqələri, prosessual rəhbərlik, istintaq zamanı müdafiə tərəfinin hüquqlarının qorunmasında prokurorların rolu, istintaq texnikası, istintaq prosesində prokurorların rolunun gücləndirilməsi, KİV-lərlə səmərəli əlaqə və prokurorlar üçün təkmilləşdirmə kurslarının keçirilməsinə dair tövsiyələr nəzərdə tutulmuşdur.

Plenar İclasda Azərbaycan Prokurorluğunu təmsil edən Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanov sənədin müzakirəsi zamanı ölkəmizdə cinayət işlərinin istintaqının aparılmasında və ibtidai istintaqa prosessual rəhbərlikdə, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiqinə nəzarət sahəsində prokurorluq orqanlarının rolu barədə tədbir iştirakçılarını məlumatlandırmış, irəli sürdüyü təkliflər qəbul edilmiş sənəddə əksini tapmışdır.

Tədbir çərçivəsində CCPE-nin prezidenti Sedrik Vizar yekdilliklə növbəti il üçün həmin vəzifəyə yenidən seçilmişdir.

Sonda terrorizmə qarşı mübarizədə prokurorların rolu və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi haqqında bəyanat qəbul edilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun əməkdaşı beynəlxalq mükafata layiq görülmüşdür

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi, Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri İsmayıl Qayıbov Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin Baş Prokurorların Əlaqələndirmə Şurasının "Hüquq qaydasının və qanunçuluğun möhkəmləndirilməsinə görə" medalı ilə təltif olunmuşdur.**

**"Hüquq qaydasının və qanunçuluğun möhkəmləndirilməsinə görə" medalı**



**Р Е Ш Е Н И Е**

**Координационного совета генеральных прокуроров государств-Участников Содружества Независимых Государств**

27 августа 2015 года  город Астана

Рассмотрев представления о награждении медалью Координационного совета генеральных прокуроров государств- участников Содружества Независимых Государств «За укрепление законности и правопорядка», Координационный совет генеральных прокуроров государств – участников Содружества Независимых Государств **решил:**

За весомый вклад в развитие взаимодействия правоохранительных органов государств – участников Содружества Независимых Государств наградить медалью Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств «За укрепление законности и правопорядка»:

| | |
|---|---|
| ГАИБОВА Исмаила Исмет оглу | – руководителя Службы международно-правового сотрудничества и протокола Управления международных связей Генеральной прокуратуры Азербайджанской Республики; |
| ДОСПОЛОВА Сергея Долдовича | – начальника Департамента международного сотрудничества Генеральной прокуратуры Республики Казахстан; |
| ЕРМОЛАЕВА Леонида Владимировича | – Исполнительного секретаря Координационного совета генеральных прокуроров государств-участников Содружества Независимых Государств; |
| ЗВЯГИНЦЕВА Александра Григорьевича | – заместителя Генерального прокурора Российской Федерации; |

| | |
|---|---|
| КАПИНУС Оксану Сергеевну | – руководителя Научно-методического центра Координационного совета генеральных прокуроров государств-участников Содружества Независимых Государств, ректора Академии Генеральной прокуратуры Российской Федерации; |
| КАРАПЕТЯНА Сака Альбертовича | – начальника Главного управления международно-правового сотрудничества Генеральной прокуратуры Российской Федерации; |
| МЕРКЕЛЯ Иоганна Давидовича | – первого заместителя Генерального прокурора Республики Казахстан; |
| СЕРАФИМОВИЧА Сергея Борисовича | – старшего прокурора международно-правового отдела Генеральной прокуратуры Республики Беларусь; |
| СЕРОВА Василия Елисеевича | – заместителя руководителя Консультативной группы при Секретариате Координационного совета генеральных прокуроров государств-участников Содружества Независимых Государств; |
| СОДИКЗОДУ Абдусами | – начальника Управления общего надзора Генеральной прокуратуры Республики Таджикистан; |
| СТУКА Алексея Константиновича | – заместителя Генерального прокурора Республики Беларусь; |
| СУХАРЕВА Александра Яковлевича | – руководителя Консультативной группы Секретариата Координационного совета генеральных прокуроров государств-участников Содружества Независимых Государств; |
| УСМАНОВУ Людмилу Юрьевну | – заместителя Генерального прокурора Кыргызской Республики; |
| УСУБОВА Рустама Сабир оглу | – первого заместителя Генерального прокурора Азербайджанской Республики. |

| | |
|---|---|
| За Генеральную прокуратуру Азербайджанской Республики | За Генеральную прокуратуру Республики Армения |
| За Генеральную прокуратуру Республики Беларусь | За Генеральную прокуратуру Республики Казахстан |
| За Генеральную прокуратуру Кыргызской Республики | За Генеральную прокуратуру Республики Молдова |
| За Генеральную прокуратуру Российской Федерации | За Генеральную прокуратуру Республики Таджикистан |

***

Настоящим удостоверяю, что прилагаемый текст является заверенной копией Решения Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств о награждении медалью Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств «За укрепление законности и правопорядка», принятого на заседании Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств, которое состоялось 27 августа 2015 года в городе Астане Республики Казахстан.

Подлинный экземпляр вышеупомянутого Решения хранится в Секретариате Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств.

Исполнительный секретарь
Координационного совета
Генеральных прокуроров
Государства-участников СНГ — Л.В.Ермолаев

18 сентября 2015 года

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun əməkdaşları "Mütəşəkkil cinayətkarlıqla mübarizə" mövzusunda beynəlxalq forumda iştirak etmişlər

Oktyabrın 25-28-də Almaniya Federativ Respublikasının Münhen şəhərində həmin şəhərin və Saksoniya federal torpağının Baş Prokurorluqları, Avropa Komissiyasının Qonşuluq və Danışıqlar üzrə Baş İdarəsi (TAIEX) tərəfindən prokurorlar üçün "Mütəşəkkil cinayətkarlıqla mübarizə" mövzusunda beynəlxalq forum keçirilmişdir.

Azərbaycan, Türkiyə, Almaniya, Böyük Britaniya, İspaniya və digər ölkələrin, eləcə də Avropa Şurasının nümayəndələrinin qatıldığı tədbirdə Münhen şəhərinin və Saksoniya federal torpağının Baş prokurorları mövzu ətrafında çıxış etmişlər.

Tədbir iştirakçıları təmsil etdikləri ölkələrdə kibercinayətkarlıq, çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsi və korrupsiya hüquqpozmaları ilə bağlı istintaq edilən cinayət işləri üzrə məlumat verərək mövcud problemlər və onların həlli yolları müzakirə edilmişdir. Eyni zamanda mütəşəkkil cinayətkarlıqla, xüsusilə kibercinayətkarlıqla mübarizə zamanı müasir kompüter texnologiyalarından istifadə edilməsinin vacibliyi vurğulanmışdır.

Tədbirdə Azərbaycan Respublikası Prokurorluğunu Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəis müavini vəzifəsini icra edən Anar Məmmədov və Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru Elvin Mirzəyev təmsil etmişlər.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Baş Prokurorluğun əməkdaşı Antikorrupsiya işçi qrupunun iclasında iştirak etmişdir

Noyabrın 12-17-də Türkiyənin Antalya şəhərində Türkiyənin G20 (Böyük iyirmilərin sammiti) sədrliyi dövründə Azərbaycan Respublikasının xüsusi dəvətli ölkə olaraq G20 tədbirlərində iştirakı ilə əlaqədar şerpa (dövlət və hökumət başçılarının xüsusi nümayəndələri) istiqaməti üzrə dövlət və hökumət başçıları tərəfindən qəbul edilməsi nəzərdə tutulan kommunikenin Antikorrupsiya bəndləri üzrə işçi qrupun iclası keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Əməliyyat idarəsinin rəis müavini Emin Mürsəliyev təmsil etmişdir.

İclasda ölkə rəhbərləri tərəfindən imzalanması nəzərdə tutulmuş 24 bəndən ibarət kommünikenin layihəsinin antikorrupsiya istiqamətinə həsr olunmuş 16-cı bəndi müzakirə edilmişdir. Müzakirə nəticəsində Antikorrupsiya işçi qruplarının cari il ərzində müzakirə etdiyi özəl sektorun şəffaflığı və dürüstlüyü, benefesiar mülkiyyətçinin şəffaflığı, maliyyə və əmlak bəyamnamələri, dövlət satınalmaları, məlumatların aşkarlığı, xarici vəzifəli şəxslərin rüşvətxorluğu, əmlakın bərpası kimi məsələlərlə bağlı prinsip və razılaşmalar G20 ölkələrinin 2015-2016-cı illər üçün Antikorrupsiya Fəaliyyət Planında öz əksini tapmış və yekdilliklə qəbul edilmişdir.

Emin Mürsəliyev müzakirələrdə iştirak edərək qeyd olunan məsələlərlə bağlı Azərbaycan Respublikasının mövqeyini tədbir iştirakçılarına bildirməklə onları maraqlandıran sualları cavablandırmışdır.

**Baş prokuror yanında Korrupsiya qarşı Mübarizə Baş İdarəsi**

# Baş Prokurorluğun əməkdaşları "Korrupsiyaya qarşı mübarizə" tədris məşğələsində iştirak etmişlər



26 oktyabr - 6 noyabr tarixlərdə Fransanın paytaxtı Paris şəhərində Fransanın Milli İdarəçilik Məktəbi (ENA) tərəfindən təşkil olunan "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlim kursu keçirilmişdir.

Məqsəd korrupsiyaya qarşı mübarizə sahəsində Fransa hökuməti tərəfindən əldə edilmiş təcrübənin təqdim edilməsi və müvafiq təcrübənin iştirakçı dövlətlərin arasında mübadiləsini həyata keçirməkdən ibarət olmuşdur.

Kursda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev və həmin idarənin prokuroru İsfəndiyar Hacıyev iştirak etmişlər.

Baş İdarənin əməkdaşları çıxışlarında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində keçirilmiş kompleks, sistemli və ardıcıl islahatlar, bu sahədə respublikanın bir çox beynəlxalq təşkilatlar, ixtisaslaşmış qurumlarla ikitərəfli və çoxtərəfli müqavilələr əsasında qarşılıqlı və səmərəli əməkdaşlığı, habelə "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti barədə tədbir iştirakçılarına ətraflı məlumat vermiş, iştirakçıları maraqlandıran sualları cavablandırmışlar.

Yekunda Əmir Ocaqverdiyev və İsfəndiyar Hacıyevə Korrupsiyaya qarşı mübarizə Proqramının uğurla başa çatdırılmasına dair sertifikat təqdim olunmuşdur.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1143-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 398.1.6-cı maddədə "yayındıqda" sözü "boyun qaçırdıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsaslar olduqda" sözləri ilə əvəz edilsin.

**2.** 399.2-ci maddəyə "müəyyən etmək üçün" sözlərindən sonra ", yaxud əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma haqqında qərarın icrasından boyun qaçırdıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsaslar olduqda" sözləri əlavə edilsin.

**3.** 457.2-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"457.2-1. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma haqqında qərarın icrasından boyun qaçırdıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsaslar olduqda, onlar Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada və müddətdə müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilirlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1347-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsini "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1143-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 166.7-ci maddədə "qaçıran" sözü "qaçırdıqda və ya belə boyun qaçırmanı ehtimal etməyə kifayət qədər əsas olduqda," sözləri ilə əvəz edilsin.

**2.** 166.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"166.8. Bu Məcəllənin 166.7-ci maddəsində göstərilən şəxslər məhkəmənin qərarı ilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada və müddətdə müvafiq icra hakimiyyəti orqanının qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilirlər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 oktyabr 2015-ci il
№ 1348-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1143-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Azərbaycan Respublikasında dövlət daktiloskopik qeydiyyatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, I kitab, maddə 147; 2009, № 12, maddə 956) 8-ci maddəsinin birinci hissəsinin 8-ci bəndinə "çıxarılmalı olan" sözlərindən sonra ", habelə qanunsuz miqrantların saxlanılması mərkəzlərində saxlanılan" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1346-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında sahibkarlığın inkişafının stimullaşdırılması məqsədi ilə **qərara alır:**

**Maddə 1. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması**

Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılır.

**Maddə 2. Qanunun tətbiq dairəsi**

**2.1.** Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır.

**2.2.** Bu Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılan yoxlamalara şamil edilmir.

**2.3.** Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi ilə bağlı digər məsələlər bu Qanunun və onun əsasında qəbul edilmiş normativ hüquqi aktların müddəaları nəzərə alınmaqla "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 3. Qanunun tələbləri pozulmaqla aparılan yoxlamaların nəticələri**

**3.1.** Bu Qanun və onun əsasında qəbul edilmiş normativ hüquqi aktların tələblərinin pozulması ilə aparılan yoxlamaların hüquqi nəticəsi yoxdur.

**3.2.** Sahibkar bu Qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti orqanına, prokurorluq orqanlarına, habelə inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

**Maddə 4. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2015-ci il noyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1410-IVQ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1080; 2007, № 8, maddə 756; 2010, № 3, maddələr 171, 172; 2011, № 3, maddə 162, № 7, maddə 617; 2012, № 5, maddə 405, № 7, maddə 653; 2015, № 2, maddə 81) 2.4-1-ci maddəsinə "qərəzsizliyinin" sözündən sonra ", cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1398-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 82; 2001, № 12, maddə 736; 2002, № 3, maddə 116, № 5, maddə 245; 2004, № 2, maddələr 57, 58; 2005, № 4, maddə 278; 2007, № 8, maddə 752, № 11, maddə 1079; 2009, № 4, maddə 212, № 8, maddə 611; 2010, № 3, maddə 172; 2015, № 2, maddə 82) 44-cü maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Kütləvi informasiya vasitəsində cinayət işləri üzrə ibtidai araşdırmanın mahiyyəti və nəticələri barədə həqiqətə uyğun olmayan və ya təhrif edilmiş məlumatlar verildikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan məlumatın təkzib olunması və ya düzəliş verilməsi tələbi ilə müraciət etmək hüququna malikdir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1399-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673; № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95; № 4, maddə 327; № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368; № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 45-ci maddənin mətni 45.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 45.2-ci maddə əlavə edilsin:

"45.2. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Bu cəza növünün digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır.".

**2.** 46.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"46.3. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Bu cəza növünün digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır.".

**3.** 69.4-cü maddədə "Məhkəmə baxışınadək həbsdə saxlanılan məhkuma" sözləri "Həbsdə saxlanılan şəxsə" sözləri ilə əvəz edilsin.

**4.** 78.1-ci maddənin birinci cümləsinə "cəzadan" sözündən əvvəl "qanuni qüvvəyə minmiş hökmlə təyin edilmiş" sözləri əlavə edilsin.

**5.** 92-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"92.0. Şərti məhkum etməyə görə məhkumluq istisna olmaqla, məhkumluğun bu Məcəllənin 83.3-cü maddəsində nəzərdə tutulmuş müddətləri cinayət törətmiş yetkinlik yaşına çatmayanlar üçün qısaldılır və aşağıdakı müddətlər keçdikdə məhkumluq ödənilmiş hesab edilir:

92.0.1. azadlıqdan məhrum etməyə nisbətən daha yüngül cəzanın çəkilib qurtardığı gündən altı ay;

92.0.2. böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən bir il;

92.0.3. ağır və ya xüsusilə ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən üç il keçdikdə.".

**6.** 214.1-ci maddəyə "digər hərəkətlər" sözlərindən sonra "(terror aktı)" sözləri əlavə edilsin.

**7.** 277-ci maddənin adından "(terror aktı)" sözləri çıxarılsın.

**8.** 300-cü maddəyə "məlumatlarının yayılması" sözlərindən sonra "ibtidai araşdırmanın aparılmasına mane olduqda, yaxud" sözləri əlavə edilsin.

**9.** 315.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"315.1. Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə–".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1396-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr

171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342; № 5, maddə 511) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 14.4-cü maddəyə "hüquqları" sözündən sonra "ona aydın olan dildə" sözləri əlavə edilsin.

**2.** 147-ci maddəyə aşağıdakı məzmunda 147.4-147.6-cı maddələr əlavə edilsin:

"147.4. Barəsində tutulma tətbiq edilən şəxs azadlığının faktiki məhdudlaşdırıldığı vaxtdan tutulmuş hesab edilir.

147.5. Tutulma haqqında protokolda aşağıdakılar göstərilməlidir:

147.5.1. protokolun tərtib edildiyi yer, tarix və vaxt;

147.5.2. protokolu tərtib edən və tutulmanı aparan şəxsin soyadı, adı, atasının adı və vəzifəsi;

147.5.3. tutulan şəxsin soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, yaşadığı və qeydiyyatda olduğu yer, şəxsiyyətini təsdiq edən sənəd barədə məlumat;

147.5.4. tutulmanın aparıldığı yer, tarix və vaxt;

147.5.5. tutulmanın səbəbi, şübhənin və ya ittihamın mahiyyəti;

147.5.6. tutulan şəxsə onun hüquq və vəzifələrinin izah edilməsi haqqında qeyd.

147.6. Tutulma haqqında protokol onu tərtib edən vəzifəli şəxs, tutulan şəxs və tutulma haqqında protokolun imzalanması üçün tutulan şəxsə təqdim edilməsində iştirak etmiş müdafiəçi qismində dəvət edilmiş vəkil tərəfindən imzalanır.".

**3.** 156.1-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Qətimkan tədbirinin seçilməsi barədə qərarda şəxsin şübhəli bilindiyi və ya ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və müvafiq qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğuna dəlalət edən ilkin sübutlar göstərilməlidir.".

**4.** 158.2-ci maddədə "faktiki həbsə alındığı andan" sözləri "azadlığının faktiki məhdudlaşdırıldığı vaxtdan" sözləri ilə əvəz edilsin.

**5.** 222-ci maddə üzrə:

5.1. 222.1-222.3-cü maddələr aşağıdakı redaksiyalarda verilsin:

"222.1. İbtidai araşdırma məlumatlarının yayılması, bu Məcəllənin 222.2 və 222.6-cı maddələrində nəzərdə tutulmuş hallardan başqa, yolverilməzdir.

222.2. İbtidai araşdırma məlumatları cinayət prosesinin iştirakçıları və jurnalistlər tərəfindən yalnız müvafiq olaraq müstəntiqin, təhqiqatçının, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi ilə ibtidai araşdırmanın maraqlarına zidd olmayan və cinayət prosesinin digər iştirakçılarının hüquq və qanuni mənafelərini pozmayan həddə yayıla bilər.

222.3. Terrorçuluq cinayətləri, silahlı mütəşəkkil dəstələr tərəfindən törədilən cinayətlər üzrə davam edən ibtidai araşdırmanın məlumatlarının yayılmasına, habelə bu Məcəllənin 52-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərinin olduğu kimi yayılmasına icazə verilmir (cinayət prosesi iştirakçılarının bu Məcəllə ilə müəyyən edilən prosessual hüquqlarının təmin edilməsi ilə bağlı olan hallar istisna olmaqla).";

5.2. 222.4-cü maddəyə "yayılmasının" sözündən sonra ", o cümlədən bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda və qaydada əldə edilmiş prosessual sənədlərin surətlərinin prosessual məqsədlərdən kənar yayılmasının" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Belə xəbərdarlıq edilməmişdirsə, yayılması cinayətin açılmasına, cinayət törətmiş şəxsin tutulmasına, ibtidai araşdırmanın normal gedişinə mane ola bilən məlumatların yayılmasına görə cinayət prosesini həyata keçirən şəxs məsuliyyət daşıyır.";

5.3. Aşağıdakı məzmunda 222.6-cı və 222.7-ci maddələr əlavə edilsin:

"222.6. İctimai maraq kəsb etməsi, yanlış məlumatların yayılmasının qarşısının alınması və ya cinayətə görə məsuliyyətin labüdlüyünün nümayiş etdirilməsi ilə əlaqədar ibtidai araşdırma məlumatları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan tərəfindən bilavasitə və ya kütləvi informasiya vasitələri ilə açıqlana bilər. Bu zaman açıqlanan məlumat cinayət hadisəsi ilə bağlı əldə edilmiş ibtidai araşdırma nəticələrindən ibarət olmalı, davam edən ibtidai araşdırmanın maraqlarına, cinayət prosesinin digər iştirakçılarının şəxsi həyat toxunulmazlığı hüququna zidd olmayan həddə olmalı, təqsirsizlik prezumpsiyasına uyğun olaraq şübhəli və ya təqsirləndirilən şəxsin cinayətə aidiyyəti ilə bağlı hissədə onun cinayəti törətməkdə şübhəli bilinməsinə dair həddi keçməməlidir.

222.7. Yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə məlumatların açıqlanmasına yalnız həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı ilə yol verilir.".

**6.** 488-ci maddə üzrə:

6.1. 488.1-ci maddəyə "adlanacaq)" sözündən sonra "və ekstradisiya məsələləri" sözləri əlavə edilsin, "Azərbaycan Respublikasının Qanunu" sözləri "və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının qanunları" sözləri ilə əvəz edilsin;

6.2. 488.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"488.2. Hüquqi yardım göstərilməsinə dair və ekstradisiya haqqında Azərbaycan Respublikası ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə bu Məcəllənin, "Cinayət işlərinə dair hüquqi yardım haqqında" və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının qanunlarının müddəaları tətbiq edilir.".

**7.** Aşağıdakı məzmunda 489.3-cü və 489.4-cü maddələr əlavə edilsin:

"489.3. Azərbaycan Respublikasının ərazisində yaşayan, yaxud olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdiyi əməllərə görə xarici dövlət tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası üçün verilməsi və tranzit daşıma bu Məcəllənin 493-501-ci maddələri və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olaraq həyata keçirilir.

489.4. Xarici dövlətin səlahiyyətli hakimiyyət orqanının rəsmi müraciəti əsasında Azərbaycan Respublikası ərazisində cinayət təqibi bu Məcəllənin 502-504-cü maddələrinə uyğun olaraq həyata keçirilir.".

**8.** 493-cü maddə üzrə:

8.1. 493.2-ci maddədə "surəti" sözündən sonra "və əməlin cinayət olmasını, cinayət məsuliyyətinə cəlb etmə müddətlərini müəyyən edən cinayət qanununun maddələrinin mətni" sözləri əlavə edilsin;

8.2. 493.3-cü maddədə "və məhkuma tətbiq edilən cinayət qanunu müddəasının" sözləri ", onun məhkum edildiyi cinayəti və ittiham hökmünün icra müddətlərini müəyyən edən cinayət qanununun maddələrinin" sözləri ilə əvəz edilsin.

**9.** 495-ci maddə üzrə:

9.1. 495.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin şəxsin barəsində həbs qətimkan tədbiri Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanının vəsatəti və Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən müvafiq səlahiyyət verilmiş prokurorun təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən tətbiq edilə bilər.";

9.2. 495.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"495.2. Verilməsi üçün şəxsin həbsə alınması bu Məcəllənin 157-ci maddəsində nəzərdə tutulmuş qaydalara uyğun olaraq həyata keçirilir.".

9.3. 495.3-cü maddədə "Zəruri" sözü "Təxirəsalınmaz" sözü ilə əvəz edilsin.

9.4. aşağıdakı məzmunda 495.3-1-ci maddə əlavə edilsin:

"495.3-1. Rəsmi müraciət alınanadək şəxsin həbsə alınması barədə xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının vəsatəti olduqda və ya alınmış rəsmi müraciətə həbsə alma haqqında qərarın təsdiq edilmiş surəti əlavə olunmadıqda şəxsin verilməsi üçün həbsə alınması yalnız onun verilməsi üçün kifayət qədər ciddi əsasların mövcudluğunun məlum olduğu hallarda mümkündür.";

9.5. 495.5-ci maddədə "həbsə alınmış" sözləri "tutulmuş" sözü ilə, "442-454-cü" sözləri "449-451-ci" sözləri ilə əvəz edilsin;

9.6. Aşağıdakı məzmunda 495.6-cı, 495.7-ci və 495.8-ci maddələr əlavə edilsin:

"495.6. Şəxsin cinayət təqibinin həyata keçirilməsi məqsədi ilə verilməsi üçün həbsə alınmasından şikayət verməsi və ona baxılması ilə bağlı məsələlər bu Məcəllənin 452-453-cü maddələrində müəyyən edilmiş qaydada həyata keçirilir.

495.7. Verilməsi üçün tutulmuş və həbs edilmiş şəxs, barəsində prosessual məcburiyyət tədbirləri tətbiq edilən şəxsin bu Məcəllə ilə müəyyən edilmiş hüquqlarına malikdir.

495.8. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, verilməsi üçün şəxsin həbsə alınması müddəti bu Məcəllənin 158-ci maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilir. Bu müddət şəxsin verilməsinə dair rəsmi müraciətə əlavə edilmiş həbsə alma haqqında qərarda nəzərdə tutulan müddətdən çox ola bilməz. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, verilməsi üçün şəxsin həbsə alınması müddətinin uzadılması bu Məcəllənin 159-cu maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.".

**10.** 496-cı maddə üzrə:

10.1. 496.4.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 496.4.4-cü maddə əlavə edilsin:

"496.4.4. "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər hallarda.";

10.2. 496.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"496.5. Şəxsin verilməsi xahişi ilə müraciət etmiş xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanı şəxsin verilməsi üçün zəruri məlumatları təqdim etmədikdə, habelə "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər hallarda şəxsin verilməsindən imtina edilə bilər.".

**11.** 497-ci maddə üzrə:

11.1. 497.1-ci maddədə "Bu" sözü "Verilməsi məqsədi ilə tutulmuş şəxs tutulduğu andan 48 saat müddətində həbs edilmədikdə, yaxud bu" sözləri ilə, "onun tutulduğu andan 48 saat müddətində" sözləri "həmin müddətdə" sözləri ilə əvəz edilsin;

11.2. 497.2-ci maddədə "Bu Məcəllənin 495.1-ci maddəsinə əsasən verilməsi" sözləri "Verilməsi" sözü ilə əvəz edilsin, "qəbul etdikdə" sözlərindən sonra ", yaxud həbs qətimkan tədbirinin bu Məcəllə ilə müəyyən edilən müddəti başa çatdıqda və uzadılmadıqda" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1395-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 6, maddə 386; 2002-ci il, № 8, maddə 465; 2011-ci il, № 6, maddə 481) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci maddəyə "olmadıqda" sözündən sonra "və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə" sözləri əlavə edilsin.

**2.** 3-cü maddə üzrə:

2.1. 3.1.5-ci maddədə "çıxarıldıqda" sözü "və ya cinayət təqibinə xitam verilməsi haqqında qərar olduqda" sözləri ilə əvəz edilsin;

2.2. 3.1.8-ci maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.9-cu maddə əlavə edilsin:

"3.1.9. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə müvafiq olaraq cinayət xüsusi ittiham qaydasında (zərər çəkmiş şəxsin şikayəti əsasında) təqib edildiyi halda.";

2.3. 3.2.3-cü maddədə "məruz qalmasını" sözlərindən sonra "və ya ədalətli məhkəməyə olan hüququnun kobud surətdə pozulmasını" sözləri əlavə edilsin.

2.4. 3.2.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"3.2.7. sorğu edən xarici dövlətin qanunvericiliyinə əsasən şəxsin verilməsinə əsas olan cinayət üzrə dəyişdirilməz ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduqda.".

**3.** 6-cı maddə üzrə:

3.1. 6.1-ci maddədə "Respublikası cinayət-prosessual qanunvericiliyinə" sözləri "Respublikasının Cinayət-Prosessual Məcəlləsinə" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 6.4-cü maddə əlavə edilsin:

"6.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmədikdə, şəxsin verilməsi üçün həbsdə saxlanılma müddəti və həbsdə saxlanılma müddətinin uzadıldığı müddət Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir.".

**4.** 7-ci maddə üzrə:

4.1. maddənin adına "şəxsin" sözündən sonra "tutulması və" sözləri əlavə edilsin;

4.2. 7.1-ci maddədə "axtarışı" sözündən sonra ", tutulması" sözü əlavə edilsin, "cinayət-prosessual qanunvericiliyi" sözləri "Cinayət-Prosessual Məcəlləsi" sözləri ilə əvəz edilsin;

4.3. 7.2-ci maddədə "şəxsin" sözündən sonra "tutulması," sözü əlavə edilsin;

4.4. 7.3-cü maddədə "həbsə alınması və ya həbsə alınmasından" sözləri "tutulması, həbsə alınması və ya bundan" sözləri ilə əvəz edilsin.

**5.** 8.2-ci maddədə "cinayət-prosessual qanunvericiliyi" sözləri "Cinayət-Prosessual Məcəlləsi" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1397-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1159-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 354.2-ci maddədə "Çağırışçıların və hərbi vəzifəlilərin" sözləri "Vətəndaşların" sözü ilə əvəz edilsin.

**2.** 354.2.1-ci maddədə "hərbi vəzifəlilər" sözləri "vətəndaşlar" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1321-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 70-ci maddə ləğv edilsin.

**2.** 88-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 88-1. Torpaq sahəsinin məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi

88-1.1. Torpaq sahəsinin məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə –

fiziki şəxslər üç yüz manat miqdarında, vəzifəli şəxslər altı yüz manat miqdarında, hüquqi şəxslər üç min manat miqdarında cərimə edilir.

88-1.2. Bu Məcəllənin 88-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədilməsinə görə –

fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər min manat miqdarında, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilir.”.

**3.** 88-3-cü maddə üzrə:

3.1. dispozisiyasına “mühafizə zonalarındakı torpaq sahələri” sözlərindən sonra “, habelə kənd təsərrüfatı təyinatlı torpaqlar” sözləri əlavə edilsin;

3.2. sanksiyasında “altmış manatdan doxsan manatadək miqdarda” sözləri “min beş yüz manat miqdarında” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1337-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1139-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; 1993, № 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 378; 1998, № 1, maddələr 15, 16; 1999, № 4, maddə 228, № 5, maddə 286; 2001, № 6, maddələr 362, 363, № 11, maddə 694, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddələr 199, 212, № 7, maddə 507, № 8, maddə 596; 2005, № 10, maddə 871, № 12, maddə 1093; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 6, maddə 561, № 8, maddə 756, № 11, maddələr 1053, 1078; 2008, № 3, maddə 156, № 6, maddələr 462, 481, № 8, maddə 709, № 12, maddə 1048; 2010, № 3, maddə 171, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1333) 30-cu maddəsinin 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Birinci cümlədə "ümumi əsaslarla" sözləri "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

**2.** İkinci və üçüncü cümlələr çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1319-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ saylı Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"ni "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1159-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, №5, maddə 501) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 26-cı maddənin "b)" bəndi aşağıdakı redaksiyada verilsin:

"b) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidmətinə – xüsusi təyinatlı ali təhsil müəssisəsinə qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan vətəndaşlar, habelə zabit hərbi rütbəsi olmayan, xüsusi təyinatlı ali təhsil müəssisələrində oxumaq arzusunu bildirən 18 yaşından 23 yaşınadək hərbi qulluqçular və hərbi vəzifəlilər.".

**2.** 130-cu maddənin beşinci və 162-ci maddənin üçüncü hissələrində "hərbi uçotdan çıxarılmaqla" sözləri "həm dinc dövrdə, həm də müharibə dövründə" sözləri ilə əvəz edilsin.

**3.** 157-ci maddənin "b)" bəndi aşağıdakı redaksiyada verilsin:

"b) xəstəliyə görə – hərbi həkim komissiyaları tərəfindən həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsız sayıldıqda.".

**4.** 169-cu maddədə "hərbi uçotdan çıxarılanlardan" sözləri "həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsız sayılanlardan" sözləri ilə əvəz edilsin.

**5.** 173-cü maddədə "hərbi uçotdan çıxarılmaqla" sözləri "həm dinc dövrdə, həm də müharibə dövründə" sözləri ilə əvəz edilsin və həmin maddəyə "hərbi qulluqçular" sözlərindən sonra "hərbi qeydiyyatdan və" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1325-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512) 152.5-ci maddəsində "qanunvericiliklə və ya başqa şəkildə, o cümlədən müqavilə məhdudiyyətləri ilə" sözləri "qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1329-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11,

№ 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358) 56-cı maddəsinin 2-ci hissəsinin dördüncü cümləsinə "vətəndaşlarının mülkiyyətinə" sözlərindən sonra "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 9.8-ci maddəsi ilə müəyyən edilmiş məhdudiyyət nəzərə alınmaqla" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1330-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673; № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95; № 4, maddə 327; № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368; № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 45-ci maddənin mətni 45.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 45.2-ci maddə əlavə edilsin:

"45.2. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Bu cəza növünün digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır.".

**2.** 46.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"46.3. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növünün intizam xarakterli hərbi hissədə saxlama və ya azadlıqdan məhrum etmə cəzalarına əlavə olaraq təyin edildiyi hallarda, əlavə cəza əsas cəzanın çəkildiyi bütün müddətə və bundan əlavə, hökmdə bu cəza növü üçün müəyyən edilmiş müddətə şamil olunur. Bu cəza növünün digər əsas cəzalara əlavə olaraq təyin edildiyi hallarda, habelə şərti məhkum etmə zamanı əlavə cəzanın müddəti hökmün qanuni qüvvəyə mindiyi andan hesablanır.".

**3.** 69.4-cü maddədə "Məhkəmə baxışınadək həbsdə saxlanılan məhkuma" sözləri "Həbsdə saxlanılan şəxsə" sözləri ilə əvəz edilsin.

**4.** 78.1-ci maddənin birinci cümləsinə "cəzadan" sözündən əvvəl "qanuni qüvvəyə minmiş hökmlə təyin edilmiş" sözləri əlavə edilsin.

**5.** 92-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"92.0. Şərti məhkum etməyə görə məhkumluq istisna olmaqla, məhkumluğun bu Məcəllənin 83.3-cü maddəsində nəzərdə tutulmuş müddətləri cinayət törətmiş yetkinlik yaşına çatmayanlar üçün qısaldılır və aşağıdakı müddətlər keçdikdə məhkumluq ödənilmiş hesab edilir:

92.0.1. azadlıqdan məhrum etməyə nisbətən daha yüngül cəzanın çəkilib qurtardığı gündən altı ay;

92.0.2. böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən bir il;

92.0.3. ağır və ya xüsusilə ağır cinayət törətməyə görə azadlıqdan məhrum etmə növündə cəzanın çəkilib qurtardığı gündən üç il keçdikdə.".

**6.** 214.1-ci maddəyə "digər hərəkətlər" sözlərindən sonra "(terror aktı)" sözləri əlavə edilsin.

**7.** 277-ci maddənin adından "(terror aktı)" sözləri çıxarılsın.

**8.** 300-cü maddəyə "məlumatlarının yayılması" sözlərindən sonra "ibtidai araşdırmanın aparılmasına mane olduqda, yaxud" sözləri əlavə edilsin.

**9.** 315.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"315.1. Hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə-".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1396-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311,

№ 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258; № 4, maddələr 340, 344, 349, 353, 356, 360; № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 150-6-cı maddə əlavə edilsin:

"Maddə 150-6. Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin yoxlanılmasının və sürücülərinin tibbi müayinəsinin təşkil edilməməsi

Sərnişin və yük daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, həmin avtonəqliyyat vasitələrinin sürücülərinin reysqabağı və digər zəruri tibbi müayinəsinin təşkil edilməməsinə görə –

vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək miqdarda, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək miqdarda cərimə edilir.".

1.2. Aşağıdakı məzmunda 152.5–152.7-ci maddələr əlavə edilsin:

"152.5. Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan belə nəqliyyat vasitəsinin sərnişin daşımaqla idarə edilməsinə görə –

on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

152.6. Bu Məcəllənin 152.5-ci maddəsində nəzərdə tutulmuş xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə –

bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

152.7. Bu Məcəllənin 152.5-ci maddəsində nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə maddi zərər vurulmasına görə –

iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.".

1.3. Aşağıdakı məzmunda 152-1.5–152-1.7-ci maddələr əlavə edilsin:

"152-1.5. Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən belə nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə sərnişin daşımaqla idarə edilməsinə görə –

nəqliyyat vasitələrini idarə etmə hüququ iki il müddətinə məhdudlaşdırılmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

152-1.6. Bu Məcəllənin 152-1.5-ci maddəsində nəzərdə tutulmuş xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə –

nəqliyyat vasitələrini idarə etmə hüququ iki il müddətinə məhdudlaşdırılmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

152-1.7. Bu Məcəllənin 152-1.5-ci maddəsində nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə maddi zərər vurulmasına görə – nəqliyyat vasitələrini idarə etmə hüququ iki il müddətinə məhdudlaşdırılmaqla iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.".

1.4. Aşağıdakı məzmunda 152-2.4 və 152-2.5-ci maddələr əlavə edilsin:

"152-2.4. Ümumi istifadədə olan nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxs tərəfindən belə nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə sərnişin daşımaqla idarə edilməsinə görə –

bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

152-2.5. Bu Məcəllənin 152-2.4-cü maddəsində nəzərdə tutulmuş xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə, yaxud həmin xəta nəticəsində zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə maddi zərər vurulmasına görə –

iki aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.".

1.5. 152-3-cü maddə üzrə:

1.5.1. 152-3.3-cü maddədə "zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə" sözləri "zərər çəkən şəxsə fiziki və ya" sözləri ilə əvəz edilsin;

1.5.2. aşağıdakı məzmunda 152-3.4–152-3.6-cı maddələr əlavə edilsin:

"152-3.4. Ümumi istifadədə olan nəqliyyat vasitəsinin sərnişin daşınması üçün belə nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan şəxsə verilməsinə görə -

fiziki şəxslər iki yüz manat miqdarında, vəzifəli şəxslər beş yüz manat miqdarında, hüquqi şəxslər üç min manat miqdarında cərimə edilir.

152-3.5. Bu Məcəllənin 152-3.4-cü maddəsində nəzərdə tutulmuş xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə -

on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilir.

152-3.6. Bu Məcəllənin 152-3.4-cü maddəsində nəzərdə tutulmuş xətanın törədilməsi və yol hərəkəti qaydalarının pozulması nəticəsində zərər çəkən şəxsə fiziki və ya maddi zərər vurulmasına görə –

fiziki şəxslər dörd yüz manat miqdarında, vəzifəli şəxslər səkkiz yüz manat miqdarında cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər altı min manat miqdarında cərimə edilir.".

1.6. 152-4-cü maddə üzrə:

1.6.1. 152-4.3-cü maddədə "zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə" sözləri "zərər çəkən şəxsə fiziki və ya" sözləri ilə əvəz edilsin;

1.6.2. aşağıdakı məzmunda 152-4.4–152-4.6-cı maddələr əlavə edilsin:

"152-4.4. Ümumi istifadədə olan nəqliyyat vasitəsinin sərnişin daşınması üçün sərxoş vəziyyətdə olan şəxsə verilməsinə görə –

fiziki şəxslər üç yüz manat miqdarında, vəzifəli şəxslər altı yüz manat miqdarında, hüquqi şəxslər dörd min manat miqdarında cərimə edilir.

152-4.5. Bu Məcəllənin 152-4.4-cü maddəsində nəzərdə tutulmuş xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə –

fiziki şəxslər dörd yüz manat miqdarında, vəzifəli şəxslər səkkiz yüz manat miqdarında, hüquqi şəxslər altı min manat miqdarında cərimə edilir.

152-4.6. Bu Məcəllənin 152-4.4-cü maddəsində nəzərdə tutulmuş xətanın törədilməsi və yol hərəkəti qaydalarının pozulması nəticəsində zərər çəkən şəxsə fiziki və ya maddi zərər vurulmasına görə –

fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər min manat miqdarında, hüquqi şəxslər səkkiz min manat miqdarında cərimə edilir.".

1.7. 152-5-ci maddə üzrə:

1.7.1. 152-5.3-cü maddədə "zərər çəkən şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkən şəxsə" sözləri "zərər çəkən şəxsə fiziki və ya" sözləri ilə əvəz edilsin;

1.7.2. aşağıdakı məzmunda 152-5.4–152-5.6-cı maddələr əlavə edilsin:

"152-5.4. Ümumi istifadədə olan nəqliyyat vasitəsinin sərnişin daşınması üçün belə nəqliyyat vasitəsini idarə etmək hüququ olmayan və sərxoş vəziyyətdə olan şəxsə verilməsinə görə –

fiziki şəxslər altı yüz manat miqdarında, vəzifəli şəxslər min manat miqdarında, hüquqi şəxslər səkkiz min manat miqdarında cərimə edilir.

152-5.5. Bu Məcəllənin 152-5.4-cü maddəsində nəzərdə tutulmuş xətanın il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə –

bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər on iki min manat miqdarında cərimə edilir.

152-5.6. Bu Məcəllənin 152-5.4-cü maddəsində nəzərdə tutulmuş xətanın törədilməsi və yol hərəkəti qaydalarının pozulması nəticəsində zərər çəkən şəxsə fiziki və ya maddi zərər vurulmasına görə –

fiziki şəxslər min manat miqdarında, vəzifəli şəxslər iki min beş yüz manat miqdarında cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər on beş min manat miqdarında cərimə edilir.".

1.8. 166.3-cü maddə ləğv edilsin.

1.9. Aşağıdakı məzmunda 296-1.3-cü maddə əlavə edilsin:

"296-1.3. Bu Məcəllənin 296-1.1-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin aşkar surətdə iki və ya daha artıq nəqliyyat vasitəsinin iştirakı ilə sürət yarışı təşkil edərək yolda müəyyən edilmiş hərəkət sürəti həddini 60 km/saatdan artıq aşmaqla törədilməsinə görə –

nəqliyyat vasitələrini idarə etmə hüququ iki il müddətinə məhdudlaşdırılmaqla iki min manatdan dörd min manatadək miqdarda cərimə edilir və ya nəqliyyat vasitələrini idarə etmə hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.".

1.10. 360.1-ci maddədə "152.4" rəqəmləri "152.4-152.7" rəqəmləri ilə əvəz edilsin, "150-5.1," rəqəmlərindən sonra "150-6," rəqəmləri, "152-2," rəqəmlərindən sonra "152-3.5, 152-3.6, 152-5.5, 152-5.6," rəqəmləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2015-ci il dekabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1407-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə

953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 93.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"93.1. Məhkəmə aşağıdakı şəxslərə tibbi xarakterli məcburi tədbirlər təyin edir:

93.1.1. Bu Məcəllənin 93.2-ci maddəsində nəzərdə tutulmuş halda psixi pozuntusu olan şəxslərə;

93.1.2. cinayət törətmiş, alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə.".

**2.** Aşağıdakı məzmunda 93.1-1-ci maddə əlavə edilsin:

"93.1-1. Şəxsin psixi pozuntusu ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlər məhkəmə tərəfindən:

93.1-1.1. bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş əməli (hərəkət və ya hərəkətsizliyi) anlaqsız vəziyyətdə törətmiş şəxslərə;

93.1-1.2. cinayət törətdikdən sonra cəzanın təyin edilməsini və ya onun icrasını istisna edən psixi xəstəliyə düçar olmuş şəxslərə;

93.1-1.3. cinayət törətmiş və anlaqlılığı istisna etməyən psixi pozuntu vəziyyətində olan şəxslərə təyin edilir.".

**3.** Aşağıdakı məzmunda 93-1-ci maddə əlavə edilsin:

"Maddə 93-1. Alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi

93-1.1. Alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin məqsədi həmin şəxslərin müalicə olunması, səhhətinin və psixoloji vəziyyətinin yaxşılaşdırılması, ixtisaslaşdırılmış tibbi yardım və sosial qayğı göstərməklə onların normal həyat tərzinə qaytarılması, gələcəkdə həmin şəxslər tərəfindən insan psixikasına təsir göstərən maddələrdən sui-istifadənin və yeni cinayətlər törədilməsinin qarşısının alınmasından ibarətdir.

93-1.2. Alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxslərin müalicəsi Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.".

**4.** 93.2-ci, 93.4-cü və 94-cü maddələrdə "93.1.1-93.1.4-cü maddələrində" sözləri "93.1-1-ci maddəsində" sözləri ilə əvəz edilsin.

**5.** 94-cü maddənin adında və mətnində "Tibbi" sözü "Psixi pozuntusu olan şəxslərə tibbi" sözləri ilə əvəz edilsin.

**6.** 95-ci maddənin adında "Tibbi" sözü "Psixi pozuntusu olan şəxslərə təyin edilən tibbi" sözləri ilə əvəz edilsin.

**7.** 95.0-cı maddəyə "Məhkəmə" sözündən sonra "psixi pozuntusu olan şəxslərə" sözləri əlavə edilsin.

**8.** 98-ci və 99-cu maddələrin adında "Tibbi" sözü "Psixi pozuntusu olan şəxslərə təyin edilmiş tibbi" sözləri ilə əvəz edilsin.

**9.** 98.1-ci maddədə "Tibbi" sözü "Psixi pozuntusu olan şəxslərə təyin edilmiş tibbi" sözləri ilə, "vəsatəti" sözü isə "təqdimatı" sözü ilə əvəz edilsin.

**10.** 98.2-ci maddənin birinci cümləsində "Barəsində" sözü "Psixi pozuntusu ilə əlaqədar barəsində" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 oktyabr 2015-ci il
№ 1361-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, №

12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 519-cu maddənin adına "orqanların" sözündən sonra ", habelə tibbi xarakterli məcburi tədbirləri həyata keçirən müəssisələrin" sözləri əlavə edilsin.

**2.** 519.1.4-cü maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 519.1.5-ci maddə ləğv edilsin.

**3.** Aşağıdakı məzmunda 519.2-1-ci maddə əlavə edilsin:

"519.2-1. Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi məsələlərinə dair cəzaçəkmə müəssisəsinin və ya məcburi müalicəni həyata keçirən tibb müəssisəsinin müraciəti aşağıdakı qaydada həll edilir:

519.2-1.1. psixi pozuntusu olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin uzadılması, dəyişdirilməsi və ya ləğv edilməsi məsələlərinə məcburi müalicəni həyata keçirən tibb müəssisəsinin müdiriyyətinin təqdimatı və həkim-psixiatr komissiyasının rəyi nəzərə alınmaqla həmin tədbirlərin tətbiq edildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır;

519.2-1.2. ixtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicədə olan narkoloji xəstələrin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi və ya məcburi müalicə müddətinin uzadılması məsələlərinə məcburi müalicəni həyata keçirən müəssisənin müdiriyyətinin təqdimatı və həkim-məsləhət komissiyasının rəyi nəzərə alınmaqla müəssisənin yerləşdiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır;

519.2-1.3. cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumlar barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin ləğv edilməsi məsələsinə məcburi müalicəni həyata keçirən cəzaçəkmə müəssisəsinin müdiriyyətinin təqdimatı və həkim-məsləhət komissiyasının rəyi nəzərə alınmaqla cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 oktyabr 2015-ci il
№ 1363-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889) aşağıdakı məzmunda 17-1-ci maddə əlavə edilsin:

**"Maddə 17-1. Alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinin xüsusiyyətləri**

17-1.1. Azadlıqdan məhrum etmə ilə əlaqədar cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərin müalicəsi cəza çəkdiyi müddətdə cəzaçəkmə müəssisələri tərəfindən həyata keçirilir.

17-1.2. Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumların məcburi müalicəsinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

17-1.3. Cəzaçəkmə müəssisələrində cəza çəkən narkoloji xəstə məhkumlara təyin edilmiş məcburi müalicə kursu başa çatdıqda, müvafiq icra hakimiyyəti orqanının həkim-məsləhət komissiyası (bundan sonra – həkim-məsləhət komissiyası) aparılmış tibbi xarakterli məcburi tədbirlərin qiymətləndirilməsini həyata keçirir. Aparılmış tibbi xarakterli məcburi tədbirlərin həkim-məsləhət komissiyası tərəfindən qiymətləndirilməsi qaydası bu Məcəllənin 17-1.2-ci maddəsində nəzərdə tutulmuş qaydalarla müəyyən edilir.

17-1.4. Cəzaçəkmə müəssisəsində cəza çəkən narkoloji xəstə məhkumların səhhətinin və psixoloji vəziyyətinin yaxşılaşması səbəbindən barəsində təyin edilmiş tibbi xarakterli məcburi tədbirlərin davam etdirilməsinə olan zərurət aradan qalxdıqda, tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi məsələsi həkim-məsləhət komissiyasının tibbi rəyi əsasında məcburi müalicəni həyata keçirən cəzaçəkmə müəssisəsinin müdiriyyətinin təqdimatı ilə cəzanın çəkildiyi yer üzrə məhkəmə tərəfindən həll edilir.

17-1.5. Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərin müalicəsi müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan ixtisaslaşdırılmış tibb müəssisələri tərəfindən həyata keçirilir.

17-1.6. Şəxs azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, onun barəsində alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə tibbi xarakterli məcburi tədbirlər təyin edildikdə, məhkəmə bu barədə qanuni qüvvəyə minmiş qərarın surətini icra olunması üçün ixtisaslaşdırılmış tibb müəssisəsinə, habelə məcburi müalicənin icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir.

17-1.7. İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicə müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi şərtlərə və qaydalara uyğun aparılır.

17-1.8. İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicə barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilir.

17-1.9. İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicədə olan şəxsin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi və ya məcburi müalicə müddətinin uzadılması “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda məhkəmənin qərarı əsasında həyata keçirilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 oktyabr 2015-ci il
№ 1364-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12, I kitab, maddə 697; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281; 2014, № 11, maddə 1372) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.4-cü maddənin üçüncü cümləsinə “hökmü” sözündən sonra “, qətnaməsi və ya digər yekun qərarı” sözləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 21.1-1-ci maddə əlavə edilsin:

“21.1-1. İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə inzibati həbs tənbeh növü tətbiq edilərkən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən məcburi müalicə təyin edilir.”.

**3.** 21.2-1-ci maddəyə “Cinayət” sözündən sonra “və ya inzibati həbs nəzərdə tutan inzibati xəta” sözləri əlavə edilsin.

**4.** 22.1-ci maddəyə “cinayətlərin” sözündən sonra “, inzibati xətaların” sözləri əlavə edilsin.

**5.** 23.2-ci maddənin birinci cümləsində “və cəzaları icra edən müəssisələrdə” sözləri “, cəzaları icra edən müəssisələrdə və inzibati həbs yerlərində” sözləri ilə əvəz edilsin.

**6.** 23.3-cü maddədə “və cəzaları icra edən müəssisələrin” sözləri “, cəzaları icra edən müəssisələrin və inzibati həbs yerlərinin” sözləri ilə əvəz edilsin və “məhkum edilmiş” sözlərindən sonra “və barəsində inzibati həbs tənbeh növü tətbiq edilmiş” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 oktyabr 2015-ci il
№ 1365-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 26.3-1-ci maddə əlavə edilsin:

“26.3-1. İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə inzibati həbs tənbeh növü tətbiq edilərkən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəmə tərəfindən məcburi müalicə təyin edilir.”.

**2.** 26.4-cü maddəyə “Cinayət” sözündən sonra “və ya inzibati həbs nəzərdə tutan inzibati xəta” sözləri əlavə edilsin, “qanunvericiliyinə” sözü “Mülki Prosessual Məcəlləsinə” sözləri ilə əvəz edilsin.

**3.** 26.6-cı maddədə “Mülki Prosessual Məcəlləsi” sözlərindən sonra “, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi” sözləri əlavə edilsin.

**4.** 28-ci maddədə “narkoloji-tibb müəssisəsinin müdiriyyətinin təqdimatı və tibbi rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq yerli” sözləri “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 oktyabr 2015-ci il
№ 1366-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1215-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105; № 5, maddə 502, № 6, maddə 686) aşağıdakı dəyişikliklər edilsin:

**1.** İkinci fəslin adına “təmin edilməsi” sözlərindən sonra “və avtomobil yollarından istifadə edilməsi” sözləri əlavə edilsin.

**2.** 11-ci maddə üzrə:

2.1. IV hissədə:

2.1.1. 1-ci bəndə “örtüyü təkmilləşdirilmiş yollarda” sözlərindən sonra “avtomobil yollarını korlayan konstruksiya elementləri olan,” sözləri və mötərizədən sonra “, həmçinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən karxana avtomobillərinə aid edilmiş avtonəqliyyat vasitələrinin ümumi istifadədə olan avtomobil yolları ilə yüklə hərəkəti” sözləri əlavə edilsin;

2.1.2. 3-cü, 4-cü, 6-cı, 8-ci və 10-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

“3) yolların hərəkət hissəsinə yanacaq-sürtgü materialları, kimyəvi maddələr, bitum və beton axıdılması, habelə daş, çınqıl, qum və ot tökülməsi, yolu və təhkim zolağını zibilləyə bilən materialların və yüklərin müvafiq qaydada qablaşdırılmadan aparılması;

4) avtomobil yollarının körpü keçidlərində çayın məcrası boyu körpüdən hər tərəfə bir kilometr məsafədə yol fəaliyyətinə aid olmayan tikinti işlərinin aparılması, habelə torpaq və çınqıl kütləsinin götürülməsi;

6) avtomobil yollarının torpaq sahələrində mal-qaranın otarılması, respublika əhəmiyyətli avtomobil yolları ilə mal-qaranın aparılması, habelə avtomobil yollarının sahiblərinin razılığı olmadan müəyyən edilən yerlərdən kənar avtomobil yolundan və ya bu məqsədlə xüsusi olaraq yaradılmış keçidlərdən kənar mal-qaranın keçirilməsi;

8) avtomobil yollarının saxlanılması və təmiri ilə bağlı işlər istisna olmaqla, torpağın şumlanması, çimin çıxarılması və qruntun götürülməsi, oradakı otların biçilməsi, ağacların və digər yaşıllığın qırılması;

10) suvarma, sənaye, çirkab və kanalizasiya sularının avtomobil yoluna və yağış sularının avtomobil yolundan kənarlaşdırılması üçün tikilmiş kanalizasiya sisteminə, suyu kənara axıdan qurğulara və yolboyu torpaq sahəsinə axıdılması, avtomobil yollarının təhkim və qorunma (mühafizə) zolaqlarının, yol örtüyünün çirkləndirilməsi;”;

2.1.3. 11-ci bənd ləğv edilsin;

2.2. V hissədə:

2.2.1. 1-ci bəndə mötərizədən sonra “, yol hərəkətinin təhlükəsizliyinə mane olan şəraitin yaradılması və yolların hərəkət hissəsində, habelə yolların, yol qurğularının tikintisi və təmiri ilə əlaqədar olmayan yüklərin yüklənilməsi və ya boşaldılması” sözləri əlavə edilsin;

2.2.2. 2-ci bəndə “digər kommunikasiyaların çəkilməsi” sözlərindən sonra “, avtomobil yollarının torpaq sahələrində müvafiq işlərin həyata keçirilməsi üçün verilən razılığın şərtlərinə əməl edilməməsi” sözləri əlavə edilsin;

2.2.3. 4-cü bəndə “başqa üsullarla kəsilməsi” sözlərindən sonra “, habelə avtomobil yollarında nəqliyyat vasitələrinin və piyadaların hərəkətinə maneələr yaradılması” sözləri əlavə edilsin;

2.2.4. 5-ci bənddə “təhkim zolağında” sözləri “avtomobil yollarında” sözləri ilə əvəz edilsin və həmin bəndə “qurulması” sözündən sonra “bu Qanunun tələblərinə uyğun olmayan yol nişanlarının yerləşdirilməsinə, həmçinin “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydalar pozulmaqla, reklam və digər məlumat qurğularının yerləşdirilməsi” sözləri əlavə edilsin;

2.2.5. 8-ci bəndə “ticarət aparılması” sözlərindən sonra “, avtomobil yollarının tikintisi, saxlanılması, təmiri və yenidən qurulması ilə bağlı olmayan işlərin görülməsi, müvafiq icra hakimiyyəti orqanının xidməti tikililəri və qurğuları istisna olmaqla, avtomobil yollarının tikintisi, saxlanılması, təmiri, yenidən qurulması üçün nəzərdə tutulmayan bina və qurğuların yerləşdirilməsi” sözləri əlavə edilsin;

2.3. VI hissənin üçüncü cümləsinə “zərər dəydikdə,” sözlərindən sonra “yol örtüyü və yolun mühəndisi konstruksiyası zədələndikdə, avtomobil yoluna və ya yolda yerləşdirən qurğulara müdaxilə edildikdə,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1369-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Vətəndaşların müraciətləri haqqında

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə və 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir.

### Maddə 1. Müraciət etmək hüququ

1.1. Azərbaycan Respublikası vətəndaşlarının dövlət və bələdiyyə orqanlarına, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərə və büdcə təşkilatlarına və ya onların vəzifəli şəxslərinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququ vardır.

1.2. Vətəndaşlar müraciət etmək hüququnu sərbəst və könüllü həyata keçirirlər. Vətəndaşın öz müraciət hüququnu həyata keçirməsi digər şəxslərin hüquqlarını və azadlıqlarını pozmamalıdır.

1.3. İrqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnu məhdudlaşdırmaq qadağandır.

**Maddə 2. Vətəndaşların müraciətləri haqqında qanunvericilik**

Vətəndaşların müraciətləri haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

**Maddə 3. Əsas anlayışlar**

3.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

3.0.1. müraciət edən şəxs – fiziki və ya hüquqi şəxs;

3.0.2. müraciət – müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı (o cümlədən elektron) formada göndərilən (təqdim edilən) və ya şifahi formada edilən fərdi və ya kollektiv təklif, ərizə, şikayət;

3.0.3. təklif – qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, dövlət və bələdiyyə orqanlarının və digər müraciətə baxan subyektlərin fəaliyyətinin yaxşılaşdırılması, elm, təhsil, mədəniyyət, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciət;

3.0.4. ərizə – hüquq və azadlıqların həyata keçirilməsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət;

3.0.5. şikayət – pozulmuş hüquq və azadlıqların bərpası və müdafiəsi ilə bağlı tələbləri nəzərdə tutan müraciət;

3.0.6. müraciətə baxan subyekt – fiziki və hüquqi şəxslərin müraciətlərinə baxmaq və qərar qəbul etmək səlahiyyəti olan dövlət və bələdiyyə orqanları, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları;

3.0.7. müraciətə baxan subyektin canlı yayımlanan teleradio proqramındakı nümayəndəsi – müraciətə baxan subyektin razılığı ilə onu həmin proqramda təmsil edən vəzifəli şəxs;

3.0.8. müraciətə baxan subyektin vəzifəli şəxsi – müraciətə baxan subyektin rəhbəri, dövlət orqanında inzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri olan şəxs, digər müraciətə baxan subyektlərdə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işləyən və ya həmin vəzifələri xüsusi səlahiyyət əsasında həyata keçirən şəxslər;

3.0.9. şifahi müraciət – vətəndaşların fərdi və kollektiv qəbulu zamanı və ya müraciətə baxan subyektin nümayəndəsinin iştirakı ilə canlı yayımlanan teleradio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə edilən müraciət;

3.0.10. telefon müraciət xidməti – müraciət edənin şifahi müraciətinin qəbulunu, texniki vasitələrin köməyi ilə qeydiyyatını və cavablandırılmasını həyata keçirmək üçün yaradılmış rabitə xidməti;

3.0.11. yazılı müraciət – kağız üzərində və ya elektron formada tərtib edilmiş müraciət;

3.0.12. elektron müraciət – müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilən və ya rəsmi internet saytı vasitəsilə daxil edilən müraciət;

3.0.13. kollektiv müraciət – eyni məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti, yaxud ictimai iştirakçılığın həyata keçirilməsi ilə əlaqədar olan müraciətlər;

3.0.14. təkrar müraciət – müraciətin bu Qanunla müəyyən edilmiş baxılması müddəti ötdükdə və ya həmin müraciət cavablandırıldıqda eyni şəxsin eyni məsələ ilə bağlı eyni müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə göndərdiyi növbəti müraciət;

3.0.15. anonim müraciət – müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə vətəndaşın soyadı, adı, atasının adı, ünvanı, şəxsi və ya elektron imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadan yazılı formada göndərilən müraciət.

**Maddə 4. Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri**

4.0. Vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri aşağıdakılardır:

4.0.1. qanunçuluq;

4.0.2. vətəndaşların müraciət hüququnun sərbəst və könüllü həyata keçirməsinə şərait yaradılması;

4.0.3. müraciətlərə dair tələblərin vahidliyi;

4.0.4. fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması;

4.0.5. müraciətlərə baxılmasında ayrı-seçkiliyə və süründürməçiliyə yol verilməməsi;

4.0.6. müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin fəaliyyətində şəffaflığın təmin edilməsi;

4.0.7. vətəndaşların müraciət etmək hüququ ilə dövlət maraqlarının uzlaşdırılması.

**Maddə 5. Bu Qanunun tətbiq dairəsi**

5.1. Azərbaycan Respublikasının Konstitusiya qanunlarında, başqa qanunlarda, onların əsasında qəbul edilmiş digər normativ hüquqi aktlarda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları vətəndaşların bütün müraciətlərinə şamil edilir.

5.2. Bu Qanunun müddəaları vətəndaşların məhkəmə icraatı və ya inzibati icraat çərçivəsində etdikləri müraciətlərə şamil edilmir.

5.3. Hərbi qulluqçuların xidmətlə əlaqədar bilavasitə rəislərinə və ya böyük rəislərinə müraciət etmə və onlara baxılması qaydası Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi və İntizam Nizamnaməsi ilə tənzimlənir.

5.4. Referendumun və seçkilərin bilavasitə təşkili və keçirilməsi ilə əlaqədar müraciətlərin edilməsi və onlara baxılması qaydası Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir.

5.5. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) insan hüquqlarının pozulmasına dair şikayətlərin verilməsi və bu şikayətlərə baxılması qaydası "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir.

5.6. İnformasiya əldə edilməsi üçün sorğunun verilməsi və informasiya əldə edilməsi haqqında sorğuya baxılması

qaydası "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

5.7. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılması qaydası "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

5.8. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərə, habelə normativ hüquqi aktlar və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən özəl hüquqi şəxslərə və fərdi sahibkarlara müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydası bu Qanunla tənzimlənir.

5.9. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin müraciətlərinə şamil edilir.

**Maddə 6. Vətəndaşların müraciətlərinə dair tələblər**

6.1. Vətəndaşlar müraciətlərini həmin məsələyə baxılmasını bilavasitə təmin etməli olan müraciətə baxan subyektlərə və ya onların vəzifəli şəxslərinə yazılı formada təqdim edir və ya şifahi formada bildirirlər.

6.2. Yazılı müraciətlər şəxsən və ya nümayəndə vasitəsilə təqdim edilir və ya poçt, telefaks, yaxud bu Qanunun 6.7-ci maddəsində göstərilən qaydada göndərilir.

6.3. Yazılı müraciətdə aşağıdakılar göstərilir:

6.3.1. müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi (vəzifəli şəxsin elektron ünvanına göndərilən müraciətlər istisna olmaqla);

6.3.2. müraciət edən fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı (yaxud işlədiyi yer), hüquqi şəxsin adı və hüquqi ünvanı;

6.3.3. müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı.

6.4. Müraciət hüquqi şəxslərin firma rekvizitləri olan blankda göndərildiyi, yaxud fiziki şəxsin əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallar istisna olmaqla, bu Qanunun 6.3-cü maddəsinin tələblərinə cavab vermədikdə anonim sayılır. Anonim müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmir və onlara baxılmır.

6.5. Kağız üzərində yazılı müraciəti fiziki şəxs və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndəsi imzalamalı və tarix qoymalıdır.

6.6. Yazılı müraciət nümayəndə vasitəsilə təqdim edildikdə müraciətə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənədin surəti əlavə olunmalıdır.

6.7. Elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir. Müraciətə baxan subyektin rəsmi internet saytına daxil edilən müraciətdə vətəndaşın elektron və ya poçt ünvanı göstərilməlidir.

6.8. Elektron sənəd formasında göndərilən müraciət elektron imza ilə təsdiq olunmalıdır.

6.9. Müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. Müraciətin mətnində təhqir və böhtana yol verilməməlidir.

**Maddə 7. Vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası**

7.1. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri bu Qanunla müəyyən edilmiş qaydada verilən yazılı müraciətləri mütləq qəbul etməli, qeydiyyata almalı və onlara baxılmasını təmin etməlidirlər. Bu Qanunun tələblərinə uyğun olaraq verilən müraciəti qəbul etməkdən imtina qadağandır.

7.2. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılır və müraciətə baxan subyektin rəhbəri tərəfindən təmin edilir.

7.3. Müraciətə baxan subyektlərin müraciətlərin qəbul edilməsi və cavablandırılması işini habelə elektron formada həyata keçirmək hüququ vardır.

7.4. Vətəndaşın müraciətinə onun daxilolma tarixi və qeydiyyat nömrəsi qoyulur. Müraciət edən şəxsin tələbi ilə ona müraciətin qeydiyyat nömrəsi, tarixi və onun icraçısına dair məlumat bildirilir.

7.5. Müraciətdə göstərilən məsələyə baxıldıqda və bu barədə vətəndaşa (kollektiv müraciətlərdə – müraciət edən şəxslərdən birinə) əsaslandırılmış cavab verildikdə müraciət baxılmış hesab olunur. Müraciətə dövlət dilində cavab verilir.

7.6. Elektron müraciətlərə müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən müraciət edənin göstərdiyi elektron ünvan vasitəsilə elektron qaydada və ya müraciət edənin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı cavab verilməklə baxılır. Elektron müraciətdə müraciət edənin elektron ünvanı göstərilmədikdə müraciətə poçt vasitəsilə yazılı cavab verilir.

7.7. Vətəndaşın müraciətinə baxılmasına dair cavab məktubunda müraciətdə göstərilən məsələlərin araşdırılması və görülən tədbirlər və ya həmin məsələlərlə bağlı aidiyyəti üzrə müraciət edilməli subyekt göstərilməlidir.

7.8. Müraciətin baxılmamış saxlanılması, qismən təmin edilməsi və ya rədd edilməsi barədə qərar qəbul olunduqda, müraciət edənə cavab məktubunda həmin qərardan şikayət verilməsi qaydası izah edilir.

7.9. Müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciətdə göstərilən məsələnin həlli ilə əlaqədar əlavə məlumatların öyrənilməsi üçün aidiyyəti üzrə sorğu göndərdikdə həmin sorğuya yeddi iş günündən gec olmayaraq cavab verilməlidir.

7.10. Müraciətə baxan subyektlər və ya onların vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələlərin həlli onların səlahiyyətinə aid olmadıqda, müraciəti üç iş günündən gec olmayaraq aidiyyəti üzrə göndərir və müraciət edənə bu barədə məlumat verir. Müraciətdə göstərilən məsələ bir neçə müraciətə baxan subyektin səlahiyyətinə aid edildikdə müraciətin surəti üç iş günündən gec olmayaraq həmin subyektlərə göndərilir.

7.11. Yuxarı dövlət orqanı vətəndaşların müraciətlərini baxılmaq üçün aidiyyəti dövlət və bələdiyyə orqanlarına və ya digər müraciətə baxan subyektə göndərdikdə həmin müraciətə baxılmanın nəticəsi barədə yuxarı dövlət orqanının tələbi ilə müraciətə baxan subyektin rəhbəri tərəfindən ona məlumat verilməlidir.

7.12. Vətəndaşın müraciətində göstərilən məsələlər "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa

uyğun olaraq dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edildikdə müraciətin bu səbəbdən mahiyyəti üzrə cavablandırılmasının mümkünsüzlüyü barədə müraciət edənə məlumat verilir.

7.13. Vətəndaşların müraciətlərini aidiyyəti üzrə baxılmaq üçün qanunazidd hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən müraciətə baxan subyektə və ya onun vəzifəli şəxslərinə göndərmək qadağandır.

7.14. Bu Qanunun 7.13-cü maddəsi ilə müəyyən edilmiş qadağaya görə vətəndaşın müraciətini aidiyyəti üzrə göndərmək mümkün olmadıqda vətəndaşa qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ izah olunur.

**Maddə 8. Müraciətin baxılmamış saxlanılması**

8.1. Müraciət aşağıdakı hallarda baxılmamış saxlanılır:

8.1.1. bu Qanunun 5-ci maddəsinə uyğun olaraq müraciətin edilməsi və ona baxılması üçün başqa qayda nəzərdə tutulduqda;

8.1.2. müraciət bu Qanunun 6.4-6.9-cu maddələrində göstərilən tələblərə cavab vermədikdə;

8.1.3. müraciətdə göstərilən məsələ ilə əlaqədar məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

8.1.4. vətəndaşın təkrar müraciətlərinə bir il ərzində 3 dəfə mahiyyəti üzrə əsaslandırılmış cavab verildikdə və təkrar müraciətdə məsələnin həlli üçün yeni məlumatlar olmadıqda;

8.1.5. bu Qanunun 7.9-cu maddəsində göstərilən hallarda müraciətin aidiyyəti üzrə göndərilməsi mümkün olmadıqda və ya müraciətdə olan məlumatlar onun həlli və ya aidiyyəti üzrə göndərilməsi üçün kifayət etmədikdə;

8.1.6. müraciət etmiş şəxs bu Qanunun 14.0.2-ci maddəsinə uyğun olaraq ərizə ilə müraciət etdikdə.

8.2. Bu Qanunun 8.1-ci maddəsində göstərilən hallarda müraciətə baxan subyekt və ya onun vəzifəli şəxsi müraciət edən şəxsə səbəblər göstərilməklə müraciətin (anonim müraciət istisna olmaqla) baxılmamış saxlanılması barədə beş iş günündən gec olmayaraq, şifahi müraciətin baxılmamış saxlanılması üçün əsas olduqda isə dərhal məlumat verir.

8.3. Müraciətin baxılmamış saxlanmasına əsas verən hallar aradan qaldırıldıqda müraciətə baxan subyekt ona baxılmanı təmin etməlidir.

**Maddə 9. Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə baxılmasının xüsusiyyətləri**

9.1. Dövlət orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə, bu maddənin xüsusiyyətləri nəzərə alınmaqla, bu Qanuna müvafiq olaraq baxılır.

9.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciət daxil olduqda dövlət orqanının rəhbəri müraciət üzrə xidməti araşdırma təyin edir. Xidməti araşdırmanı müvafiq dövlət orqanında daxili nəzarət xidməti aparır. Xidməti araşdırma 20 iş günü müddətində başa çatdırılmalı və nəticəsi barədə məlumat dövlət orqanının rəhbərinə təqdim olunmalıdır. Əlavə materialların və məlumatların əldə edilməsi tələb olunduqda dövlət orqanı rəhbərinin bu müddəti 10 iş günü uzatmaq hüququ vardır.

9.3. Dövlət orqanının rəhbəri xidməti araşdırmanın nəticəsi barədə məlumatı aldıqdan sonra müraciət üzrə aşağıdakı qərarlardan birini qəbul edir:

9.3.1. müraciətin əsaslı olduğu təsdiq edildikdə, eyni zamanda əməldə mülki-hüquqi və ya inzibati məsuliyyəti yaradacaq əlamətlər olduqda Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülməsi, cinayət əlamətləri olan hüquqpozmalar aşkar edildikdə, müvafiq sənədlərin Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi barədə;

9.3.2. müraciətin əsaslı olması təsdiq edildikdə, lakin əməldə mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaradacaq əlamətlər olmadıqda aidiyyəti şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə;

9.3.3. müraciətin əsaslı olduğu təsdiq edilmədikdə şikayət üzrə icraata xitam verilməsi barədə.

9.4. Müraciət etmiş şəxsə qəbul olunmuş qərar haqqında əsaslandırılmış cavab verilməklə həmin qərardan şikayət etmək hüququ izah olunur.

9.5. Vətəndaşın dövlət orqanı rəhbərinin qərarından yuxarı dövlət orqanına şikayət vermək hüququ vardır. Bu müddəa vətəndaşın dövlət orqanı rəhbərinin qərarından məhkəməyə şikayət vermək hüququnu məhdudlaşdırmır.

9.6. Dövlət orqanları istisna olmaqla, digər müraciətə baxan subyektlərdə korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə müraciətlərə bu Qanunun 7-ci maddəsində müəyyən edilmiş qaydada 20 iş günü müddətində baxılır.

**Maddə 10. Müraciətə baxılması müddəti**

10.1. Bu Qanunun 9.2-ci, 9.6-cı və 10.2-10.4-cü maddələrində göstərilən hallar istisna olmaqla, vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır.

10.2. Bu Qanunun 9.2-ci, 9.6-cı, 10.3-cü və 10.4-cü maddələrində göstərilən hallar istisna olmaqla, müraciətə baxılması üçün əlavə məlumatların əldə edilməsi və ya aidiyyəti üzrə sorğu göndərilməsi tələb edildikdə, müraciətə baxan subyektin vəzifəli şəxsinin müraciətə baxılması müddətini ən çoxu 30 iş günü uzatmaq hüququ vardır. Bu barədə müraciət edən vətəndaşa, habelə müraciəti baxılmaq üçün bu Qanunun 7.11-ci maddəsinə uyğun olaraq digər müraciətə baxan subyektə göndərmiş yuxarı dövlət orqanına onun tələbi ilə məlumat verilməlidir.

10.3. Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətlərinə daxil olduğu gündən etibarən ən geci 15 iş günü ərzində baxılır.

10.4. Əgər məlumatın verilməsi barədə müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda, müraciətin daxil olduğu andan 24 saat keçənədək baxılmalıdır.

10.5. Bu Qanunun 10.1-10.3-cü maddələrində göstərilən müddətlərin axımı müraciətin müraciətə baxan subyektə daxil olduğu gündən başlanır.

**Maddə 11. Vətəndaşların qəbul edilməsi qaydası**

11.1. Müraciətə baxan subyektlər vətəndaşların qəbul edilməsini vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ayda bir dəfədən az olmamaqla təmin etməlidirlər.

11.2. Vətəndaşları müraciətə baxan subyektlərin rəhbərləri və ya digər vəzifəli şəxsləri qəbul edirlər.

11.3. Vətəndaşlar əvvəlcədən məlumat verilən günlərdə və saatlarda qəbul edilməlidirlər. Vətəndaşın müraciəti ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi tələb edildikdə müraciətə baxan subyektin rəhbəri və ya digər vəzifəli şəxsləri onları dərhal qəbul etməlidirlər.

11.4. Vətəndaş şəxsiyyətini təsdiq edən sənəd və ya şəxsiyyətini müəyyən edən rekvizitlər və ya elektron imza olduqda elektron xidmətlər vasitəsilə qəbula yazılır. Qəbula gəlmiş vətəndaş şəxsiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

11.5. Qəbul zamanı təqdim edilmiş yazılı müraciət bu Qanunun 7-ci maddəsinə uyğun olaraq qəbul edilir, qeydiyyata alınır və ona baxılır.

11.6. Vətəndaşın şifahi müraciəti ilə bağlı qəbula dair qeydiyyat-nəzarət vərəqəsində qeyd aparılır. Şifahi müraciətdəki məsələlərin həlli əlavə araşdırma aparılmasını tələb etmədikdə vətəndaşın razılığı ilə müraciət qəbul zamanı şifahi qaydada cavablandırılır. Qəbul zamanı vətəndaşın müraciətini şifahi qaydada cavablandırmaq mümkün olmadıqda müraciət yazılı şəkildə təqdim olunur. Belə müraciətin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası bu Qanunun 11.5-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

11.7. Vətəndaşın qəbulu zamanı onun müraciətində qaldırılan məsələnin digər müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin səlahiyyətinə aid olduğu aşkar edilərsə, müraciət edən şəxsə aidiyyəti üzrə müraciət etmə qaydası izah olunur.

11.8. Müraciətə baxan subyektlərin rəhbərlərinin və digər vəzifəli şəxslərinin səyyar və videoqəbullar, o cümlədən onlayn konfranslar keçirmək hüququ vardır. Bu cür qəbul zamanı təqdim edilən müraciətlərin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası bu maddəyə uyğun olaraq həyata keçirilir.

**Maddə 12. Müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin vəzifələri**

12.1. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilən və təminat verilən qaydada vətəndaşların yazılı və şifahi formada təkliflər vermək, ərizə ilə müraciət etmək, vəzifəli şəxslərin qanunazidd hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək hüquqlarının sərbəst həyata keçirilməsi üçün şərait yaradılmasını təmin etməlidirlər.

12.2. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri vətəndaşların təkliflərini, ərizə və şikayətlərini qəbul etməli, onlara bu Qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxmalı və cavab verməlidirlər.

12.3. Müraciətə baxan subyektlərin vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə baxarkən:

12.3.1. müraciətə obyektiv, hərtərəfli və vaxtında baxılmasını təmin etməlidirlər;

12.3.2. məsələnin mahiyyətini öyrənməli və onun həlli üçün lazımi sənədləri tələb etməlidirlər;

12.3.3. müraciətə baxılmasının nəticəsi haqqında vətəndaşlara yazılı formada məlumat verməli, müraciət təmin edilmədikdə bunun səbəblərini göstərməli, şikayət vermək qaydasını izah etməlidirlər;

12.3.4. müraciətlər barəsində əsaslandırılmış qərarların qəbul edilməsini və bu qərarların vaxtında və düzgün yerinə yetirilməsini təmin etməlidirlər.

12.4. Dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətinin və ya işinin tənqid edilməsi ilə bağlı, yaxud vətəndaşın və ya digər şəxslərin hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədi ilə edilən müraciətə görə vətəndaşı təqib etmək qadağandır.

12.5. Müraciətlərə baxılması zamanı müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin müraciətdəki məsələlərin həlli ilə əlaqədar əldə olunmuş məlumatları, o cümlədən dövlət sirri təşkil edən və qanunla qorunan digər məlumatları yayması (yazılı müraciətin aidiyyəti üzrə baxılması üçün digər müraciətə baxan subyektlərə və onların vəzifəli şəxslərinə göndərilməsi istisna olmaqla), eləcə də müraciətin həlli ilə bağlı olmayan fərdi məlumatların, o cümlədən xüsusi kateqoriyalı fərdi məlumatların toplanılması, saxlanılması, istifadəsi və yayılması qadağandır.

12.6. Dövlət orqanının (və ya onun vəzifəli şəxsinin) qanunazidd hərəkəti (hərəkətsizliyi) barədə prokurorluq orqanlarına daxil olmuş müraciətlərə bu Qanuna və "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq baxılır. Bu cür müraciətlər prokurorluq orqanlarının səlahiyyətlərinə aid olmadıqda onlar beş iş günü müddətində müraciət edən şəxsə qaytarılır. Vətəndaşın müraciəti müraciətə baxan subyekt (və ya onun vəzifəli şəxsi) tərəfindən aidiyyəti üzrə baxılması üçün prokurorluq orqanına göndərildikdə həmin subyektə (və ya onun vəzifəli şəxsinə) onun xahişi ilə baxılmanın nəticəsi barədə məlumat verilir.

12.7. Azərbaycan Respublikasının Baş prokuroru bu Qanunun 12.6-cı maddəsində göstərilən müraciətlərə baxılmasının nəticələri barədə altı ayda bir dəfədən az olmayaraq müvafiq icra hakimiyyəti orqanına məlumat verir.

**Maddə 13. Nəzarətin həyata keçirilməsi**

13.1. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlıq işinin aparılmasına nəzarəti müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

13.2. Bu Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş nəzarətin həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

**Maddə 14. Müraciətlərə baxılması zamanı vətəndaşların hüquqları**

14.0. Müraciətinə baxılan vətəndaşın aşağıdakı hüquqları vardır:

14.0.1. müraciətin tam və hərtərəfli araşdırılması üçün əlavə sənəd və materiallar təqdim etmək və ya bu sənədlərin əldə edilməsini (o cümlədən elektron formada) müraciətə baxan subyektdən xahiş etmək;

14.0.2. müraciətə baxılmasının dayandırılması barədə ərizə ilə müraciət etmək;

14.0.3. təkrar yazılı müraciətə ilkin müraciətə baxılmasının nəticəsi barədə sənədləri əlavə etmək;

14.0.4. ictimai informasiya və fərdi məlumatların əldə edilməsi məqsədi ilə sorğu vermək;

14.0.5. müraciətin baxılmasına dair sənədlərin və materialların digər şəxslərin hüquqlarına və qanuni mənafelərinə toxunmaması və ya qanunla dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edilməməsi şərti ilə həmin sənəd və materiallarla tanış olmaq;

14.0.6. müraciətin qeydiyyat nömrəsi və daxilolma tarixi barədə, müraciət aidiyyəti üzrə göndərildikdə həmin məktubun qeydiyyat nömrəsi və göndərilmə tarixi barədə məlumat almaq;

14.0.7. müraciətə baxılması barədə yazılı cavab və ya müraciətin aidiyyəti üzrə göndərilməsinə dair məlumat almaq;

14.0.8. müraciət barəsində qəbul edilmiş qərarla razılaşmadıqda həmin qərardan inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermək;

14.0.9. müraciətin məzmununda vətəndaşın ailə və şəxsi həyatına aid sirr olan, habelə peşə və ya kommersiya sirri olan sənədlərin və ya məlumatların məxfiliyinin təmin olunmasını tələb etmək.

**Maddə 15. Canlı yayımlanan teleradio proqramları və ya telefon müraciət xidməti vasitəsilə edilən şifahi müraciətlərin xüsusiyyətləri**

15.1. Canlı yayımlanan teleradio proqramları vasitəsilə edilən şifahi müraciət üzrə əlavə araşdırma aparmadan izah verilməsi mümkün olduqda müraciətə baxan subyektin həmin proqramda iştirak edən nümayəndəsinin qeydiyyat aparmadan müraciəti canlı yayımda cavablandırmaq hüququ vardır.

15.2. Vətəndaşların canlı yayımlanan teleradio proqramları zamanı edilən müraciətlərinin dərhal cavablandırılması mümkün olmadıqda müraciətin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası bu Qanunun 7-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

15.3. Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması bu Qanunun tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 16. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 17. Yekun müddəa**

“Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 417; 1998, № 7, maddə 444; 1999, № 10, maddə 570; 2001, № 3, maddə 151, № 11, maddə 697, № 12, maddə 736; 2002, № 8, maddə 463; 2004, № 1, maddə 10; 2006, № 5, maddə 390, № 12, maddə 1005; 2007, № 11, maddə 1053; 2010, № 3, maddə 173; 2011, № 7, maddə 615) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1308-IVQ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ saylı Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”ni “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1159-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, №5, maddə 501) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 26-cı maddənin “b)” bəndi aşağıdakı redaksiyada verilsin:

“b) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidmətinə – xüsusi təyinatlı ali təhsil müəssisəsinə qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan vətəndaşlar, habelə zabit hərbi rütbəsi olmayan, xüsusi təyinatlı ali təhsil

müəssisələrində oxumaq arzusunu bildirən 18 yaşından 23 yaşınadək hərbi qulluqçular və hərbi vəzifəlilər.".

**2.** 130-cu maddənin beşinci və 162-ci maddənin üçüncü hissələrində "hərbi uçotdan çıxarılmaqla" sözləri "həm dinc dövrdə, həm də müharibə dövründə" sözləri ilə əvəz edilsin.

**3.** 157-ci maddənin "b)" bəndi aşağıdakı redaksiyada verilsin:

"b) xəstəliyə görə – hərbi həkim komissiyaları tərəfindən həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsız sayıldıqda.".

**4.** 169-cu maddədə "hərbi uçotdan çıxarılanlardan" sözləri "həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsız sayılanlardan" sözləri ilə əvəz edilsin.

**5.** 173-cü maddədə "hərbi uçotdan çıxarılmaqla" sözləri "həm dinc dövrdə, həm də müharibə dövründə" sözləri ilə əvəz edilsin və həmin maddəyə "hərbi qulluqçular" sözlərindən sonra "hərbi qeydiyyatdan və" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1325-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6,

maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) aşağıdakı məzmunda 181-6-cı maddə əlavə edilsin:

"Maddə 181-6. Dövlət sirri ilə işləməyə buraxılışı olmayan şəxsin dövlət sirrindən istifadə ilə bağlı vəzifəyə təyin edilməsi

Dövlət sirri ilə işləməyə buraxılışı olmayan şəxsin dövlət sirrindən istifadə ilə bağlı vəzifəyə təyin edilməsinə görə -

vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək miqdarda, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək miqdarda cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1360-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, №

8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 37-1-ci maddə əlavə edilsin:

"Maddə 37-1. İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin məcburi müalicəyə cəlb olunması

37-1.1. İnzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə inzibati həbs tənbeh növü tətbiq edilərkən məhkəmə tərəfindən onlara məcburi müalicə təyin edilir və inzibati həbs növündə inzibati tənbeh çəkilib qurtardıqdan sonra icra olunur.

37-1.2. Məcburi müalicənin tətbiq edilməsinin məqsədi bu Məcəllənin 37-1.1-ci maddəsində göstərilən şəxslərin müalicə olunması, səhhətinin və psixoloji vəziyyətinin yaxşılaşdırılması, ixtisaslaşdırılmış tibbi yardım və sosial qayğı göstərməklə onların normal həyat tərzinə qaytarılması, gələcəkdə həmin şəxslər tərəfindən insan psixikasına təsir göstərən maddələrdən sui-istifadənin və yeni inzibati xətalar törədilməsinin qarşısının alınmasından ibarətdir.

37-1.3. Barəsində inzibati həbs tənbeh növü tətbiq edilməklə yanaşı, tibbi yoxlama nəticəsinə əsasən narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər inzibati həbs tənbeh növünü çəkib qurtardıqdan sonra müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan ixtisaslaşdırılmış tibb müəssisəsində müalicə olunurlar.

37-1.4. Şəxs barəsində narkomaniyadan məcburi müalicə təyin edildikdə, məhkəmə bu barədə qanuni qüvvəyə minmiş qərarının surətini icra olunması üçün ixtisaslaşdırılmış tibb müəssisəsinə, habelə məcburi müalicənin icrasına nəzarət edilməsi üçün icra məmuruna göndərir.

37-1.5. Barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxs inzibati həbs müddətinin başa çatdığı gün inzibati həbs yerinin nümayəndəsinin müşayiəti ilə məcburi müalicənin həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisəsinə təhvil verilir.

37-1.6. İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicə müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi şərtlərə və qaydalara uyğun aparılır.

37-1.7. İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicə barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilir.

37-1.8 İxtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicədə olan şəxsin məcburi müalicədən vaxtından əvvəl azad edilməsi və məcburi müalicə müddətinin uzadılması "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda həmin müəssisənin müdiriyyətinin təqdimatı və həkim-məsləhət komissiyasının rəyi nəzərə alınmaqla, müəssisənin yerləşdiyi yer üzrə məhkəmənin qərarı əsasında həyata keçirilir.".

**2.** 426.2-ci maddədə "məsələsi" sözü ", həmçinin inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan barəsində məcburi müalicənin təyin edilməsi məsələləri" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1362-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 28 oktyabr tarixli 1085-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, №

11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) 348-1.0.4-cü maddəsində "ərizə və ya vəsatətlərinin" sözləri "ərizə, şikayət və ya vəsatətlərinin" sözləri ilə əvəz edilsin və həmin maddədən "sənədin və ya" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1376-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1136-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6,

maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) 162-ci maddəsinin adında və dispozisiyasında "saxlanılması" sözündən sonra ", qorunması" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1367-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104; 2013, № 11, maddə 1274; 2014, № 2, maddə 81, № 10, maddə 1159, № 11, maddə 1361) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.0.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin, aşağıdakı məzmunda 1.0.15-ci, 1.0.16-cı və 1.0.17-ci maddələr əlavə edilsin:

"1.0.15. aktivlər – əldə edilmə üsulundan asılı olmayaraq, istənilən növ maddi və qeyri-maddi əmlak nemətləri, daşınar və ya daşınmaz əmlak, poçt

göndərişləri, bank kreditləri, akkreditivlər, yol çekləri, bank çekləri, istiqrazlar, veksellər, səhmlər və digər qiymətli kağızlar, habelə bu cür aktivlərə olan hüquqları təsdiq edən elektron və ya hər hansı digər formada tərtib olunan hüquqi sənədlər və ya aktlardır;

1.0.16. aktivlərin dondurulması – aktivlərin həcminin, məbləğinin, yerinin, xarakterinin, təyinatının və bu aktivlərə mülkiyyət və sahiblik hüquqlarının dəyişməsi ilə nəticələnən, aktivlərin konversiyasının, köçürülməsinin, onlara sərəncam verilməsinin və ya onlarla hər hansı formada maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsinin qadağan edilməsidir;

1.0.17. terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslər – terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə əsasən barəsində sanksiyalar tətbiq edilməli olan və siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təsdiq edilmiş fiziki və ya hüquqi şəxslərdir.";

**2.** 7.2.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.2.5. terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin, habelə bu şəxslərin sahibliyində və ya nəzarətində olan hüquqi şəxslərin, o cümlədən bu şəxslərin adından və ya onların tapşırığı ilə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin aktivləri və həmin aktivlərlə əməliyyatlar.";

**3.** 7.3-cü maddədən "və bu Qanunun 7.2.5-ci maddəsində göstərilən şəxslərin siyahısı" sözləri çıxarılsın;

**4.** Aşağıdakı məzmunda 7.3-1-ci və 7.3-2-ci maddələr əlavə edilsin:

"7.3-1. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin siyahısı Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən ölkədaxili siyahıdan və Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qətnamələrinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən beynəlxalq siyahıdan ibarətdir. Hər iki siyahı müəyyən edildikdən sonra maliyyə monitorinqi orqanı tərəfindən təsdiq olunur, dərhal onun rəsmi internet səhifəsində yerləşdirilir, birbaşa və ya müvafiq nəzarət orqanları vasitəsilə monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə göndərilir.

7.3-2. Müvafiq icra hakimiyyəti orqanının şəxsin terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin siyahısına daxil edilməsi barədə qərarından Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.";

**5.** 11.4-cü maddədə "7.2-ci" sözləri "7.2.1-7.2.4-cü" sözləri ilə əvəz edilsin;

**6.** Aşağıdakı məzmunda 11.4-1-ci maddə əlavə edilsin:

"11.4-1. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin siyahısı maliyyə monitorinqi orqanının rəsmi internet səhifəsində yerləşdirildiyi vaxtdan monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər bu Qanunun 7.2.5-ci maddəsində nəzərdə tutulmuş şəxslərin aktivlərinin həmin şəxslərə xəbərdarlıq etmədən təxirəsalınmadan dondurulması üzrə tədbirlər görməli və bu barədə dərhal maliyyə monitorinqi orqanına məlumat verməlidirlər. Maliyyə monitorinqi orqanına məlumat verildiyi vaxtdan iki iş günü ərzində aktivlərin dondurulması barədə maliyyə monitorinqi orqanının qərarı daxil olmazsa aktivlərin dondurulması üzrə tədbirlər ləğv edilir.";

**7.** Aşağıdakı məzmunda 11-1-ci maddə əlavə edilsin:

"Maddə 11-1. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması tədbirlərinin əhatə dairəsi

11-1.1. Bu Qanunun 7.2.5-ci maddəsində nəzərdə tutulmuş fiziki və ya hüquqi şəxsin birbaşa və ya dolayısı ilə sərəncamında, sahibliyində və ya istifadəsində olan, yaxud həmin şəxsin mülkiyyətində, o cümlədən ümumi mülkiyyətində (birgə və ya paylı) olan, həmin şəxs tərəfindən idarə və ya nəzarət olunan aktivlər, habelə belə əmlak vasitəsi ilə əldə edilmiş digər aktivlər dondurulmalıdır.

11-1.2. Bu Qanunun 7.2.5-ci maddəsində nəzərdə tutulmuş fiziki və hüquqi şəxslərin aktivləri həmin aktivlərin hər hansı terrorçuluq və ya terrorçuluğun maliyyələşdirilməsi fəaliyyəti ilə bilavasitə əlaqəli olub-olmamasından asılı olmayaraq dondurulmalıdır.

11-1.3. Bu Qanunun 19-1.10-cu maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, aktivlər şəxsin terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin siyahısında olduğu müddətdə dondurulmuş saxlanılmalı və şəxs siyahıdan çıxarıldıqdan dərhal sonra azad edilməlidir.

11-1.4. Azərbaycan Respublikasının ərazisində fiziki və ya hüquqi şəxslər tərəfindən istənilən aktivin bu Qanunun 7.2.5-ci maddəsində nəzərdə tutulmuş fiziki və hüquqi şəxslərin bilavasitə və ya dolayısı ilə sahibliyinə, istifadəsinə və ya sərəncamına verilməsi,

bu aktivlərdən həmin şəxslər tərəfindən hər hansı bir formada mənfəət əldə edilməsinə şərait yaradılması qadağandır.".

**8.** Aşağıdakı məzmunda 19-1-ci maddə əlavə edilsin:

"Maddə 19-1. Aktivlərin dondurulması

19-1.1. Maliyyə monitorinqi orqanına bu Qanunun 7.2.5-ci maddəsinə əsasən təqdim edilmiş məlumatın terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxsə, habelə həmin şəxsin sahibliyində və ya nəzarətində olan hüquqi şəxsə, o cümlədən bu şəxsin adından və ya onun tapşırığı ilə fəaliyyət göstərən fiziki və hüquqi şəxsə aid olduğu müəyyən edilərsə maliyyə monitorinqi orqanı iki iş günü ərzində aktivlərin ilkin dondurulması haqqında qərar qəbul edir. Aktivlər maliyyə monitorinqi orqanı tərəfindən 30 gün müddətinə dondurulur.

19-1.2. Aktivlərin dondurulması haqqında qərarın bir nüsxəsi icra edilməsi üçün həmin məlumatı verən monitorinq iştirakçılarına və ya monitorinqdə iştirak edən digər şəxslərə, digər nüsxəsi isə müvafiq sənədlərlə birlikdə dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir.

19-1.3. Bu Qanunun 19-1.2-ci maddəsində nəzərdə tutulmuş məlumatın araşdırılması zamanı cinayət təqibinin həyata keçirilməsi üçün əsaslar müəyyən edilərsə, müvafiq icra hakimiyyəti orqanı aktivlərin terrorçuluğun maliyyələşdirilməsinə yönəldilməsinin qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan əməliyyatların icrasının dayandırılması və ya əmlak üzərinə həbs qoyulması üçün tədbirlər görür.

19-1.4. Bu Qanunun 19-1.2-ci maddəsində nəzərdə tutulmuş məlumatda cinayət təqibinin həyata keçirilməsi üçün əsaslar mövcud deyilsə, müvafiq icra hakimiyyəti orqanı ilkin yoxlama apararaq aşağıdakı halları müəyyən etdikdə, aktivlərin ilkin dondurulması haqqında maliyyə monitorinqi orqanının qərarında nəzərdə tutulmuş müddətin bitməsinə ən azı 15 gün qalmış, aktivlərin yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsinə fiziki və ya hüquqi şəxslərin aktivlərinin dondurulması barədə müraciət edir:

19-1.4.1. aktivləri dondurulması nəzərdə tutulan şəxs terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxs, habelə həmin şəxsin sahibliyində və ya nəzarətində olan hüquqi şəxs, o cümlədən bu şəxsin adından və ya onun tapşırığı ilə fəaliyyət göstərən fiziki və hüquqi şəxs olduqda;

19-1.4.2. aktivləri dondurulması nəzərdə tutulan şəxs terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin siyahısında olmasa da onun terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, həmin əməllərin törədilməsinə kömək və ya həmin əməllərin törədilməsinə cəhd ilə əlaqədar olmasına dair kifayət qədər əsaslar müəyyən edildikdə, o cümlədən xarici dövlətin səlahiyyətli orqanlarından daxil olmuş bu barədə müraciətlər əsaslı hesab edildikdə.

19-1.5. Bu Qanunun 19-1.4.1-ci və ya 19-1.4.2-ci maddələrində nəzərdə tutulmuş hallar təsdiq edilərsə, məhkəmə aktivlərin ilkin dondurulması haqqında maliyyə monitorinqi orqanının qərarında nəzərdə tutulmuş müddət bitənədək aktivlərin dondurulması haqqında qərar qəbul edir.

19-1.6. Məhkəmənin aktivlərin dondurulması haqqında qərarı maliyyə monitorinqi orqanına və aktivləri dondurulmuş şəxsə göndərilir. Aktivləri dondurulmuş şəxs məhkəmənin aktivlərin dondurulması haqqında qərarından yuxarı instansiya məhkəməsinə şikayət verə bilər.

19-1.7. Maliyyə monitorinqi orqanı məhkəmə qərarı əsasında fiziki və ya hüquqi şəxsin aktivlərinin dondurulması barədə məlumatları dərhal rəsmi internet səhifəsində yerləşdirir, nəzarət orqanlarına, habelə birbaşa və ya müvafiq nəzarət orqanları vasitəsilə monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə göndərir. Maliyyə monitorinqi orqanı aktivləri dondurulmuş şəxslərə onların aktivlərinin dondurulmasının əsasları və bununla əlaqədar tətbiq olunacaq tədbirlər, habelə aktivlərin dondurulmasının ləğv edilməsi proseduru barədə məlumatı müvafiq qərarı aldığı vaxtdan 1 gün müddətində yazılı qaydada verir.

19-1.8. Aktivlərin dondurulması haqqında məhkəmə qərarı əsasında fiziki və ya hüquqi şəxslərin aktivlərinin dondurulması üzrə tədbirlər həmin qərar ləğv edilənədək davam etdirilməlidir.

19-1.9. Fiziki və ya hüquqi şəxsin aktivlərinin dondurulması üçün əsaslar aradan qalxdıqda məhkəmə aktivləri dondurulmuş şəxsin və ya müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında aktivlərin dondurulması tədbirlərinin ləğv edilməsi barədə qərar qəbul edir.

19-1.10. Aktivləri dondurulmuş fiziki və ya hüquqi şəxslərin zəruri və gözlənilməz xərclərə ehtiyaclarını ödəmək üçün dondurulmuş aktivlərdən istifadə etmək imkanının təmin edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1401-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddəyə aşağıdakı məzmunda 53-cü bənd əlavə edilsin:

"53) texnoloji nəqliyyat vasitəsi – küçə-yol şəbəkəsində istismar üçün nəzərdə tutulmayan, sənaye sahələrində müvafiq texnoloji proseslərin həyata keçirilməsi zamanı istifadə edilən, xüsusi texnoloji qurğu və avadanlıqlarla təchiz edilmiş nəqliyyat vasitəsidir.".

2. 27-ci maddənin II hissəsində:

2.1. 3-cü bənddə "digər" sözü ", siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən" sözləri ilə əvəz edilsin;

2.2. 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4) texnoloji nəqliyyat vasitələrinin, habelə bu maddənin II hissəsinin 1-ci və 3-cü bəndlərində göstərilən nəqliyyat vasitələri istisna olmaqla, siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər mexaniki nəqliyyat vasitələrinin – Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1341-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6.5-ci maddənin ikinci cümləsində "təyin edən" sözləri "seçən" sözü ilə, üçüncü cümləsində "təyin edilməlidir" sözləri "seçilməlidir" sözü ilə əvəz edilsin.

**2.** 10-cu maddə üzrə:

2.1. 10.1-ci maddəyə "təyin etmiş" sözlərindən sonra "(seçmiş)" sözü əlavə edilsin;

2.2. 10.3-cü maddəyə "təyin edilir" sözlərindən sonra "(seçilir)" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1394-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununu "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 28 aprel tarixli 1271-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486) 14-cü maddəsinə aşağıdakı məzmunda 7-1-ci bənd əlavə edilsin:

"7-1) kütləvi idman tədbirlərinin və idman yarışlarının keçirilməsi zamanı idman obyektlərində, tamaşaçılar üçün nəzərdə tutulmuş yerlərdə, eləcə də idman obyektlərinə bitişik ərazilərdə və təxliyyə yollarında zorakılığın qarşısını almaq, yarış iştirakçılarının və tamaşaçıların təhlükəsizliyini və ictimai asayişi təmin etmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 06 oktyabr 2015-ci il
№ 1370-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701; 2014, № 6, maddə 620; 2015, № 2, maddə 93) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 15-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Azərbaycan Respublikası vətəndaşlığına bərpa haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur.".

**2.** 16-cı maddənin ikinci hissəsi ləğv edilsin.

**3.** 17-ci maddəyə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

"Azərbaycan Respublikası vətəndaşlığından çıxma haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur.".

**4.** 18-ci maddənin ikinci hissəsinə "nəzərə alınmaqla" sözlərindən sonra "məhkəmə tərəfindən" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1340-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483) 94-cü maddəsinin beşinci hissəsinin ikinci və üçüncü cümlələri aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrlərinin vəzifəyə təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq həll edilir. Azərbaycan Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrləri istisna olmaqla, Azərbaycan Respublikası məhkəmələrinin sədrlərinin, sədr müavinlərinin və məhkəmə kollegiyaları sədrlərinin təyinatı Məhkəmə-Hüquq Şurasının təklifinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq aparılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1393-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr

1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 188-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 188. Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma

188.1. Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutma –

səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

188.2. Qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma -

bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

188.3. Bu Məcəllənin 188.1-ci və 188.2-ci maddələrində nəzərdə tutulmuş əməllər kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədildikdə -

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

188.4. Bu Məcəllənin 188.1-188.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

188.4.1. təkrar törədildikdə;

188.4.2. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə -

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**2.** 314-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 314-1. Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinə dair qanunsuz qərar qəbul etmə

314-1.1. Vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələrinin bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və ya onlara icarəyə verilməsi haqqında qanunsuz qərar qəbul etmə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-1.2. Vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi haqqında qərar qəbul etmə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314-1.3. Bu Məcəllənin 314-1.1-ci və 314-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlara münasibətdə törədildikdə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**3.** 314-2-ci maddənin adına "torpaq sahələri ayırma," sözlərindən sonra "yaxud" sözü əlavə edilsin.

**4.** 314-2.2-ci maddədə "ayırma," sözü "və ya kənd təsərrüfatı təyinatlı torpaq sahələrini ayırma, yaxud" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2015-ci il
№ 1336-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Dini ekstremizmə qarşı mübarizə haqqında

Bu Qanun Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edir, dini ekstremizm əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının və vətəndaşların hüquq və vəzifələrini təsbit edir.

### I fəsil
### Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.0.1. dini ekstremizm (dini ekstremist fəaliyyət) – dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində:

1.0.1.1. Azərbaycan Respublikasının konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin

zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına, yaxud hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlərin törədilməsi;

1.0.1.2. qanunsuz silahlı birləşmələrin və ya qrupların yaradılması, həmin birləşmə və ya qruplarda iştirak edilməsi;

1.0.1.3. terror fəaliyyətinin həyata keçirilməsi;

1.0.1.4. Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak edilməsi;

1.0.1.5. milli, sosial və ya dini nifrətin salınması, milli ləyaqətin alçaldılması, milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlərin törədilməsi;

1.0.1.6. şəxsin hər hansı dinə (dini cərəyana) etiqad etməyə, o cümlədən dini ayin və mərasimləri yerinə yetirməyə və ya dini ayin və mərasimlərdə iştirak etməyə, habelə dini təhsil almağa məcbur edilməsi;

1.0.1.7. bu Qanunun 1.0.1.1–1.0.1.5-ci maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsinə açıq çağırışların edilməsi;

1.0.1.8. dini ekstremist materialların, yəni dini ekstremist fəaliyyəti həyata keçirməyə çağıran və ya belə fəaliyyəti əsaslandıran, yaxud belə fəaliyyətin zəruriliyinə bəraət qazandıran materialların hazırlanması, saxlanması və ya yayılması;

1.0.1.9. dini ekstremizmin maliyyələşdirilməsi;

1.0.2. dini radikalizm – hər hansı dini etiqad çərçivəsində ifrat dini baxışlara bağlılığı ifadə edən, həmin dini baxışların müstəsnalığının təsbit edilməsində barışmaz mövqe nümayiş etdirən və yayılmasında aqressiv üsul və vasitələrdən istifadə edilməsi ilə səciyyələnən davranış;

1.0.3. dini fanatizm – dini ekstremizmin ideoloji əsaslarından biri olmaqla, dini inamın hər hansı tənqidi yanaşmanı istisna edən və dini normalara kor-koranə riayət etmə ilə müşayiət edilən ifrat dərəcəsi;

1.0.4. dini ekstremist – hər hansı formada dini ekstremist fəaliyyətin həyata keçirilməsində iştirak edən şəxs;

1.0.5. dini ekstremist təşkilat – dini ekstremist fəaliyyətin həyata keçirilməsi məqsədilə yaradılan və ya məqsədlərinə nail olmaq üçün belə fəaliyyəti həyata keçirən təşkilatdır. Əgər struktur bölmələrindən biri təşkilatın hər hansı bir rəhbər orqanının razılığı ilə ekstremist fəaliyyət ilə məşğuldursa, həmin təşkilat dini ekstremist təşkilat hesab edilir;

1.0.6. dini ekstremizmə qarşı mübarizə – dini ekstremist fəaliyyətin aşkar edilməsi, qarşısının alınması, habelə dini ekstremist fəaliyyət nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi ilə bağlı fəaliyyət;

1.0.7. dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyatlar – dini ekstremist fəaliyyətin qarşısının alınması, insanların təhlükəsizliyinin təmin edilməsi, dini ekstremistlərin zərərsizləşdirilməsi, habelə dini ekstremist fəaliyyət nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi məqsədilə həyata keçirilən xüsusi tədbirlər;

1.0.8. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonası – ərazinin və ya akvatoriyanın ayrıca sahələrində, nəqliyyat vasitələrində, binalarda, tikililərdə, qurğularda, yaşayış evlərində və onlara bitişik ərazilərdə xüsusi əməliyyatların aparıldığı hüdudlar.

**Maddə 2. Dini ekstremizmə qarşı mübarizə haqqında qanunvericilik**

Dini ekstremizmə qarşı mübarizə haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

**Maddə 3. Dini ekstremizmə qarşı mübarizənin məqsədi**

3.0. Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizə aşağıdakı məqsədlərlə həyata keçirilir:

3.0.1. Azərbaycan Respublikasının konstitusiya quruluşunun əsaslarının, habelə ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi;

3.0.2. insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi;

3.0.3. dini ekstremist fəaliyyətin aşkar edilməsi, qarşısının alınması və dini ekstremizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi;

3.0.4. dini ekstremizmin yaranması və dini ekstremist fəaliyyətin həyata keçirilməsi səbəblərinin və şəraitinin, habelə dini ekstremizmin maliyyələşdirilməsi hallarının aşkar və ləğv edilməsi.

**Maddə 4. Dini ekstremizmə qarşı mübarizənin əsas prinsipləri**

4.0. Azərbaycan Respublikasında dini ekstremizmə qarşı mübarizə aşağıdakı prinsiplərə əsaslanır:

4.0.1. qanunçuluğun təmin edilməsi;

4.0.2. dini ekstremizmə görə cəzanın labüdlüyü;

4.0.3. dini ekstremizmə qarşı mübarizə zamanı açıq və gizli metodların əlaqələndirilməsi;

4.0.4. hüquqi, siyasi, ideoloji, sosial-iqtisadi və təşkilati profilaktik tədbirlərdən kompleks istifadə;

4.0.5. dini ekstremizm nəticəsində təhlükəyə məruz qalmış şəxslərin hüquqlarının müdafiəsinin üstünlüyü;

4.0.6. dini ekstremizm əleyhinə aparılan əməliyyatların həyata keçirilməsində iştirak edən şəxsi heyətin, o cümlədən bu məqsədlə istifadə edilən texniki üsulların və taktikanın elan edilməsində minimal aşkarlıq.

## II fəsil
## Dini ekstremizm əleyhinə xüsusi əməliyyatların aparılması

**Maddə 5. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatlar aparan orqanlar**

Dini ekstremizm əleyhinə xüsusi əməliyyatlar müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır.

**Maddə 6. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyatların qüvvə və vasitələrlə təmin edilməsi**

Dini ekstremizm əleyhinə xüsusi əməliyyatların aparılması üçün dini ekstremizmə qarşı mübarizədə iştirak edən müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan lazımi qüvvələrdən və vasitələrdən istifadə olunur.

**Maddə 7. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejimi**

7.1. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasının hüdudları əməliyyatı aparan orqan tərəfindən müəyyən edilir.

7.2. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında bu əməliyyatı aparan şəxslər aşağıdakı hüquqlara malikdirlər:

7.2.1. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında nəqliyyat vasitələrinin və piyadaların hərəkətini müvəqqəti məhdudlaşdıran və ya qadağan edən tədbirləri tətbiq etmək, ərazinin müəyyən sahələrinə və obyektlərə nəqliyyat vasitələrini və piyadaları buraxmamaq;

7.2.2. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadan, onların günün müəyyən edilmiş vaxtında küçələrdə və ya digər ictimai yerlərdə olmalarını qadağan etmək;

7.2.3. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasına giriş və ya bu zonadan çıxış zamanı fiziki şəxslərə, onların əşyalarına, nəqliyyat vasitələrinə və nəqliyyat vasitələrində olan əşyalara texniki vasitələr tətbiq etməklə baxış keçirmək;

7.2.4. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədləri yoxlamaq, belə sənədlər olmadıqda isə şəxsiyyətinin müəyyən edilməsi məqsədilə həmin şəxsləri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada və müddətə tutmaq;

7.2.5. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması məqsədi ilə fiziki şəxslərin mənzilinə və digər yaşayış yerlərinə, onların torpaq sahələrinə, nəqliyyat vasitələrinə, habelə mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin ərazilərinə, binalarına, nəqliyyat vasitələrinə maneəsiz daxil olmaq;

7.2.6. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan şəxslərin qanuni tələblərinə mane olmağa yönəlmiş hərəkətlər törədən şəxsləri tutmaq;

7.2.7. müqavimət göstərən dini ekstremistləri zərərsizləşdirmək;

7.2.8. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar zərurət yarandıqda fiziki şəxsləri əməliyyatın aparılma zonasından köçürtmək, binaların, qurğuların və digər tikililərin sökülməsini təmin etmək;

7.2.9. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında fiziki və hüquqi şəxslərə rabitə xidmətlərinin və kommunal xidmətlərin göstərilməsini müvəqqəti dayandırmaq;

7.2.10. dini ekstremist fəaliyyəti aşkar etmək, həmin fəaliyyətə qarşı mübarizə aparmaq və onun qarşısını almaq məqsədi ilə telefon danışıqlarına qulaq asma, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər əməliyyat-axtarış tədbirlərini tətbiq etmək;

7.2.11. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında sanitar-epidemioloji, baytarlıq və digər karantin tədbirlərini tətbiq etmək;

7.2.12. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında tərkibində narkotik və ya psixotrop maddələr olan dərman vasitələrinin dövriyyəsini məhdudlaşdırmaq.

7.3. Dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanın göstərişlərinin icrası əməliyyat zonasında bütün fiziki və hüquqi şəxslər üçün məcburidir.

**Maddə 8. Dəymiş ziyana görə məsuliyyətdən azad olma**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına ziyan vurulmasına yol verilir. Dini ekstremizmə qarşı mübarizədə iştirak edən şəxs dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zamanı dini ekstremistlərin həyatına, sağlamlığına və ya əmlakına vurulmuş ziyana görə məsuliyyət daşımır.

**Maddə 9. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatlar barədə ictimaiyyətə məlumatın verilməsi**

9.1. Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında kütləvi informasiya vasitələri işçilərinin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir.

9.2. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.

9.3. Aşağıdakı məlumatların yayılmasına yol verilmir:

9.3.1. dini ekstremizm əleyhinə xüsusi əməliyyatların aparılması taktikası və texniki üsulları haqqında məlumatlar;

9.3.2. dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasında və ya bu zonanın hüdudlarından kənarda olan insanların həyatına və sağlamlığına təhlükə yaradan və dini ekstremizm əleyhinə xüsusi əməliyyatların aparılmasına maneə törədən məlumatlar;

9.3.3. dini ekstremizmə bəraət qazandıran və ya onun təbliğinə xidmət edən məlumatlar;

9.3.4. dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyatlarda iştirak edən, habelə bu əməliyyatların aparılmasına kömək edən şəxslər haqqında məlumatlar.

9.4. Kütləvi informasiya vasitələrinin işçiləri bu Qanunun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına görə məsuliyyət daşıyırlar.

**Maddə 10. Dini ekstremizmə qarşı mübarizə aparan dövlət orqanlarına kömək göstərilməsi**

10.1. Dövlət və yerli özünüidarəetmə orqanları, fiziki və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər dini ekstremizmə qarşı mübarizə aparan dövlət orqanlarına kömək etməyə borcludurlar.

10.2. Dini ekstremizm, dini fanatizm və dini radikalizm hallarının aşkar edilməsinə və qarşısının alınmasına, habelə bu hallar nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsinə kömək edə biləcək məlumatları müvafiq dövlət orqanlarına vermək hər kəsin borcudur.

**Maddə 11. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyatın başa çatmasının elan edilməsi**

Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın başa çatması əməliyyat aparan orqan tərəfindən elan edilir.

**III fəsil**
**Yekun müddəalar**

**Maddə 12. Dini ekstremizmə qarşı mübarizənin həyata keçirilməsində qanunların icrasına nəzarət**

Dini ekstremizmə qarşı mübarizənin həyata keçirilməsində qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər.

**Maddə 13. Dini ekstremist fəaliyyətdə iştiraka görə məsuliyyət**

Dini ekstremist fəaliyyətdə iştirak edən şəxslər Azərbaycan Respublikasının Cinayət, İnzibati Xətalar və Mülki məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 14. Dini ekstremist təşkilatların qadağan edilməsi**

Dini ekstremist fəaliyyətlə məşğul olan hüquqi şəxslər ləğv edilir və onların fəaliyyəti qadağan edilir.

**Maddə 15. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasına görə fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının Cinayət, İnzibati Xətalar və Mülki məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 dekabr 2015-ci il
№ 27-VQ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701; 2014, № 6, maddə 620; 2015, № 2, maddə 93; Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1340-IVQD nömrəli Qanunu) 18-ci maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda 3-1-ci və 3-2-ci bəndlər əlavə edilsin:

"3-1) Azərbaycan Respublikası vətəndaşının terror fəaliyyətində iştirakı və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətləri həyata keçirməsi;

3-2) Azərbaycan Respublikası vətəndaşının dini ekstremist fəaliyyətdə iştirakı, o cümlədən dini düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlərin icrası adı altında xarici dövlətdə silahlı münaqişədə iştirak etməsi və ya həmin münaqişəyə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə sabit qrup yaratması, habelə Azərbaycan Respublikası vətəndaşının dini təhsil adı altında xarici dövlətdə hərbi təlim keçməsi;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 dekabr 2015-ci il
№ 28-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367; Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1350-IVQD nömrəli Qanunu) 21-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 21. Dini ayinlər, mərasimlər və atributlar";

**2.** üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə bilər. Xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşlarına islam dininə aid ayin və mərasimlərin aparılması qadağandır.";

**3.** aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

"İbadətgahlardan kənarda, ictimai yerlərdə dini şüarların və digər dini atributların (şəxsin üstündə gəzdirdiyi dini atributlar istisna olmaqla) nümayiş etdirilməsi qadağandır. Dini bayraqlar yalnız ibadətgahların, dini mərkəz və idarələrin qapalı yerlərində yerləşdirilə bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 dekabr 2015-ci il
№ 29-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171; 2014, № 2, maddə 87, № 11, maddə 1360; 2015, № 5, maddə 486; Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1370-IVQD nömrəli Qanunu) 26-cı maddəsinin IV hissəsində aşağıdakı məzmunda 5-1-ci bənd əlavə edilsin:

"5-1) terrorçuluq və ya dini ekstremizm, yaxud dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi ilə bağlı cinayətlərin qarşısı alındıqda;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 dekabr 2015-ci il
№ 30-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692; Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1336-IVQD, 6 oktyabr tarixli 1361-IVQD, 20 oktyabr tarixli 1396-IVQD və 1406-IVQD nömrəli qanunları) aşağıdakı məzmunda 168-1-ci maddə əlavə edilsin:

"Maddə 168-1. Dini təbliğat, dini ayin və mərasimlərin aparılması tələblərini pozma

168-1.1. İslam dininə aid ayin və mərasimlərin xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşı tərəfindən aparılması –

iki min manatdan beş min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

168-1.2. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən dini təbliğat aparılması –

bir ildən iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

168-1.3. Bu Məcəllənin 168-1.1-ci və 168-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

168-1.3.1. təkrar törədildikdə;

168-1.3.2. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə –

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 dekabr 2015-ci il
№ 31-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə

463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360, № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691; Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1321-IVQD, 1337-IVQD, 6 oktyabr tarixli 1347-IVQD, 1360-IVQD, 1362-IVQD, 1367-IVQD, 1376-IVQD və 20 oktyabr tarixli 1407-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 51.1-1-ci maddə əlavə edilsin:

“51.1-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən bir ay ərzində 7 gündən çox buraxılmasına görə -

yüz manat miqdarında cərimə edilir.”.

**2.** 51.2-ci maddənin dispozisiyasında “maddəsində” sözü “və 51.1-1-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**3.** 51.3-cü maddənin dispozisiyasında “51.1-ci” sözlərindən sonra “, 51.1-1-ci” sözləri əlavə edilsin.

**4.** 358-ci maddədə “51,” rəqəmləri “51.1, 51.2, 51.3,” rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 dekabr 2015-ci il
№ 32-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №4, II kitab, maddə 251, №5, maddə 323, №12, maddə 835; 2001, №1, maddə 24, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddələr 236, 248, 258, №6, maddə 326, №8, maddə 465; 2003, №6, maddələr 276, 279, № 8, maddələr 424, 425, №12, I

kitab, maddə 676; 2004, №1, maddə 10, №4, maddə 200, №5, maddə 321, №8, maddə 598, №10, maddə 762, №11, maddə 900; 2005, №1, maddə 3, №6, maddə 462, №7, maddə 575, №10, maddə 904, №11, maddə 994; 2006, №2, maddələr 71, 72, 75, №5, maddə 390, №12, maddələr 1008, 1020, 1028; 2007, №2, maddə 68, №5, maddə 398, №6, maddələr 560, 562, 579, №8, maddə 757, №10, maddələr 937, 941, №11, maddələr 1049, 1080, 1090, №12, maddə 1221; 2008, №6, maddələr 454, 461, №7, maddə 602, №10, maddə 884, №12, maddələr 1047, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 953; 2010, №2, maddə 70, №3, maddələr 171, 178, №4, maddələr 275, 276, №7, maddə 591; 2011, №4, maddə 253, №6, maddə 472, №7, maddələr 587, 601, 621, №11, maddə 980, №12, maddə 1093; 2012, №2, maddə 45, №3, maddələr 193, 196, №7, maddələr 666, 669, 673; №11, maddə 1068, №12, maddə 1223; 2013, №1, maddə 14, №2, maddə 102, №4 maddə 364, №5, maddələr 459, 479, 481, №6, maddələr 594, 600, №11, maddələr 1264, 1286, 1312, №12, maddə 1492; 2014, № 2, maddələr 89, 95; №4, maddə 327; №6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368; № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 205-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 205-1. Saxta aksiz markalarının dövriyyəsi

Saxta aksiz markalarını hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan məhsulları (malları) saxta aksiz markaları ilə markalama, fiziki şəxslər tərəfindən pərakəndə satış obyektindən istehlak məqsədi ilə əldə etmə istisna olmaqla, saxta aksiz markaları ilə markalanmış məhsulları (malları) əldə etmə, saxlama və ya satma -

min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Qeyd:** Saxta aksiz markası ilə markalanmış məhsulları (malları) əldə edən, saxlayan və ya satan şəxs həmin məhsulların (malların) digər şəxsdən alınmasını təsdiq edən ciddi hesabat blankı, elektron qaimə-faktura təqdim etdikdə cinayət məsuliyyətinə cəlb olunmur.".

1.2. 213-1-ci maddə üzrə:

1.2.1. maddənin adına "idxal etmə" sözlərindən sonra ", belə məhsulların (malların) nağd qaydada alğı-satqısı" sözləri əlavə edilsin;

1.2.2. aşağıdakı məzmunda 213-1.3-cü və 213-1.4-cü maddələr əlavə edilsin:

"213-1.3. Tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markası ilə markalanmalı olan məhsulları (malları) nağd qaydada xeyli miqdarda satma, belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda alma -

min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

213-1.4. Eyni əməllər külli miqdarda törədildikdə -

iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

1.2.3. maddənin "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

"Qeyd: Bu Məcəllənin 213-1.1-ci maddəsində "xeyli miqdar" dedikdə beş yüz manatdan iki min manatadək olan məbləğ, 213-1.2-ci maddəsində "külli miqdar" dedikdə iki min manatdan yuxarı olan məbləğ, 213-1.3-cü maddəsində "xeyli miqdar" dedikdə əlli manatdan min manatadək olan məbləğ, 213-1.4-cü maddəsində "külli miqdar" dedikdə isə min manatdan yuxarı olan məbləğ başa düşülür".

**Maddə 2.** Bu Qanun müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları ilə eyni gündə qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1388-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, №

6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496, 1503; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; 2015, № 2, maddələr 80, 94, 106, № 3, maddə 258, № 4, maddələr 340, 344, 349, 353, 356, 360; № 5, maddələr 505, 506, 509, № 6, maddələr 679, 691) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 229-cu maddə üzrə:

1.1. maddənin adına “kənara çıxarılması” sözlərindən sonra “, belə məhsulların (malların) nağd qaydada alğı-satqısı” sözləri əlavə edilsin;

1.2. maddənin dispozisiyası 229.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 229.2-ci maddə əlavə edilsin:

“229.2. Tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan məhsulların (malların) nağd qaydada az miqdarda satılması, belə məhsulların (malların) satış məqsədləri üçün nağd qaydada az miqdarda alınması –

yüz manat miqdarında cərimə edilir.”.

1.3. maddənin “Qeyd” hissəsi aşağıdakı redaksiyada verilsin:

**“Qeyd:** Bu Məcəllənin 229.1-ci maddəsində "az miqdarda" dedikdə beş yüz manatadək, 229.2-ci maddəsində isə "az miqdarda" dedikdə əlli manatadək olan məbləğ başa düşülür”.

**2.** 360.1-ci maddədə “229” rəqəmləri “229.1” rəqəmləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən aksiz markası ilə markalanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi qaydaları ilə eyni gündə qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1389-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105;

2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 233.1-ci maddədə "Məhkəmə" sözü "Bu Məcəllənin 355-7.4-cü maddəsində qeyd olunan hallar istisna olmaqla, məhkəmə" sözləri ilə əvəz edilsin.

**2.** 305.1.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 305.1.12-ci maddə əlavə edilsin:

"305.1.12. vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında." .

**3.** Aşağıdakı məzmunda 40-2-ci fəsil əlavə edilsin:

"Fəsil 40-2. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər üzrə icraat

Maddə 355-5. Ərizənin verilməsi

355-5.1. Vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanı fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə müraciət etmək hüququna malikdir.

355-5.2. Ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin yaşadığı (olduğu) yer üzrə verilir.

Maddə 355-6. Ərizənin məzmunu

Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizədə məhdudlaşdırmaya əsas olan hallar qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-7. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

355-7.1. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə məhkəməyə təqdim olunduqdan sonra məhkəmə tərəfindən 10 gün müddətinə baxılır.

355-7.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşə baxılmanın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş işdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur. Lakin işdə maraqlı olan şəxslər üzrlü səbəblərdən gəlmədiyi hallarda məhkəmə işin baxılmasını təxirə salır.

355-7.3. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-7.4. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

355-7.5. Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.

355-7.6. Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında ərizə məhkəmə tərəfindən təmin edilərək müvafiq qətnamə qəbul edildikdən sonra ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda, müvafiq icra hakimiyyəti orqanının ərizəsinə əsasən məhkəmə tərəfindən iki iş günü ərzində həmin məhdudlaşdırmanın götürülməsi barədə qətnamə qəbul edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1386-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 21-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 9.3.6-cı maddədə "məhkəmə qərarı" sözləri "məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları" sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 9.3.6-1-ci maddə əlavə edilsin:

"9.3.6-1. vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər

üzrə borcları və faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını dövlət büdcəsinə ödəməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda – məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;".

**3.** 17.1.6-cı maddədə "məhkəmə qərarı" sözləri "məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları" sözləri ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 17.1.6-1-ci maddə əlavə edilsin:

"17.1.6-1. vergi ödəyicisi vergi öhdəliyini Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcları və faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını dövlət büdcəsinə ödəməməsinə görə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda – məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1387-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114; 2003, № 6, maddə 277; 2004, № 8, maddə 598, № 11, maddə 901, № 12, maddə 973; 2007, № 1, maddə 3, № 6, maddə 562, № 11, maddə 1053; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 952; 2010, № 2, maddə 75, № 7 maddə 591; 2011, № 7, maddə 618; 2012, № 11, maddə 1052; 2013, № 6, maddə 613, № 7, maddə 787, № 12, maddə 1494) 84-1.1-ci maddəsində "Məhkəmə qərarları" sözlərindən sonra ", əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2015-ci il
№ 1385-IVQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 6, maddə 405; 2002-ci il, №8, maddə 478; 2003-cü il, №10, maddə 585; 2004-cü il, № 1, maddə 19; 2005-ci il, № 4, maddə 299; 2006-cı il, № 2, maddə 92; 2010-cu il, № 4, maddə 289; 2011-ci il, № 4, maddə 272; № 5, maddə 381; 2014-cü il, № 7, maddə 818; 2015-ci il, № 6, maddə 695) IV hissəsi aşağıdakı redaksiyada verilsin:

"IV. Rabitə xidmətləri göstərən hüquqi və fiziki şəxslər üçün rabitə şəbəkələrində əməliyyat-axtarış

tədbirlərinin təminatına dair texniki-təşkilati şərtlərin müəyyənləşdirilməsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi tərəfindən, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid olan hissədə isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir. Rabitə şəbəkələrində aparılan əməliyyat-axtarış tədbirləri üzrə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin rabitə şəbəkələrinə qoşulması Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən "Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar"a uyğun olaraq həyata keçirilir.".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 oktyabr 2015-ci il
№ 639

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** "Rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinə dair Qaydalar" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi rabitə şəbəkələrində əməliyyat-axtarış tədbirlərinin təşkilini bu Fərmanla təsdiq edilən Qaydalara uyğunlaşdırsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 oktyabr 2015-ci il
№ 638

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 465 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 465 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 9, maddə 742) 2-ci hissəsində "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid olan hissədə isə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 oktyabr 2015-ci il
№ 640

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında

Sahibkarlıq fəaliyyətinin inkişafı Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Lakin sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının çoxluğu, xüsusi razılıq (lisenziya) verilməsinin mövcud prosedurları sahibkarlığın inkişafına əlavə çətinliklər və korrupsiya hallarına şərait yaratmışdır.

Azərbaycan Respublikası ərazisində sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin təmin edilməsi, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan bütün növləri üzrə (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş xüsusi razılıq (lisenziya) verilməsinin aşağıdakı qaydalara uyğun həyata keçirilməsi təmin edilsin:

2.1. sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətlərindən asılı olaraq Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən zəruri hesab edildikdə xüsusi razılıq (lisenziya) verilməsi ilə əlaqədar aidiyyəti dövlət orqanlarının rəyinin alınması;

2.2. müəyyən edilmiş müddətdə aidiyyəti dövlət orqanı tərəfindən rəy bildirilmədikdə müsbət rəyin verilmiş hesab edilməsi;

2.3. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən xüsusi razılıq (lisenziya) verilməsi xidmətinin "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsi.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi:

3.1. aşağıdakı məsələlərə dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayının minimuma endirilməsi;

3.1.2. dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının müəyyən edilməsi;

3.1.3. bu Fərmanın müddəaları nəzərə alınmaqla sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya) verilməsi qaydasının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi məqsədi ilə təkmilləşdirilməsi.

3.2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədlərin elektron qaydada verilməsini təmin edən "Elektron lisenziya" portalının yaradılması istiqamətində işləri sürətləndirsin.

**4.** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, №2, maddə 117, №7, maddə 486, №9, maddə 1044; 2015, №6, maddə 708, №8, maddə 917) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.17-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.18-ci bənd əlavə edilsin:

"5.18. sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi.";

4.2. 6-cı hissədə "Nəqliyyat Nazirliyinə," sözlərindən sonra "İqtisadiyyat və Sənaye Nazirliyinə," sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanun layihəsinə baxılmasının sürətləndirilməsi tövsiyə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 oktyabr 2015-ci il
№ 650

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gömrük-buraxılış məntəqələrində gömrük-keçid qaydalarının sadələşdirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğindən (müşayiət edilən hər bir yetkinlik yaşına çatmamış fiziki şəxsə görə əlavə 2000 ABŞ dolları ekvivalenti məbləğindən) artıq olmayan mallar (aksizli mallar, avtonəqliyyat vasitələri və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalar istisna olmaqla) gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçirilir.

**2.** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 396 nömrəli Fərmanının 3.1-ci və 3.2-ci bəndlərinə uyğun olaraq, gətirilməsi və aparılması qadağan edilən və məhdudlaşdırılan əşyaların siyahısının dövlət sərhədinin buraxılış məntəqələrində hər kəsin yaxşı görə biləcəyi lövhələrdə yerləşdirildiyinə dair məlumatı bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 oktyabr 2015-ci il
№ 656

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqinin təmin edilməsi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinin təkmilləşdirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. bu Fərmanın müddəaları vergi yoxlamalarına şamil edilmir;

1.2. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun 2.1-ci maddəsinin birinci və ikinci cümlələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 3.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi nəzərdə tutulur.

**2.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı" təsdiq edilsin.

**3.** Bu Fərmanla təsdiq edilən Siyahıda nəzərdə tutulan yoxlamalara aşağıdakı məhdudiyyətlər müəyyən edilsin:

3.1. yoxlamalar yalnız insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan halların mövcudluğuna əsaslar olduqda aparılır;

3.2. bu Fərmanla təsdiq edilən Siyahının 1.4-1.6-cı bəndlərində nəzərdə tutulmuş yoxlamalar istisna olmaqla, yoxlamalar Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin razılığı ilə aparılır;

3.3. sahibkarın fəaliyyətinə tətbiq edilən istehsalın və ya malın satışının dayandırılması, habelə digər məhdudlaşdırıcı tədbirlər yalnız Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin razılığı ilə tətbiq edilir.

**4.** Yoxlayıcı orqanlar tərəfindən yoxlamaların aparılması və Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən yoxlamaların aparılmasına razılıq verilməsi məsələləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.3-cü maddəsinin tətbiqi qaydası və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 31 oktyabr tarixli 322 nömrəli Fərmanı nəzərə alınmaqla həll edilsin.

**5.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

5.1. sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin aparılma qaydasının təkmilləşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə birlikdə bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin real vaxt rejimində tam inteqrasiyasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**6.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi sahibkarların Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dayandırması barədə vergi orqanlarına müraciət etdiyi hər bir hal barədə dərhal Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyini məlumatlandırsın.

**7.** Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi:

7.1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası

Qanununun və bu Fərmanın tətbiqi ilə əlaqədar sahibkarların Nazirliyin "Qaynar xətt"inə daxil olan müraciətlərinin operativ araşdırılmasını təmin etsin;

7.2. sahibkarların Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dayandırmasına dair müraciətləri barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyindən daxil olmuş məlumatlar əsasında sahibkarlıq fəaliyyətinin dayandırılması səbəblərinin araşdırılması və həmin səbəblərin aradan qaldırılması üçün mümkün olan tədbirləri görsün və ya təkliflər versin;

7.3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələblərin pozulması hallarını aşkar etdikdə, bu barədə məlumatları Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim etsin;

7.4. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun və bu Fərmanın tətbiqi nəticələri barədə üç ayda bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin.

**8.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunundan və bu Fərmandan irəli gələn tələblərin pozulmasına dair məlumatların araşdırılmasını və aşkar olunmuş hüquq pozuntuları barədə müvafiq tədbirlərin görülməsini təmin etsin, bu barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 oktyabr 2015-ci il
№ 660

*Azərbaycan Respublikası Prezidentinin*
*2015-ci il 26 oktyabr tarixli 660 nömrəli fərmanı ilə*
*təsdiq edilmişdir*

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı

**1.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində nəzərdə tutulan müddətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, dövlət mülkiyyətində olmayan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olmayan hüquqi şəxslər barəsində siyahısı aşağıda göstərilən yoxlamalar aparıla bilər:

1.1. dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsinin və sanitar-gigiyenik qaydalara riayət edilməsinin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən yoxlanılması;

1.2. fitosanitar tələblərə, qaydalara uyğunluğun və baytarlıq tələblərinə, qaydalarına uyğunluğun Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən yoxlanılması;

1.3. təbii qaz, su təchizatı, elektrik və ya istilik şəbəkələrinə qanunsuz qoşulma hallarının yoxlanılması;

1.4. sığortaçıların, təkrarsığortaçıların və sığorta vasitəçilərinin fəaliyyətinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən yoxlanılması;

1.5. kredit təşkilatlarının, habelə onların törəmə təsərrüfat cəmiyyətlərinin Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yoxlanılması;

1.6. radioaktiv, partlayıcı və digər xüsusi təhlükəli maddələrin və ya avadanlıqların saxlanılması və dövriyyəsi, dağ-mədən işlərinin, hidrotexniki qurğularda, neft və qazçıxarma sənaye obyektlərində və xüsusi təhlükəli digər sahələrdə işlərin görülməsi zamanı texniki təhlükəsizlik qaydalarına riayət olunmasının, aparılan işlərin və istismarda olan obyektlərin tikinti, texniki və yanğın təhlükəsizliyi normalarına uyğunluğunun Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən yoxlanılması.

**2.** Bu Siyahının 1-ci hissəsində nəzərdə tutulmamış, lakin insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan təxirəsalınmaz hallarda yoxlamalar müstəsna qaydada aidiyyəti dövlət orqanının əsaslandırılmış müraciəti əsasında Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin razılığı ilə aparılır. Bu halda Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi sahibkarların hüquqlarının müdafiəsi üçün zəruri hesab etdikdə yoxlama həmin Nazirliyin əməkdaşının iştirakı ilə aparılır.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 31-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 31-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, III kitab, maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625) 3-cü hissəsinin on üçüncü abzasına "167" rəqəmlərindən sonra ", 168-1" rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 dekabr 2015-ci il
№ 696

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında xüsusi xidmət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaq və dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazir-

liyinin əsasında Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti yaradılsın.

**2.** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə tapşırılsın ki, əsasnamələrinin layihələrini, strukturları və işçilərinin say tərkibi barədə təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikasının 2015-ci il və 2016-cı il dövlət büdcələrində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi üçün nəzərdə tutulmuş vəsait çərçivəsində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin 2015-ci və 2016-cı illərdə fəaliyyətinin maliyyələşməsini təmin etsin;

3.2. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təşkili üçün maddi-texniki təminatı ilə bağlı məsələləri həll etsin;

3.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 dekabr 2015-ci il

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 5 dekabr tarixli 696 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** üçüncü abzasda "270-285" rəqəmləri "270, 274-285" rəqəmləri ilə əvəz edilsin;

**2.** on üçüncü abzasda "və 216-cı" sözləri ", 216 və 271–273-2-ci" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 dekabr 2015-ci il
№ 707